Office for Democratic Institutions and Human Rights

# AZƏRBAYCAN RESPUBLİKASI

## NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ
## 7 fevral 2024-cü il

### DTİHB-nin Seçki Müşahidə Missiyası
### Yekun Hesabat

Varşava
27 fevral 2025-ci il

# MÜNDƏRİCAT


**I. QİSA İCMAL ... 1**

**II. GİRİŞ SÖZÜ VƏ MİNNƏTDARLIQ ... 4**

**III. ÜMUMİ MƏLUMAT VƏ SİYASİ KONTEKST ... 5**

**IV. HÜQUQİ ÇƏRÇİVƏ VƏ SEÇKİ SİSTEMİ ... 7**

**V. SEÇKİNİN İDARƏ EDİLMƏSİ ... 8**

**VI. SEÇİCİ QEYDİYYATI ... 10**

**VII. PARTİYANIN VƏ NAMİZƏDİN QEYDİYYATI ... 12**

**VIII. SEÇKİ TƏŞVİQATI ... 14**

**IX. SEÇKİ KAMPANİYASININ MALİYYƏLƏŞDİRİLMƏSİ ... 18**

**X. KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ ... 19**

A. MEDIA MÜHITI ... 19
B. HUQUQI ÇƏRÇIVƏ ... 20
C. MEDİA MONİTORİNQİN MÜŞAHİDƏLƏRİ ... 23

**XI. SEÇKİ MÜBAHİSƏLƏRİN HƏLLİ ... 24**

**XII. VƏTƏNDAŞ VƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR ... 26**

**XIII. SEÇKİ GÜNÜ ... 27**

A. AÇILIŞ VƏ SƏSVERMƏ ... 27
B. BAĞLANIŞ VƏ SƏSLƏRIN HESABLANMASI ... 28
C. SƏSLƏRIN HESABLANMASI VƏ NƏTICƏLƏRIN ELƏN OLUNMASI ... 29

**XIV. TÖVSİYYƏLƏR ... 30**

A. PRIORITET TÖVSIYƏLƏR ... 30
B. DIGƏR TÖVSIYƏLƏR ... 31

**QOŞMA I – SEÇKİNİN YEKUN NƏTİCƏLƏRİ VƏ SEÇİCİ FƏALLIĞI ... 34**

**QOŞMA II – BEYNƏLXALQ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASINDAKI MÜŞAHİDƏÇİLƏRİN SİYAHISI ... 35**

**DTİHB HAQQINDA ... 43**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ**
**7 fevral 2024-cü il**

**DTİHB-nin Seçki Müşahidə Missiyasının Yekun Hesabatı**[1]

# I. QİSA İCMAL

Azərbaycan Respublikası Hökumətinin dəvəti ilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) 7 fevral 2024-cü il növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün Seçki Müşahidə Missiyasını (SMM) təşkil etmişdi. DTİHB SMM seçki prosesinin ATƏT qarşısında götürülmüş öhdəliklərə və demokratik seçkilərə dair digər beynəlxalq öhdəlik və standartlara və yerli qanunvericiliyə uyğunluğunu qiymətləndirmişdir. Seçki günü DTİHB SMM və ATƏT-in Parlament Assambleyasının nümayəndə heyətlərinin birgə səyləri ilə Beynəlxalq Seçki Müşahidə Missiyası (BSMM) təşkil olunmuşdur.

BSMM-in 8 fevral 2024-cü il tarixində yaydığı İlkin Müşahidələr və Nəticələr Bəyanatında qeyd olunmuşdur ki, "Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri məhdudlaşdırıcı mühitdə keçdi və seçkiyə hazırlıqlar səmərəli idarə edilsə də, tənqidi səslərin boğulması və siyasi alternativlərin olmaması ilə yadda qaldı. Bu, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış bütün ərazisində keçirilən ilk seçki idi. Bu mövzu əsasən süst keçən kampaniyada üstünlük təşkil edib və ictimai əhval-ruhiyyəni əks etdirib. Hazırki Prezidentin mövqeyi mənalı mübahisələndirilmədi, müstəqil media, vətəndaş cəmiyyəti və siyasi partiyalar üçün məkanın daralması ilə bərabər ölkə rəhbərinin səlahiyyətlərin artırılması isə həqiqi plüralizmdən məhrum olan rəqabətlə nəticələndi. Birləşmək, ifadə və sərbəst toplaşmaq kimi fundamental azadlıqlarına uzun müddətdir qoyulmuş ciddi məhdudiyyətlər həm qanunda, həm də təcrübədə həqiqi demokratik seçkilər üçün standartlara ziddir. Seçkiləri idarə edən qurumlar genişmiqyaslı səsvermə kampaniyası keçirmişdir, lakin mediada kampaniyanın nominal işıqlandırılması və analitik hesabatların demək olar ki, olmaması seçicilərin məlumatlı seçim etmək imkanını məhdudlaşdırmışdır. Seçki komissiyaları kifayət qədər resurslarla təmin olunsa da, açılış, səsvermə, səslərin hesablanması və nəticələrin protokollaşdırılması d zamanı səhvlərin edilməməsi üçün mühüm təminatlara çox vaxt məhəl qoyulmamış və əsaslı prosedur səhvləri və nöqsanları müşahidə edilmişdir".

Konstitusiya əsas insan hüquq və azadlıqlarını təmin etməklə bərabər, onların məhdudlaşdırılması üçün geniş əsaslar ehtiva edir. Seçki Məcəlləsi prosesi təfərrüatlı təsvir edir və onun bütün aspektlərini tənzimləyir. Bununla belə, Məcəlləyə edilən son texniki düzəlişlər DTİHB-nin tövsiyələrini nəzərə almamış və Avropa İnsan Hüquqları Məhkəməsinin seçkilərlə bağlı qərarları icra edilməmişdir. Qanunvericilikdə və təcrübədə çoxsaylı lüzumsuz məhdudiyyətlər mövcud olmaqda davam edir və birləşmək azadlığını və ifadə azadlığını daha da məhdudlaşdıran və qanunun ixtiyari tətbiqini nəzərdə tutan "Siyasi partiyalar haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunlar bu halları daha da dərinləşdirir. Bütövlükdə, hüquqi çərçivə beynəlxalq standartlardan və demokratik seçkilərin keçirilməsi ilə bağlı ATƏT öhdəliklərindən daha da uzaqlaşır.

Seçki prosesini bütün səviyyələrdə idarə edən qurumlar müəyyən edilmiş müddətlərə uyğun olaraq seçki hazırlıqlarını səmərəli şəkildə təşkil etmiş və peşəkarlıq nümayiş etdirmişdirlər. Mərkəzi Seçki Komissiyası (MSK) mütəmadi olaraq müşahidəçilər və media nümayəndələri üçün açıq iclaslar keçirməklə və qərarları dərhal dərc etməklə müəyyən dərəcədə şəffaflığı təmin etmişdir, lakin aşağı səviyyəli komissiyalarda əksər hallarda oxşar şəffaflıq müşahidə olunmurdu. Seçkiləri idarə edən qurumlar maraqlı tərəflərin bir qisminin etimadını qazansa da, təcrübədə balanslaşdırılmış və ya siyasi

---

[1] Hesabatın ingilis dilində versiyası yeganə rəsmi sənəddir. Azərbaycan dilində qeyri-rəsmi tərcüməsi mövcuddur.

cəhətdən müxtəlif tərkibə malik deyildi və bir sıra digər maraqlı tərəflər onun qərəzsiz və müstəqil fəaliyyət göstərmək qabiliyyətini şübhə altına alırdılar. Ölkə üzrə keçirilən təlim proqramı DTİHB SMM tərəfindən interaktiv və hərtərəflilik baxımından müsbət qiymətləndirilib. MSK bütün ölkədə səsvermə ilə bağlı geniş kampaniya aparıb. Seçki prosesini idarə edən qurumlar məcburi köçkünlərin səsvermə hüququnu təmin etmək üçün əhəmiyyətli səylər göstərib.

6,5 milyon seçici qeydə alınıb. Bu rəqəm 2020-ci il parlament seçkilərindən təxminən 1,1 milyon artım deməkdir ki, bu da MSK-nın qeydə alınmış seçicilərlə Dövlət Statistika Komitəsinin səsvermə yaşında olan vətəndaşların sayı ilə bağlı məlumatları arasında davam edən əhəmiyyətli fərqi qismən həll edib. Seçici siyahılarının ictimaiyyətin tanış olması üçün əlçatan olmasına baxmayaraq, mövcud fərqi hərtərəfli izahi baxımından ictimaiyyətə açıq məlumatın olmaması və qeydiyyata alınmış seçici sayının artması seçici siyahılarının düzgünlüyünə və əhatəliliyinə inamsızlıq yaradır. Beynəlxalq standartlara zidd olaraq əqli və psixososial əlilliyi olan şəxslərin səsvermə hüququ ilə bağlı məhdudiyyətlər qalmaqdadır. Seçicilər seçki günü əvvəlcədən məhkəmə qərarı olmadan seçki məntəqələrində seçici siyahılarına əlavə edilə bilirlər. Bu təcrübə bir seçicinin təkrar səsvermə ehtimalını artır və seçicilər siyahısının dəqiqliyə ilə bağlı suallar doğurur.

Hazırki prezident də daxil olmaqla yeddi namizəd qeydə alınmışdı. Prezidentliyə namizədlər üçün ali təhsil və ölkədə yaşamaq kimi uyğunluq tələbləri beynəlxalq standartlara ziddir. Namizədliyi irəli sürülən on şəxs qanunun tələb etdiyi kimi 40.000 imzanın toplanması prosesini başa çatdıra bilməyib və bəziləri buna əsas kimi kifayət qədər vaxtın kifayət qədər olmadığını və MSK tərəfindən sənədlərin qəbul edilməsində çətinlikləri göstəriblər. İmzaların toplanması və yoxlanılması prosesində şəffaflıq yox idi və DTİHB SMM-in bir neçə həmsöhbəti onun həqiqiliyinə şübhə ilə yanaşmış və bunun prosedur formallıq olduğunu qeyd etmişdirlər. Siyasi partiyaların qeydiyyatı və ləğvi üçün bu yaxınlarda tətbiq edilmiş sərt tələblər plüralizmə mənfi təsir göstərmiş və birləşmək azadlığına əlavə məhdudiyyətlər tətbiq etmişdir.

Süskün keçən kampaniya iştirak baxımından ictimaiyyət arasında məhdud maraq yaratdı və sosial şəbəkələr də daxil olmaqla, həqiqi rəqabət xarakteri daşımırdı. Namizədlərin heç biri öz təşviqat çıxışlarında hazırki prezidentin siyasətlərinə inandırıcı şəkildə etiraz etməməsi səbəbindən seçicilər üçün alternativ təqdim yox idi. Təşviqat kampaniyası ilk növbədə namizədlər və ya onların müvəkkilləri tərəfindən televiziya təqdimatları və sistematik olaraq hər bir namizəd üçün bir poster nümayiş etdirən MSK tərəfindən təyin edilmiş 10,000 lövhədən istifadə etməklə həyata keçirilib. Hazırki prezident seçkiqabağı təşviqat üçün rəsmi sosial media hesablarından istifadə etməyib, lakin Hökumətin internet saytlarında Prezidentin fəaliyyətinin təbliği davam edib. Seçki kampaniyasının əsas xəttini Azərbaycanın suverenliyinin bərpası və Prezidentin xarici siyasətinə dəstək ilə bağlı fikirlər üstünlük təşkil edib. Ümumiyyətlə, mövcud qanunvericilik bazası və onun tətbiqi ümumilikdə sərbəst toplaşmaq azadlığı və ictimai toplantılar keçirmək, o cümlədən təşviqat dövründən kənar hüquqlarından istifadə etmək imkanlarına əhəmiyyətli dərəcədə mane olur.

Qanunvericilik qadın və kişilərə, o cümlədən siyasi partiyalar daxilində bərabər münasibəti təmin etsə də, qadınların iştirakını təşviq etmək üçün heç bir xüsusi tədbirlər yoxdur və qadınlar ictimai və siyasi həyatın bütün aspektlərində kifayət qədər təmsil olunmur. 2013-cü ildən bəri prezident seçkilərində heç bir qadının namizədləyi irəli sürülməmiş və yaxud hər hansı qadın namizəd kimi qeydə alınmamış, və 26 siyasi partiyanın heç birinə qadın rəhbərlik etmir. Namizədlərin seçki platformalarının heç biri birbaşa gender bərabərliyi məsələsinə toxunmayıb. Eyni zamanda, qadınlar aşağı səviyyəli seçki komissiyalarında kifayət qədər təmsil olunsalar da, rəhbərlik səviyyəsində onların sayı kifayət qədər deyil. Müsbət hal odur ki, seçilmiş bələdiyyə üzvlərinin qadınlardan ibarət nisbəti 15 il ərzində 4 faizdən 39 faizə yüksəlmişdir.

Qanunvericilik təşviqat kampaniyası üçün ianələrinin və xərclərinin mənbələri və məbləğləri ilə bağlı məhdudiyyətlər müəyyən edir. Kampaniyanın maliyyələşdirilməsinə nəzarəti həyata keçirən orqan olan

MSK namizədlərin təbliğat-təşviqat kampaniyası ilə bağlı bəyan etdiyi gəlirlər və xərcləri əks etdirən məcmu məlumatları dərc edib. Hesabatların dərci müəyyən dərəcədə şəffaflığı təmin etsə də, daha təfərrüatlı məlumatların olmaması və maliyyə mənbəyinin açıqlanmaması seçicilər üçün mövcud olan məlumatları məhdudlaşdırıb. Kampaniyanın altı iştirakçısının bəyan edilmiş kampaniya xərcləri hazırki Prezidentin xərclədiyi məbləğdən təxminən iki dəfə az idi. Hesabatlar MSK-nın mülahizəsinə əsasən yoxlanılır və onun apardığı auditin nəticəsini dərc etmək üçün heç bir qanun öhdəliyi yoxdur. Birlikdə götürdükdə, qanun və təcrübə kampaniyanın maliyyələşdirilməsinə tam şəffaflığı və effektiv və qərəzsiz nəzarəti təmin etməyib.

İfadə azadlığı, media azadlığı və məlumat əldə etmək hüququ Konstitusiyada kifayət qədər müəyyən edilməmiş məhdudiyyətlərlə təmin edilmişdir. Həddindən artıq məhdudlaşdırıcı yeni "Media haqqında" qanun dövlət tərəfindən idarə olunan lisenziyalaşdırma sistemini təqdim edir. Sözügedən qanun və kampaniya başlamazdan bir müddət əvvəl bir sıra tənqidçi jurnalistlərin saxlanılmaları və həbsləri media üçün əhəmiyyətli dərəcədə məhdud mühit yaradıb və jurnalistlər arasında geniş yayılmış özünüsenzuraya xidmət edib. Bu hal müstəqil jurnalistikanın əhatə dairəsini, tənqidi müzakirələri və ictimaiyyət üçün mövcud olan siyasi məlumatların çeşidini məhdudlaşdırıb. İctimai yayımçı tərəfindən pulsuz təqdimatlar, praym-taymda birgə dəyirmi masalar və bir neçə ödənişli siyasi reklamdan başqa, DTİHB SMM-in monitorinq etdiyi media bütün təşviqat dövrü ərzində kampaniya iştirakçılarının yalnız nominal işıqlandırılmasını təmin etmişdir. Bu, seçicilərin kampaniya iştirakçıları və onların proqramları haqqında məlumat əldə etmək və məlumatlı səs vermək imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb və Prezident haqqında tənqidi məlumatların demək olar ki, tamamamilə paylaşılmaması ilə yanaşı, kampaniyada rəqabət qabiliyyətinin olmamasına səbəb olub.

MSK seçki şikayətlərinə baxılması üçün Ekspert Qrupu yaradıb. MSK öz iclasında yalnız bir şikayətə baxıb, lakin DTİHB SMM-in müşahidəsinə əsasən seçkilərlə bağlı bəzi digər məsələlər şikayət kimi qiymətləndirilməyib və MSK tərəfindən baxılmamış qalıb. Məhkəmələr MSK-nın bütün qərarlarının qüvvədə saxlanılması ilə bağlı doqquz şikayətə baxıb. DTİHB SMM bir neçə məhkəmə işinin müşahidəsini aparıb və həmin dinləmələrdə tərəflərin öz iddialarını təqdim etmək imkanı əldə etməsinə baxmayraq, proses haqqında ictimaiyyət üçün kifayət qədər məlumat paylaşılmayıb. Qərarların əksəriyyəti yalnız seçki günündən sonra dərc edilib.

Seçki Qanunu həm vətəndaş, həm də beynəlxalq müşahidənin aparılmasına təminat verir. Bununla belə, müstəqil vətəndaş cəmiyyəti təşkilatlarının əksəriyyəti qeydiyyatda qanunvericilik və inzibati maneələrlə üzləşir ki, bu da onların maliyyələşdirilməsinə qoyulan məhdudiyyətlərlə yanaşı, müşahidə prosesini təşkil etmək və həyata keçirmək imkanlarına mənfi təsir göstərir. Nəticədə, qeydiyyatdan keçməmiş təşkilatların üzvləri özlərini fərdi qaydada akkreditasiya etməli olmuş və DTİHB SMM həmsöhbətlərinin fikirlərinə əsasən, həmin müşahidəçilərin əksəriyyəti bürokratik çətinliklərlə üzləşmişdir. Akkreditə olunmuş 88,000-ə yaxın yerli müşahidəçinin 51 faizi namizədləri təmsil edir, 42 faizi fiziki şəxslər kimi akkreditə olunub və yalnız 6 faizi qeyri-hökumət təşkilatları tərəfindən irəli sürülüb.

Seçki günü ümumiyyətlə sakit və bütövlükdə intizamlı olmuş, seçici fəallığı 75 faizə çatmışdır. Gün ərzində BSMM əhəmiyyətli prosedur çatışmazlıqlarını müşahidə edib. BSMM müşahidəçilərinin mənfi rəylərinin mahiyyəti əsasən səsvermənin məxfiliyi, təkrar səsvermənin qarşısının alınması ilə bağlı tədbirlərin görülməməsi, qutulara topa bülletenlərin atılması və seçici siyahılarında oxşar imzaların olması ilə bağlıdır. Həm beynəlxalq, həm də vətəndaş müşahidəçilərin bir sıra hallarda mühüm prosedurları məhdudiyyətsiz müşahidə edə bilməmələri şəffaflığa kölgə salaraq müşahidə olunan məntəqələrdə mənalı müşahidə prosesini tam təmin etmirdi. Müşahidə edilən seçki məntəqələrinin demək olar ki, 80 faizi əlilliyi olan şəxslər üçün müstəqil əlçatımlıq təmin etməyib. BSMM 1990-cı ilin ATƏT-in Kopenhagen Sənədinin 7.4-cü bəndinə uyğun olaraq seçki bülletenlərinin sayılıb-saxlanılmaması və dürüst şəkildə təqdim edilib-edilməməsi ilə bağlı ciddi suallar doğuran əhəmiyyətli prosedur səhvləri və nöqsanları, habelə seçki qutularına bülletenlərin topa atılması əlamətləri

səbəbindən müşahidə edilən səslərin sayılması üzrə 113 haldan yarıdan çoxunda (61) səslərin sayılmasını mənfi qiymətləndirmişdir. Seçki günü ərzində MSK səsvermə ilə bağlı xəbərləri paylaşmış və fevralın 8-də səhər tezdən seçki məntəqələrindən ilkin nəticələri dərc etməyə başlamışdır.

Hazırki hesabatda Azərbaycan Respublikasında seçkilərin ATƏT qarşısında götürülən və demokratik seçkilərlə bağlı digər beynəlxalq öhdəliklərə və standartlara yaxınlaşdırılması səylərini dəstəkləmək üçün tövsiyələr təklif olunur. Prioritet tövsiyələr plüralist və rəqabətli siyasi mühit, hüquqi bazanın nəzərdən keçirilməsi, ələlxüsus birləşmək, dinc toplaşmaq və ifadə azadlıqlarının həyata keçirilməsi, seçki komissiyalarının müstəqilliyi və qərəzsizliyi, müşahidəçilərin qeydiyyatı, səslərin sayılması və protokollaşdırılması prosesinin şəffaflığı və bütövlüyü, qadınların ictimai və siyasi həyatda iştirakının artırılması ilə bağlı tədbirlərə aiddir.

## II. GİRİŞ SÖZÜ VƏ MİNNƏTDARLIQ

Azərbaycan Respublikasının səlahiyyətli dövlət qurumlarının dəvətindən sonra və 18-20 dekabr 2023-cü il tarixlərində keçirilmiş Ehtiyacların Qiymətləndirilməsi Missiyasının tövsiyəsi əsasında və öz mandatına uyğun olaraq, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) 29 dekabr 2023-cü il tarixində Seçki Müşahidə Missiyasını (SMM) təsis etmişdir. Ouen Mörfinin rəhbərlik etdiyi DTİHB SMM Bakıda yerləşən 11 nəfərlik əsas heyətdən və yanvarın 5-də ölkə üzrə təhkim olunmuş 26 uzunmüddətli müşahidəçidən ibarət idi. DTİHB SMM seçkidən sonrakı prosesləri izləmək üçün fevralın 17-dək fəaliyyətini davam etdirib.

Seçki günü DTİHB SMM və ATƏT-in Parlament Assambleyasının nümayəndə heyətlərinin birgə səyləri ilə Beynəlxalq Seçki Müşahidə Missiyası (BSMM) təşkil olunmuşdur.[2] Artur Qerasimov, ATƏT-in fəaliyyətdə olan sədri tərəfindən ATƏT-in qısamüddətli müşahidə missiyasının Xüsusi Əlaqələndiricisi və Rəhbəri təyin edilib. Daniela De Ridder, ATƏT PA nümayəndə heyətinə rəhbərlik edib. Ouen Mörfi dekabrın 28-dən etibarən DTİHB SMM-in rəhbəridir.

Seçki günü BSMM 42 ölkədən 335 müşahidəçi, o cümlədən DTİHB tərəfindən 26 uzunmüddətli və 207 qısamüddətli müşahidəçi, həmçinin ATƏT PA-nın üzvü olan 79 nümayəndə heyəti müşahidə aparmışdır; müşahidəçilərin 44,5 faizi qadın idi. BSMM seçkilərin açılış mərhələsinin müşahidəsini ölkə üzrə 132, səsverməni 1181, səslərin sayılmasını isə 113 seçki məntəqəsində aparmışdır. Cədvəllərin tərtibi isə 81 Dairə Seçki Komissiyasında (DSK) müşahidə olunub.

DTİHB SMM seçki prosesinin ATƏT qarşısında götürülən və digər beynəlxalq öhdəliklərə və demokratik seçkilərlə bağlı standartlara və milli qanunvericiliyə uyğunluğunu qiymətləndirib. Hazırki yekun hesabat fevralın 8-də Bakıda keçirilən mətbuat konfransında açıqlanan İlkin Müşahidələr və Nəticələr Bəyanatından sonra təqdim olunur.[3]

DTİHB SMM seçkiləri müşahidə etməyə dəvət etdiklərinə görə Azərbaycan Respublikasının hakimiyyət orqanlarına, köməyə və əlaqələndirməyə görə isə Mərkəzi Seçki Komissiyasına və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə minnətdarlıqlarını ifadə edir. Missiya həmçinin digər dövlət qurumlarına, namizədlərə, siyasi partiyalar, vətəndaş cəmiyyəti, mətbuat və beynəlxalq ictimaiyyət nümayəndələrinə, habelə digər ünsiyyətdə olduğu şəxslərə paylaşdıqları fikirlərə görə təşəkkürünü bildirir.

[2] Avropa Şurası Parlament Assambleyası bu seçkini müşahidə etməyib.
[3] DTİHB-nin Azərbaycan üzrə seçkilərlə bağlı bütün əvvəlki hesabatlarına baxın.

# III. ÜMUMİ MƏLUMAT VƏ SİYASİ KONTEKST

2023-cü il dekabrın 7-də Prezident İlham Əliyev, növbədənkənar prezident seçkilərinin 2024-cü il fevralın 7-də, yəni özünün yeddi illik mandatının nəzərdə tutulan müddətinin başa çatmasından 14 ay əvvəl keçiriləcəyini elan etdi.[4] Seçkilərin keçirilməsinə dair qərar və Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin ölkələr arasında münasibətləri normallaşdırmaq və sülh müqaviləsi üzrə danışıqlar aparmaq niyyətlərini açıq şəkildə təsdiqlədiyi bəyanatla eyni gündə verilmişdir.[5] Bu, Azərbaycanın 19 və 20 sentyabr tarixlərində həyata keçirdiyi hərbi əməliyyatlardan və 115,000-dən çox Qarabağ ermənisinin köçürülməsindən sonra baş tutmuşdu.[6] Bu seçki Azərbaycan Respublikasının bütün ərazisində keçiriləcək ilk seçki idi. Növbədənkənar seçkilərin təyin edilməsi ilə bağlı heç bir rəsmi səbəb göstərilməsə də, kampaniyanın başlamasından beş gün əvvəl Prezident, televiziyaya verdiyi müsahibədə suverenliyin bərpasının özü-özlüyündə mühüm bir mərhələnin başa çatması fikri ilə əsaslandırmışdır.[7] Namizədlərin hər biri bu fikirləri təkrarlayaraq, erkən seçkilərin keçirilməsinin zəruriliyini təsdiqləyib.[8]

Azərbaycan Respublikasında parlamentə (*Milli Məclisə*) nisbətdə icra hakimiyyətinə geniş konstitusiya səlahiyyətləri verən prezident üsul-idarəsi mövcuddur. Prezident, Nazirlər Kabinetini və regional və milli səviyyədə bir çox digər yüksək vəzifəli şəxsləri təyin edir. Prezident həmçinin Konstitusiya və Ali Məhkəmənin hakimlərini təyin edir, apellyasiya məhkəmələrinə hakimləri və parlament tərəfindən formal olaraq təyin olunan Baş prokurorun namizədliyini irəli sürür.

Prezident Əliyevin sədr olduğu hakim Yeni Azərbaycan Partiyası (YAP) hazırda parlamentdə 116 deputat mandatından 69-na malikdir. Digər 9 partiyanın 11 millət vəkili ilə və üstəgəl 36 müstəqil deputatın təmsil olunmasına baxmayaraq, demək olar ki, praktiki olaraq bütün hallarda qərarların əleyhinə səs verən olmur.[9]

Bəzi müxalif siyasi partiyalar digər məsələlərlə yanaşı həqiqi demokratik proses üçün adekvat şəraitin olmadığını iddia edərək seçkidə iştirak etməmək qərarına gəliblər.[10] Bundan əlavə, bir çox həmsöhbətin ümumi sözlə son təzyiqlər başlığı altında təsvir etdiyi mühitdə tənqidçi jurnalistlərin, vətəndaş cəmiyyəti nümayəndələrinin və parlamentdə olmayan müxalifət partiyalarının üzvlərinin seçkidən əvvəlki aylarda çoxsaylı saxlanması və həbsləri halları əsassız saxlanma, habelə siyası motivli məhkəmə

---

4 Prezident qərarının sürəti.

5 Ermənistan və Azərbaycanın ərazi bütövlüyünün qarşılıqlı tanınması mövcud olsa da, bu hesabatın yazıldığı dövrdə sərhədin delimitasiyası da daxil olmaqla sülh sazişi hələ də müzakirə olunurdu.

6 BMTQAK-ın Əməliyyatları haqqında Məlumat Portalına baxın.

7 Prezidentin müsahibəsinin stenoqramı Prezidentin internet saytındadır.

8 16 oktyabr 2023-cü il Prezidentin partiyası və bu seçkilərdə namizədlərini irəli sürmüş digər 4 partiya da daxil olmaqla 23 siyasi partiyanın prezidentə müraciət ünvanlanmışdırlar: “Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ölkəmizin xoşbəxt gələcəyi naminə bir daha siyasi həmrəyliyini bildirir, xalqımızın firavanlığı, dövlətimizin əbədi suverenliyi üçün apardığınız uğurlu daxili və xarici siyasətdə Zati-alinizə dəstəyini bəyan edir.” Namizədlərdən bəziləri və digər partiyalar sonradan iddia etmişdirlər ki, onlar ərazilərin geri alınması münasibətilə Prezidenti təbrik etmək baxımından Prezident administrasiyasının müraciətinə razılıq veriblər.

9 2023-cü ilin aprelindən etibarən qeydləri olan parlamentin son iclasında parlamentdəki bütün səsvermələrdə hökumətin təkliflərinə qarşı heç bir səs verilməyib. 2022-ci ilin dekabrında “Siyasi partiyalar haqqında” qanunun yekun oxunuşunun əleyhinə bir səs verilib. Bir xanım deputat isə siyasi məsələlərdən uzaq durduğunu, siyasəti prezidentin öhdəsinə buraxdığını qeyd edib. Hakim partiya öz üzvlərinin sayını 720 830 nəfər olaraq göstərir ki, bu da seçicilərin 11 faizindən çoxunu təşkil edir. Digər siyasi partiyalar öz üzvlük sayını açıqlamır, lakin hər birinin YAP-ın üzvlərinin təxminən bir-iki faizini təşkil etdiyi düşünülür.

10 Azərbaycan Xalq Cəbhəsi Partiyası və *Müsavat* fəalların saxlanmasını əsas gətirib. Müsavat Partiyasının aparıcı üzvü Tofiq Yaqublu 2023-cü il dekabrın 14-də həbs edilib. Dekabrın 15-də *Müsavat* seçkilərdə iştirak etməyəcəyini bəyan edib. Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) dekabrın 17-də seçkini boykot edəcəyini bəyan edib. Respublikaçı Alternativ Partiyası (REAL) üzvlərini boykot etməkdənsə, istədikləri namizədə səs verməyə çağırıb. Partiya katibinin Facebook yazısına baxın.

prosesləri ilə bağlı yerli və beynəlxalq səviyyədə narahatlıqları artırır.[11] Sözügedən hallar ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.7-ci bəndinə ziddir və ATƏT qarşısında götürülən öhdəliklərə və beynəlxalq standartlara xas olan qanunun aliliyini pozur.[12]

*Həqiqi siyasi alternativlərlə naticələnən rəqabətli siyasi mühit demokratik proses üçün həllediciidir. Hakimiyyət əsas azadlıqlara tam hörmət nümayiş etdirməli və potensial namizədlər və seçki iştirakçıları siyasi platformalarını təşviq etmək və ictimaiyyət üçün əhəmiyyətli olan mövzularla bağlı müzakirələr aparmağa imkan verən şəraitlə təmin olunmalı və təzyiq və ya hədə-qorxuya məruz qalmamalıdır. Təzyiq və ya hədə-qorxu halları və iddiaları müvafiq orqanlar tərəfindən operativ şəkildə araşdırılmalı və təqsirkarlar əməllərinə görə məsuliyyətə cəlb edilməlidirlər.*

Gender (kişi və qadın) Bərabərliyi haqqında qanun qadınlara və kişilərə, o cümlədən siyasi partiyalarda bərabər münasibəti təmin etsə də, qadınların iştirakını təşviq etmək üçün heç bir xüsusi tədbirlər yoxdur və qadınlar ictimai həyatın bütün aspektlərində kifayət qədər təmsil olunmurlar.[13] 2013-cü ildən bəri prezident seçkilərində heç bir qadının namizədləyi irəli sürülməmiş və yaxud namizəd kimi qeydə alınmamış, və 26 siyasi partiyanın heç birinə qadın rəhbərlik etmir. Eyni zamanda Birinci vitse-prezident qadındı.[14] Hazırda spiker də daxil olmaqla, 20 qadın deputat (17 faiz) var.[15] 2004-cü ildən 2019-cu ilə qədər qadınlardan ibarət seçilmiş bələdiyyə üzvlərinin nisbəti 4 faizdən 39 faizə yüksəlmişdir.[16]

*Qadınların ictimai və siyasi həyatda, o cümlədən yüksək və qərar qəbuletmə səviyyələrində tam və bərabər iştirakı hərtərəfli hüquqi, institusional və maarifləndirici təşəbbüslər vasitəsilə asanlaşdırılmalıdır.*

---

[11] Məsələn, yanvarın 16-da ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi jurnalist həbsləri ilə bağlı dərin narahatlığını ifadə edib (bax *KİV* fəslinə). 2023-cü ilin iyul ayından həbsdə olan lideri Qubad İbadoğlu ilə yanaşı, Azərbaycan Demokratiya və Rifah Partiyasının (ADR) daha altı üzvü və AXCP-nin ən azı altı üzvü seçkidən əvvəlki aylarda və təşviqat kampaniyası zamanı saxlanılıb. AXCP lideri Əli Kərimli, DTİHB SMM-ə məlumat verib ki, ona illərdir internet, mobil telefondan istifadə imkanı və pasport verilmir. Qeydiyyatdan keçməmiş "Üçüncü Respublika" vətəndaş cəmiyyəti təşkilatının təsisçilərindən biri olan Araz Əliyev 23 dekabr 2023-cü ildə "xırda xuliqanlıq" ittihamı ilə 25 sutkalıq inzibati həbs alıb. "Üçüncü Respublika" spikeri, eyni zamanda Demokratik Təşəbbüslər İnstitutunun sədri Akif Qurbanov digər fəallar və jurnalistlərlə birlikdə 2024-cü il martın 6-da həbs edilib. Sonrakı günlərdə fəalların növbəti həbsləri həyata keçirilib. 2023-cü ilin avqustunda İşçi Masası Həmkarlar İttifaqları Konfederasiyasının sədri Afiyəddin Məmmədov son 10 ayda üçüncü dəfə həbs edilərək "xırda xuliqanlıq" ittihamı ilə istintaq təcridxanasına, digər həmkarlar ittifaqı üzvləri Ayxan İsrafilov və Elvin Mustafayev isə iddia olunan "qabaqcadan narkotik alveri"nə görə təcridxanaya salınıblar. Digər məsələlərlə yanaşı 2019-cu il Natiq Cəfərov Azərbaycana qarşı, 2020-ci il İbrahimov və Məmmədov Azərbaycana qarşı, 2021-ci il Əzizov və Novruzlu Azərbaycana qarşı işlərində AİHM-in açıq şəkildə bildirmişdir ki, "cavabdeh Dövlətin iştirakı ilə bir sıra oxşar işlərdə verilən qərarlar hökumət tənqidçilərinin, vətəndaş cəmiyyəti fəallarının və hüquq müdafiəçilərinə qarşı cəza tədbirləri və 18-ci maddəni pozaraq cinayət qanunvericiliyindən sui-istifadə yolu ilə əsassız saxlama və həbs nümunəsini əks etdirmişdir".

[12] 7.7-ci bəndə əsasən iştirakçı dövlətlər "qanun və dövlət siyasətinin siyasi təşviqatın ədalətli və azad mühitdə aparılmasına imkan vermək üçün fəaliyyətini təmin etmək öhdəliyi götürürlər ki, bunun çərçivəsində nə inzibati tədbirlər, zorakılıq, nə də hədə-qorxu partiyaların və namizədlərin öz fikirlərini sərbəst ifadə etməsinə, habelə seçicilərin onlarla tanış olmasına və müzakirə etməsinə və ya qisas qorxusu olmadan öz səsini verməsinə mane olmur". 1966-cı il Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın (MSHBP) preambulasına baxın, ona əsasən "[...] qorxudan azad davranışa yalnız hər kəsin öz mülki və siyasi hüquqlarından istifadə edə biləcəyi şərait yaradıldığı halda nail olmaq olar [...]".

[13] 2006-cı ildə qəbul edilmiş və sonuncu dəfə 2010-cu ildə düzəliş edilmiş "Gender bərabərliyi haqqında" qanunun tətbiqi ilə bağlı 2006-cı il tarixli Prezidentin fərmanında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin icra səlahiyyətləri ilə bağlı müvafiq müddəalar yer alıb. Komitə 2020-ci ildə bunun üçün mexanizmlərin olmadığını bildirdi və hələ parlament tərəfindən qəbul edilməmiş qanunvericiliyə düzəliş təklif etdi.

[14] 2017-ci ildə təyin olunan Birinci vitse-prezident Mehriban Əliyeva Prezidentin həyat yoldaşıdır. 35 nəfərlik Nazirlər Kabinetində bir qadın var, nazir vəzifəsində olan yoxdur. Hazırda rayon və şəhərlərdə prezident tərəfindən təyin olunan 87 RİH başçısı arasında qadın yoxdur.

[15] Parlamentin 15 komitəsindən ikisinə qadınlar sədrlik edir.

[16] Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanın altıncı hesabatının 27-ci bəndinə baxın.

## IV. HÜQUQİ ÇƏRÇİVƏ VƏ SEÇKİ SİSTEMİ

Prezident seçkiləri ilk növbədə Konstitusiya (sonuncu dəyişiklik 2016-cı ildə edilib) və Seçki Məcəlləsi ilə tənzimlənir.[17] Konstitusiya əsas hüquq və azadlıqları təmin, lakin eyni zamanda onların məhdudlaşdırılması üçün geniş əsaslar ehtiva edir.[18] Birləşmək azadlığı qanunvericiliklə kifayət qədər qorunmayıb və hazırda Siyasi partiyalar haqqında yeni qanunla daha da məhdudlaşdırılıb; media üçün yeni qaydalar ifadə azadlığını həddindən artıq məhdudlaşdırır; sərbəst toplaşmaq azadlığının həyata keçirilməsi icra hakimiyyəti orqanlarının mülahizəsinə buraxılır və səmərəli müdafiə hüququ təmin edilmir.[19] Qanunvericilikdə və təcrübədə vətəndaş və siyasi hüquqlara dair sözügedən və digər məhdudiyyətlər beynəlxalq standartlara və ATƏT qarşısında demokratik seçkilərin keçirilməsi ilə bağlı götürülən öhdəliklərə uyğun gəlmir (bax *Seçki Kampaniyası və media*). [20]

Birləşmək azadlığı qanunvericiliklə kifayət qədər qorunmayıb və hazırda "Siyasi partiyalar haqqında" yeni qanunla daha da məhdudlaşdırılıb; "Media haqqında" qanuna uyğun olaraq media üçün yeni qaydalar ifadə azadlığını həddindən artıq məhdudlaşdırır; dinc toplaşmaq azadlığının həyata keçirilməsi icra hakimiyyəti orqanlarının mülahizəsindən asılıdır və səmərəli hüquqi müdafiə hüququ təmin edilmir. Qanunvericilikdə və təcrübədə vətəndaş və siyasi hüquqlara dair sözügedən maneələr və digər məhdudiyyətlər beynəlxalq standartlara və ATƏT qarşısında demokratik seçkilərin keçirilməsi ilə bağlı götürülən öhdəliklərə uyğun deyil (bax: *Seçki kampaniyası və KİV*).

Seçki Məcəlləsi seçki prosesini təfərrüatlı təsvir edir və onun bütün aspektlərini tənzimləyir. Son seçkilərdən (2020-ci ilin may və 2023-cü il iyul) keçən müddətdə Seçki Məcəlləsinə iki dəfə və bəzi texniki dəyişikliklər edilsə də, onlar DTİHB və Venesiya Komissiyasının əvvəlki tövsiyələrini və ya Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) çıxardığı qərarları nəzərə almayıb.[21] Əsas azadlıqların məhdudlaşdırılması, seçki komissiyalarının tərkibi, seçicilərin və namizədlərin hüquqlarının məhdudlaşdırılması, seçicilərin birdən çox namizədə dəstək kimi imza atmasınına qadağa və seçicilərin seçki günü seçici siyahılarına əlavə edilməsi qaydasının aradan qaldırılması zərurəti diqqət mərkəzində saxlanılan prioritet tövsiyələr sırasındadır.[22]

"Kütləvi informasiya vasitələri (Media) haqqında" qanun digər məsələlərlə bərabər media qurumlarının reyestrini və onların yaradılmasına dair tələbləri, jurnalistlərin qeydiyyatdan keçmə şərtlərini və xaricdən maliyyələşməsini qadağan edir. "Siyasi partiyalar haqqında" qanunda partiyaya üzvlüklə bağlı

---

17 Əsas azadlıqlar və seçki prosesi ilə bağlı digər qanunvericilik aktlarına "Kütləvi İnformasiya Vasitələri haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Qeyri-hökumət təşkilatları haqqında", "Siyasi partiyalar haqqında" qanunlar, Cinayət Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin və İnzibati Prosessual Məcəllənin müvafiq müddəaları daxildir.

18 Xüsusilə, Konstitusiyaya Dəyişikliklər Layihəsinə dair 2016-cı il Rəyində Venesiya Komissiyası, digər məsələlərlə bərabər, "ictimai asayişi" və "ictimai əxlaqı" pozmaq kimi toplaşmaq azadlığının məhdudlaşdırılmasının geniş əsaslara (Maddə 49), birləşmək azadlığına tətbiq olunan geniş qadağalara (Maddə 58) dair şərh vermişdir və Venesiya Komissiyasına əsasən bu: "qanunvericiyə hər hansı bir fəaliyyəti "cinayət" kimi müəyyən etmək və beləliklə, onu həyata keçirən və ya hətta "onu etmək" "niyyəti daşıyan" hər hansı birliyi qadağan etmək üçün kart-blanş verməkdir."

19 Qanunlar müvafiq olaraq 2023-cü ilin fevralında və 2022-ci ilin yanvarında qüvvəyə minib. ATƏT-in Kopenhagen Sənədinin 4-cü bəndində iştirakçı dövlətlər təsdiqlədilər ki, "onlar öz qanunlarının, qaydalarının, təcrübələrinin və siyasətlərinin beynəlxalq hüquq üzrə öhdəliklərinə uyğun olmasını və Prinsiplər haqqında Bəyannamənin və digər ATƏM öhdəliklərinin müddəalarına uyğunlaşdırılmasını təmin edəcəklər.". 5.7-ci bənddə iştirakçı dövlətlər bir daha təsdiq edirlər ki, "insan hüquqları və əsas azadlıqları qanunla və beynəlxalq hüquq çərçivəsində öz öhdəliklərinə uyğun olaraq təmin ediləcək".

20 Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın (MSHBP) 25-ci Ümumi Şərhinin 12-ci qeyd olunur ki, "ifadə, toplaşmaq və birləşmək azadlığı səsvermə hüququnun səmərəli həyata keçirilməsi üçün vacib şərtlərdir və tam qorunmalıdır". Həmçinin DTİHB və Venesiya Komissiyalarının 2023-cü il Azərbaycanın "Siyasi Partiyaları haqqında" qanunu üzrə Birgə Rəyinə və Media Hüququ üzrə 2022-ci il Birgə Rəyinə.

21 Həmçinin AİHM qərarlarının icrasına dair icmala baxın.

22 DTİHB-nin Azərbaycandakı seçkilərlə bağlı bütün əvvəlki hesabatlarına baxın.

dəyişikliklər, siyasi partiyaların maliyyələşdirilməsi və partiyaların buraxılması ilə bağlı qaydalar öz əksini tapıb. Hər iki qanunun bəyan edilmiş məqsədi media və siyasi partiyalar üçün əlverişli mühit təmin etmək idi, lakin faktiki olaraq hər iki qanun bir sıra ciddi lüzumsuz məhdudiyyətlər tətbiq edir, eləcə də hakimiyyət orqanlarına geniş səlahiyyətlər verir və hər iki qanun birləşmək və ifadə azadlığına mane olur və özbaşına qərarların qəbulunu təmin edir.[23]

*Beynəlxalq insan hüquqları öhdəliklərinə əməl olunmasını təmin etmək məqsədilə qanunvericiliyin yenidən nəzərdən keçirilməsi və onun tətbiqi prosesi təcrübədə əsas azadlıqların səmərəli həyata keçirilməsini təmin etməli və özbaşınalıqdan qorumaladır. Düzəlişlər növbəti seçkilərdən xeyli əvvəl ictimaiyyətin inklüziv və effektiv iştirakını təmin edən məsləhətləşmə prosesi vasitəsilə edilməlidir.*

Konstitusiya prezidentə parlament və ya məhkəmə tərəfindən tənzimlənməyən hər hansı bir məsələni açıq şəkildə həll etmək hüququ verməklə, icra, qanunvericilik və məhkəmə orqanları arasında səlahiyyətlərin tam bölünməsini təmin etmir. Prezident, növbədənkənar prezident seçkiləri təyin etmək üçün tam mülahizə səlahiyyətinə malikdir və bu hüquqdan səlahiyyətləri daha da gücləndirmək üçün istifadə olunub. Bu, demokratik standartlara uyğun gəlmir.[24]
Prezident birbaşa ümumxalq səsverməsi yolu ilə, kvorum tələbi olmadan, səslərin mütləq əksəriyyəti ilə yeddi il müddətinə seçilir. Namizədlərdən heç biri səslərin yarıdan çoxunu almadıqda, ən çox səs toplamış iki namizəd arasında ikinci tur təşkil olunur.

## V. SEÇKİNİN İDARƏ EDİLMƏSİ

Seçki MSK, 125 Dairə Seçki Komissiyası (DSK) və hər biri beş il müddətinə təyin edilmiş 6319 Məntəqə Seçki Komissiyası (MnSK) tərəfindən idarə olunur. [25] MSK üzvləri və DSK-nın sədrləri və katibləri tam ştatlı işçi hesab olunurlar. MSK, DSK və MnSK müvafiq olaraq 18, 9 və 6 üzvdən ibarətdir.[26] MSK üzvləri sırasında 18 üzvdən yalnız 4-nün qadın olması qadınların aşağı səviyyədə təmsil olunmasını göstərir. Aşağı səviyyə komissiyalarda isə tam səsvermə hüququna malik komissiya üzvlərinin 41 faizini qadınlar təşkil edir. Aşağı səviyyəli komissiyaların üçdə birinə qadınlar sədrlik edir. Bununla belə, bu göstərici DSK səviyyəsində 20 faizə qədər və hətta tam ştatlı rəhbər vəzifələr nəzərə alınarsa, daha da aşağı düşüb. DSK katibləri komissiya üzvlərinn beş faizini təmsil edir və 125 DSK sədrləri arasında qadın sədrlərin faizi 0,5-dən aşağıdır.[27]

---

[23] Məsələn, Ədliyyə Nazirliyinin QHT-lərin və siyasi partiyaların qeydiyyatı və daxili fəaliyyətləri ilə bağlı səlahiyyətləri geniş və müdaxilə mahiyyətlidir (bax: Siyasi partiyalar haqqında Qanuna dair 2023-cü il tarixli Birgə Rəyin 58-ci bəndinə); 2022-ci il Media Qanunu üzrə Birgə Rəyin 23-cü bəndi "media məzmununa qoyulan ən çox məhdudiyyəti ixtiyari təfsir üçün geniş imkan açan ciddi qeyri-müəyyənlik kimi" təsvir etmişdir. Hər iki qanun Venesiya Komissiyası və DTİHB tərəfindən gözlənilən birgə hüquqi rəylər verilməmişdən əvvəl qüvvəyə mindiyi üçün sonuncuların hələ də qüvvəsini itirməməmiş tövsiyələri nəzərə alınmayıb.

[24] Konstitusiyaya Dəyişikliklər Layihəsinə dair 2016-cı il Rəyinin 55-ci bəndində Venesiya Komissiyası qeyd edib ki, prezidentə növbədənkənar seçkilər təyin etmək üçün müstəsna və müstəqil səlahiyyətin verilməsi "demokratik standartlara uyğun gəlmir", çünki bu, "seçkiləri ölkə rəhbərliyinin plebisitinə çevirə və avtoritar meyllərə legitimlik təmin edə bilər". MSBHP-ə 25 saylı Ümumi Şərhin 9-cu bəndində deyilir ki, "həqiqi dövri seçkilər nümayəndələrin onlara həvalə edilmiş qanunvericilik və ya icra hakimiyyəti səlahiyyətlərinin həyata keçirilməsi üçün hesabatlılığını təmin etmək üçün vacibdir".

[25] Buraya cari seçkilər üçün qaytarılmış ərazilərdə yaradılmış 26 yeni məntəqə seçki komissiyası, istirahət evlərində, xəstəxanalarda, digər tibb məntəqələrində, hərbi hissələrdə, neft platformalarında və dənizdəki gəmilərdə yaradılmış 218 xüsusi seçki məntəqəsi daxildir.

[26] Seçki komissiyalarının hazırki tərkibi 2021-ci ildə təsdiq olunub. Seçki komissiyalarının müstəqilliyini artırmaq üçün qanun beynəlxalq təcrübəyə uyğun olaraq komissiya üzvlərinin onları təyin etmiş orqan tərəfindən vəzifədən azad edilməsini qadağan edir. Eyni zamanda, müvəkkilin xidmət edə biləcəyi mandatların sayının məhdudlaşdırılmaması ilə müddəanın effektivliyi azalır.

[27] MSK-nın internet səhifəsində 12 fevral tarixinə yer alan məlumata görə. ATƏT Nazirlər Şurası 7/09 saylı Qərarında iştirakçı dövlətləri "qadınların və kişilərin siyasi və ictimai həyatda və xüsusilə qərarların qəbul edilməsində daha balanslı iştirakını asanlaşdıracaq mümkün qanunvericilik tədbirlərini nəzərdən keçirməyə" çağırır.

*Qərarvermə rolları da daxil olmaqla qadınların bərabər iştirakını təmin etmək üçün tədbirlər qanuni tələblərin tətbiqi və seçki idarəetməsinin bütün səviyyələrində qadınların müəyyən edilməsi və irəli sürülməsi səyləri vasitəsilə həyata keçirilməlidir.*

MSK bütün seçkilərin və referendumların ümumi keçirilməsinə cavabdehdir və geniş səlahiyyətlərə malikdir.[28] Parlament MSK üzvlərini seçir, DSK üzvləri MSK tərəfindən, MnSK üzvləri isə müvafiq DSK-lar tərəfindən təyin edilir. Qanunvericiyə əsasən, komissiyaların bütün səviyyələrdə tərkibi parlamentin siyasi tərkibini əks etdirir: parlament çoxluğu, parlament azlığı (parlamentdə təmsil olunan digər siyasi partiyalar kimi müəyyən edilir) və bitərəf deputatların hər biri isə komissiyaların üzvlərinin üçdə birini irəli sürür.[29] Buna baxmayaraq, parlamentdəki üç qrup arasında həqiqi siyasi fərq olmadığından, təcrübədə seçkilərin idarə edilməsi qurumlarının tərkibi balanslaşdırılmış və siyasi cəhətdən müxtəlif deyil. [30] Seçki prosesini idarə edən qurumlar bəzi maraqlı tərəflərin etimadını qazansa da, təcrübədə heç də bütün səviyyələrdə siyasi cəhətdən balanslaşdırılmış tərkibə malik deyil və bir sıra digər maraqlı tərəflər xüsusən də seçki günü daxil olmaqla, onun qərəzsiz və müstəqil fəaliyyət göstərmək qabiliyyətini şübhə altına alırlar.[31]

*Seçkinin idarə edilməsinin qərəzsizliyini və həqiqi müstəqilliyini gücləndirmək və onların işinə ictimaiyyətin geniş etimadını təmin etmək məqsədilə hər hansı bir siyasi partiyanın dominantlığının qarşısını almaq üçün bütün səviyyələrdə seçki komissiyalarının üzvlərinin təyin edilməsi prosesinə yenidən baxılmalıdır. Komissiyalar qərəzsizlik və siyasi neytrallıq anlayışını dəstəkləyəcək şəkildə qərarlar qəbul edən kollegial orqan kimi fəaliyyət göstərməlidir.*

Hər bir namizədin seçkiləri idarə edən bütün komissiyalarda məşvərətçi səs hüquqlü üzvlər təyin etmək hüququ var. Bununla belə, əksər namizədlər DSK səviyyəsində belə bir üzvləri irəli sürməyiblər. DSK və MnSK səviyyəsində komissiya üzvlərinin böyük əksəriyyəti YAP-ın maraqlarını təmsil edirdi (bax *Seçki Günü*).

Texniki hazırlıqlar üçün müddətinin qısa olmasına baxmayaraq, proses yüksək səviyyədə və müəyyən edilmiş müddətlərdə aparılmışdır. MSK media nümayəndələrinin və müşahidəçilərin iştirakı ilə müntəzəm iclaslar keçirib ki, bu da öz növbəsində şəffaflığa müəyyən səviyyədə töhfə vermişdir. Qərarlar məhdud müzakirələrlə yekdilliklə qəbul edilmiş və dərhal MSK-nın internet saytında dərc olunmuşdur. Seçkilər elan olunduqdan sonra MSK 88 qərar qəbul edib, özü və əməkdaşlıqda müxtəlif mövzularda bir neçə seminar və treninqlər keçirib[32], müşahidəçilərin, MnSK üzvlərinin, hüquq-mühafizə orqanlarının nümayəndələrinin vəzifələri və seçki mübahisələrin həllinə dair müfəssəl dərsliklər hazırlayıb.

DSK-lar kifayət qədər resurslara malik və təcrübəlidirlər, tələb olunan tapşırıqları müəyyən edilmiş müddətdə yerinə yetirib və seçki gününə qədər öz işlərini səmərəli şəkildə icra ediblər. Buna baxmayaraq, DSK-ların böyük əksəriyyətində sessiyalar, bir qayda olaraq, xüsusi əsasda və qısa

---

28 Buraya namizədlərin qeydə alınması, seçicilər reyestrinin aparılması, DSK qərarlarından şikayətlərə baxılması daxildir. MSK həm də kampaniyanın maliyyələşdirilməsinə və mediaya nəzarəti həyata keçirir.

29 Bundan əlavə, sıravi üzvlər olmadıqda onların yerinə əvəzedicilər təyin edilir. Qanunla müvəkkillər neytral və qərəzsiz olmalı, dövlət orqanlarından, bələdiyyə qurumlarından, siyasi partiyalardan, digər hüquqi və fiziki şəxslərdən müstəqil olmalıdırlar.

30 Bunu AİHM-in presedent hüququ da sübut edir. Digərləri ilə yanaşı, Qəhrəmanlı və başqaları Azərbaycana qarşı, (AİHM, 8 oktyabr 2015-ci il) 78-ci bənd, Tahirov Azərbaycana qarşı, (AİHM, 11 iyun 2015-ci il), 60-cı bənd və Ənnağı Hacıbəyli Azərbaycana qarşı, (AİHM, 22 oktyabr 2015-ci il), 53-cü bənd.

31 BMT-nin MSHP-in 25 saylı Ümumi Şərhinin 20-ci bəndi tələb edir ki, "seçki prosesinə nəzarət etmək və onun ədalətli, qərəzsiz və Paktla uyğun gələn müəyyən edilmiş qanunlara uyğun aparılmasını təmin etmək üçün müstəqil seçki orqanı yaradılmalıdır". 2002-ci il MDB Konvensiyasının 19.2-ci maddəsində iştirakçı dövlətlər "demokratik azad və ədalətli, həqiqi və dövri seçkilərin keçirilməsini təşkil etmək üçün müstəqil, qərəzsiz seçki orqanlarının yaradılmasını təmin etmək" öhdəliyini götürdülər.

32 Buraya, digərləri ilə yanaşı, qadınlara və ilk dəfə səs verənlərə yönəlmiş seminarlar və seçki gününün mediada işıqlandırılması daxildir.

xəbərdarlıq verməklə təşkil olunurdu. Bu hal və qəbul edilmiş qərarların qanunvericiliklə müəyyən edilmiş müddətdə ardıcıl şəkildə DSK-ların məlumat lövhələrində dərc edilməməsi şəffaflıq mühitini azaldıb.[33]

*Şəffaflığı və hesabatlılığı artırmaq üçün seçki komissiyaları bütün əsas fəaliyyətləri açıq şəkildə aparmalı və maraqlı tərəflərin iştirakını asanlaşdırmaq üçün aşağı səviyyəli komissiyaların iclasları əvvəlcədən elan edilməlidir. İclasların gündəliyi və protokolları vaxtında dərc edilməlidir.*

MSK aşağı səviyyəli seçki komissiyaları üçün seçki günü prosedurları, o cümlədən protokolların doldurulması ilə bağlı ümummilli ardıcıl təlim proqramını həyata keçirib. DTİHB SMM-in uzunmüddətli müşahidəçiləri tərəfindən müşahidəsi aparılan təlimlərin peşəkar, interaktiv və hərtərəfli keçirildiyi qiymətləndirilib.

MSK əsasən səsvermə ilə bağlı seçicilərin fəal iştirakını təşviq edən geniş seçici məlumat kampaniyası aparmışdır. Kampaniya MSK-nın internet səhifəsi, YouTube və sosial şəbəkələr, ictimai reklam lövhələri, kütləvi informasiya vasitələri və MSK üzvlərinin iştirakı ilə televiziya proqramları vasitəsilə həyata keçirilib.[34] Bundan əlavə, MnSK üzvləri seçiciləri seçki günü üçün çap olunmuş bildirişlərlə təmin etmək məqsədilə qapı-qapı gəziblər. Baxmayaraq ki, seçicilər haqqında məlumat verən videoçarxlar eşitmə məhdudiyyətli şəxsləri nəzərə alaraq subtitrlərlə təqdim olunurdu, əlilliyi olan şəxslərin seçki prosesində iştirakının təmin, məlumatların digər əlçatan formatlarda dərc və seçki günü seçki məntəqələrinə müstəqil girişin mümkün edilməsi üçün əlavə səylər göstərilə bilər (bax: *Seçki Günü*). MSK şəffaflığı artırmaq məqsədi ilə 1000 seçki məntəqəsində kameralar quraşdırıb.[35]

## VI. SEÇİCİ QEYDİYYATI

Məhkəmənin qərarı ilə, o cümlədən əqli və ya psixoloji əlillik nəticəsində fəaliyyət qabiliyyəti olmayan kimi elan edilmiş şəxslər istisna olmaqla, 18 yaşına çatmış bütün vətəndaşların səsvermə hüququ vardır. Əqli əlillik səbəbindən səsvermə hüququndan məhrum etmə beynəlxalq öhdəliklərə və standartlara uyğun gəlmir.[36] Son beş il ərzində ölkədə yaşayan vətəndaşlığı olmayan şəxslər səsvermə hüququndan istifadə edirlər.[37]

*Qanunvericilik bazası əqli və ya psixososial əlillik səbəbindən seçki hüquqlarına qoyulan hər hansı məhdudiyyəti aradan qaldırmaqla beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.*

33 MSHP-in 2011-ci il tarixli MSHBP-ya 34 saylı Ümumi Şərhinin 19-cu bəndində deyilir: "İnformasiya əldə etmək hüququnu həyata keçirmək üçün iştirakçı-dövlətlər ictimai maraq kəsb edən məlumatları fəal şəkildə ictimaiyyətə təqdim etməlidirlər. İştirakçı dövlətlər bu cür məlumatlara asan, operativ, effektiv və praktiki çıxışı təmin etmək üçün hər cür səy göstərməlidirlər".

34 MSK həmçinin MSK-nın fəaliyyəti və seçki prosesi ilə bağlı məlumatları paylaşan "Seçki 2024" Müstəqil Media Mərkəzi yaradıb.

35 Fevralın 1-də MSK kameraların quraşdırılması ilə bağlı qərar qəbul edib. MSK-dan verilən məlumata görə, video qeydlər zamanı fasilələrə yol verməmək üçün seçki məntəqələri texniki meyarlar əsasında seçilib. MSK DTİHB SMM-ə məlumat verib ki, səsvermənin məxfiliyini qorumaq məqsədilə videokameralar səsvermə otaqlarının içini lentə almağı mümkün olmadığı şəkildə quraşdırılacaq. MSK onu da bildirib ki, video yazılar seçki günü şikayətlərin araşdırılmasında sübut kimi istifadə edilə bilər.

36 2006-cı il BMT-nin Əlilliyi olan Şəxslərin Hüquqları Konvensiyasının (CRPD) 12 və 29-cu maddələrinə baxın. 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 24-cü bəndində qeyd olunur ki, hüquq və azadlıqlara qoyulan məhdudiyyətlər "qanunun məqsədinə ciddi şəkildə mütənasib olmalıdır". MSHP-in 25 saylı Ümumi Şərhinin 14-cü bəndində deyilir ki, səsvermə hüququndan məhrumetmə üçün əsaslar "obyektiv və ağlabatan" olmalıdır.

37 Dövlət Statistika Komitəsi DTİHB SMM-ni məlumat verib ki, MSK vətəndaşlığı olmayan şəxslərlə bağlı məlumat toplamır və ona malik deyil.

Seçicilərin qeydiyyatı passivdir və daimi yaşayış yeri üzrə aparılır. Seçici siyahıları MSK tərəfindən idarə olunan vahid ümummilli seçici reyestri əsasında tərtib edilir. Qanunvericiliyə əsasən seçicilər seçkilərin elan edilməsinə qədərki 12 ayın ən azı 6 ayı ərzində yaşadıqları ərazinin seçki məntəqəsində qeydə alınırlar. MnSK-lar bələdiyyələrdən və rayon icra hakimiyyətlərindən alınan məlumatlar əsasında DSK-lar vasitəsilə siyahılara edilməli olunan dəqiqləşdirmələri MSK-ya təqdim edirlər. Siyahılar səsvermə gününə ən azı 25 gün qalmış (bu seçki üçün yanvarın 13-də) təzədən yenilənir.

MSK-nın məlumatına əsasən, seçki günündən əvvəl daimi seçicilər reyestrində 6,478,546 seçici, o cümlədən 396,939 məcburi köçkün qeydə alınıb. Seçkini idarə edən qurumlar məcburi köçkünlərin ölkə üzrə 10 DSK arasında bölüşdürülmüş 536 seçki məntəqəsində səsvermədə iştirakını asanlaşdırmaqla, onların səsvermə hüquqlarını təmin etmək üçün mühüm səylər göstərmişdir.

MSK-nın qeydə alınmış seçicilərin sayı ilə səsvermə yaşında olan vətəndaşların sayı üzrə Dövlət Statistika Komitəsinin məlumatları arasında uzun müddət mövcud olan əhəmiyyətli fərq hələ də qalmaqdadır.[38] 2020-ci ildə keçirilən son parlament seçkilərindən bu seçkiyə qədər müddətdə fərq iki milyondan bir milyona qədər azalmışdır ki, bu da nəticədə qeydə alınmış seçicilərin sayında böyük artım olduğunu göstərir.[39] Sözügedən son dəyişiklikləri və qalan fərqləri hərtərəfli izah etmək üçün ictimaiyyətə açıq məlumatın olmaması seçicilər reyestrinin düzgünlüyünə və əhatəliliyinə inamsızlıq yaratmışdır.

*Bütün seçicilərin aktiv seçki hüquqlarını təmin etmək və seçicilər reyestrinə ictimai etimadı artırmaq üçün seçkiləri idarə edən qurumları şəffaf şəkildə seçicilər reyestrinin düzgünlüyünü və əhatəliliyini artırmaq məqsədilə tədbirlər görməlidir.*

Seçicilərin seçici siyahıları ilə tanış olmaq üçün kifayət qədər imkanları var idi. Seçici siyahılarının ilkin nüsxələri seçki məntəqələrində və DSK-larda, MSK-nın internet saytında və onun qaynar xətti və dövlət xidməti binalarında yerləşən smart lövhələr vasitəsilə ictimai nəzarətə təqdim edilib. MSK seçki məntəqələri üzrə bölünmüş daimi seçici siyahılarının tam dəstini onlayn dərc edib.

Səyyar səsvermə imkanları və seçicinin seçdiyi şəxs tərəfindən səsverməyə kömək əlilliyi və ya sağlamlıqla bağlı problemləri olan seçicilər üçün nəzərdə tutulub. Mobil səsvermə ərizələri də uzaqdan və qeyri-rəsmi şəkildə təqdim edilə bilər.[40] Bu, ehtiyacı olan seçicilər üçün müstəqil müraciət imkanını asanlaşdırsa da, bu səyyar səsvermənin qanuni təminatlarını və şəffaflığını azaldır. Prezident seçkiləri zamanı ölkədən kənarda səsvermə nəzərdə tutulur.[41] MSK bu seçki üçün 6 524 203 bülleteni çap etmişdi.[42]

Seçicilər seçkiyə üç gün qalmışa qədər qeydiyyatdan çıxma hüququ verən səsvermə vəsiqəsini (QÇV) almaq üçün müraciət edə bilərlər. QÇV seçicilərə ölkədəki istənilən seçki məntəqəsində səsvermə hüququ verir, tələbələr və işçilər kimi yüksək hərəkətliliyə malik demoqrafik qrupların iştirak imkanını artırır. MSK-nın məlumatına əsasən, gözlənilən seçici müraciəti əsasında ümumilikdə 200,000 QÇV

---

38 Dövlət Statistika Komitəsi DTİHB SMM-nə məlumat verib ki, onların məlumatına görə, 2023-cü il yanvarın 1-nə olan məlumata əsasən, 18 yaşdan yuxarı əhalinin sayı 7,458,873 nəfər təşkil edir. Dövlət Statistika Komitəsi hər 10 ildən bir canlı müsahibə yolu ilə əhalinin siyahıyaalınmasını həyata keçirir. Məlumatlar hər il doğum və ölüm sayına görə yenilənir.

39 MSK və digər həmsöhbətlər DTİHB SMM-ni məlumat veriblər ki, qeydiyyatda olan bir milyon seçicinin artması COVID-19 pandemiyası və Ukraynadakı müharibədən sonra vətəndaşların axını ilə əlaqədardır

40 Seçki Məcəlləsi həmçinin səsvermə zamanı seçiciyə komissiya üzvlərinin iştirakı ilə yazılı ərizə təqdim etməyə imkan verir.

41 Bu seçkilər üçün 37 ölkədə 49 MnSK yaradılıb.

42 Qanunla çap edilmiş seçki bülletenlərinin sayı müvafiq seçki dairələri üzrə qeydə alınmış seçicilərin sayından ən çoxu 3 faizdən çox ola bilər.

çap edilib və onun 59,160 qanunla nəzərdə tutulmuş müddət ərzində seçicilərə təqdim olunub.[43] MSK-nın məlumatına əsasən, seçki günü yalnız 25,995 seçici QÇV ilə səs verib.

MnSK-ların qərarı ilə seçki günü seçki hüququna malik olan şəxslər seçki məntəqəsində yaşayış yerinin sübutu əsasında əlavə seçici siyahısına daxil edilə bilər. Müvafiq inzibati təminatlar və ya məhkəmə nəzarəti olmadan bu seçkilərdə seçki günü 35,676 seçici əlavə siyahılara daxil edilmişdir ki, bu da qabaqcıl beynəlxalq təcrübəyə uyğun deyil.[44]

*Seçicilərin qeydiyyatının və səsvermə prosesinin bütövlüyünü gücləndirmək üçün səsvermə günü seçici siyahısına əlavələr təkrar səsverməyə qarşı effektiv təminatlarla məhkəmə qaydasında aparılmalıdır.*

## VII. PARTİYANIN VƏ NAMİZƏDİN QEYDİYYATI

Prezident seçilmək hüququ Azərbaycanda azı 10 il daimi yaşayan, ali təhsili olan, ikili vətəndaşlığı, başqa dövlətlər qarşısında heç bir öhdəliyi və ya əvvəllər ağır cinayət törətdiyinə görə məhkumluğu olmayan seçicilərə verilir.[45] Universitet diplomuna malik olmaq və 10 il daimi yaşamaq, habelə yalnız bir ölkənin vətəndaşlığı tələbləri əsassızdır və beynəlxalq standartlara, yaxşı təcrübəyə və AİHM-in presedent hüququna ziddir.[46]

*Yaşayış yeri, ikili vətəndaşlıq və təhsilə əsaslanan namizədliyə qoyulan məhdudiyyətlər qüvvədə olan standartlara uyğun olaraq nəzərdən keçirilməlidir.*

Namizədlər qeydə alınmış siyasi partiyalar və onların koalisiyaları tərəfindən irəli sürülə və ya müstəqil şəkildə namizəd ola bilərlər. DTİHB və Venesiya Komissiyasının tövsiyələri ilə ziddiyyət təşkil edən 2023-cü il "Siyasi partiyalar haqqında" qanun siyasi partiyaların qeydiyyatı, yoxlanılması və fəaliyyətinin tənzimlənməsi qaydalarını sərtləşdirdi və artıq qeydiyyatdan keçmiş partiyalara yeni tələblərə əməl etmək üçün 180 gün müddət verdi.[47] "Siyasi partiyalar haqqında" qanun layihəsinin parlamentdə müzakirə olunması, ona əlavə və dəyişikliklərin edilməsinə baxmayaraq, layihə sürətləndirilmiş qaydada və hərtərəfli məsləhətləşmələr aparılmadan qəbul edilib. Ədliyyə Nazirliyinin məlumatına əsasən, qanun qüvvəyə mindikdən sonra 33 partiya fəaliyyətini dayandırıb və yalnız 26

43 Bu, ümumi seçicilərin 3,2 faizinə bərabərdir. Seçicilər QÇV-ni seçki gününə 45-25 gün qalmış müvafiq DSK-dan və seçki gününə 24-3 gün qalmış müvafiq məntəqə seçki komissiyasından əldə edə bilərlər.

44 2002-ci il Venesiya Komissiyasının Seçki Məsələlərində Yaxşı Təcrübə Məcəlləsinin 1.2 (iv) bəndi tövsiyə edir: "Məhkəmə nəzarəti altında olan inzibati prosedur və ya qeydiyyata alınmamış seçicinin qeydiyyata alınmasına imkan verən məhkəmə proseduru olmalıdır; səsvermə günü seçki məntəqəsində qeydiyyat aparılmamalıdır".

45 Hərbi qulluqçu, hakim, dövlət məmuru və din xadimi vəzifələrində olanlar da seçkilərdə namizəd kimi iştirak edə bilməzlər.

46 MSHBP-nin 25 saylı Ümumi Şərhinin 15-ci bəndi təsdiq edir ki, "başqa şəkildə seçkidə iştirak etmək hüququ olan şəxslər təhsil, yaşayış yeri və ya mənşəyi kimi əsassız və ya ayrı-seçkilik yaradan tələblər və ya siyasi mənsubiyyətə görə namizədliyi irəli sürmək hüququndan məhrum olunmamalıdırlar". Tănase Moldovaya qarşı (AİHM, 2010) işində AİHM ikili vətəndaşlığı olan şəxslərin seçki hüquqlarına qoyulan məhdudiyyətləri qeyri-mütənasib tədbir kimi tanıyıb və beləliklə, Avropa İnsan Hüquqları Konvensiyasının 1-ci Protokolunun 3-cü maddəsinə zidd hesab edib. DTİHB və Venesiya Komissiyası Birgə Rəylərindən birində bildirmişdir ki, "ikili vətəndaşlığı olan vətəndaşlar üçün dövlət vəzifələrinin tutulmasına qoyulan məhdudiyyətlərin minimuma endirilməsi və nəticə etibarilə ləğv edilməsi" lazımi səviyyədə nəzərə alınmalıdır.

47 Digər tələblərlə yanaşı, siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün tələb olunan üzvlərin sayı 5 dəfə artaraq 1000 nəfərdən 5000 nəfərə çatdırılıb. 2023-cü il Siyasi Partiyalar haqqında Qanuna dair DTİHB və Venesiya Komissiyasının Birgə Rəyinin 47-ci bəndində bir daha vurğulanır ki, "yeni tələblər hədsiz dərəcədə yüksək görünür və AİHM-in 11-ci maddəsində nəzərdə tutulmuş hüquqlarını həyata keçirməyə çalışan vətəndaşların üzərinə yük qoyur ki, bu da potensial olaraq məhdudlaşdırıcıdır, qeyri-mütənasib olacaq və demokratik cəmiyyətdə lazım deyil".

partiya qeydiyyatdan keçib. Uyğunluq prosesi başa çatdıqdan sonra ictimaiyyət siyasi partiyaların yenilənmiş siyahısına çıxış əldə edə bilməyib.[48]

Ədliyyə Nazirliyinin məlumatına əsasən, yeni qanunun qəbulu hakimiyyətin güclü siyasi partiya infrastrukturu yaratmaq niyyətinin nəticəsinə ərsiyə gəlib. Bununla belə, siyasi partiyaların qeydiyyatı ilə bağlı sərt tələblər, ləğvi ilə bağlı qeyri-müəyyən qaydalar və partiyadaxili fəaliyyət üzərində geniş dövlət monitorinqi plüralizmə mənfi təsir göstərmiş və birləşmək azadlığını məhdudlaşdırmışdır.[49] Müxalifət partiyaları qeyd edirlər ki, Ədliyyə Nazirliyinin onların daxili prosedurlarına nəzarət etmək və üzvlüyünü vaxtaşırı yoxlamaq səlahiyyətləri sanksiyalarla nəticələnir, onların fəaliyyətini şərtləndirir və üzvlərini qorxudur.[50] Bəzi qruplar qeydiyyatdan keçə bilməyib və ya siyasi partiya kimi qeydiyatdan keçməməyi seçib və bu siyahıda hazırda həbsdə olan fəalların, habelə ən azı bir halda prezidentliyə potensial namizədin rəhbərlik etdiyi qrup olub.[51]

*Siyasi partiyaların qeydiyyatı ilə bağlı qanunvericiliyin tələbləri və inzibati prosedurlar plüralizmə və birləşmək azadlığına hörmət və onu təşviq etmək məqsədilə hərtərəfli şəkildə yenidən nəzərdən keçirilməlidir. Siyasi partiyaların qeydiyyatı obyektiv və şəffaf meyarlar əsasında ciddi şəkildə aparılmalı və məhkəmə yolu ilə mübahisələndirilə bilməlidirlər.*

MSK DTİHB SMM-ə məlumat verib ki, namizədlik sənədləri dekabrın 9-dan etibarən təqdim oluna bilərdi və ilk sənədlər dekabrın 16-da daxil olub.[52] MSK namizədlərin irəli sürülməsi ilə bağlı 17 müraciəti qəbul edib və təsdiqləyib. Namizədlər arasında qadın yox idi. Qanunvericiliyə əsasən 125 seçki dairəsindən ən azı 60-da ən azı 50 imza toplamaqla, potensial namizədlərin ən azı 40,000 imza ilə toplaması tələb olunur. Qabaqcıl təcrübədən fərqli olaraq, seçicilər yalnız bir namizədi dəstəkləmək üçün imza ata bilər ki, bu da birləşmək azadlığının məhdudlaşdırılması kimi qiymətləndirilə bilər.[53]

*Seçki prosesində plüralizmi və birləşmək azadlığını daha da inkişaf etdirmək məqsədilə yalnız bir namizədin müdafiəsi üçün imza verməyə qoyulan məhdudiyyətin aradan qaldırılmasına diqqət yetirilməlidir.*

---

48 Ədliyyə Nazirliyi sorğu əsasında DTİHB SMM-ə siyahı təqdim edib.

49 DTİHB və Venesiya Komissiyasının Siyasi Partiyalar Haqqında Qanun üzrə 2023-cü il Birgə Rəyində bildirilir ki, yeni qanun ölkədə plüralizmə daha da ağırlaşdırıcı təsir göstərə biləcək bir sıra yeni çox problemli müddəaları təqdim edib. ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 3-cü bəndində ATƏT-ə üzv dövlətlər "siyasi təşkilatlarla bağlı plüralizmin vacibliyini" tanıyıblar. 7.6-cı bənd "şəxslərin və qrupların tam azadlıqda öz siyasi partiyalarını və ya digər siyasi təşkilatlarını yaratmaq hüququna" istinad edir. Həmçinin, Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsinin 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktına (MSHBP) 25 saylı 1996-cı il Ümumi Şərhinin (Ümumi Şərh) 4 və 27-ci maddələrinə baxın.

50 Ədliyyə Nazirliyi DTİHB SMM-ə təsdiq edib ki, partiya üzvlüyünün yoxlanılması telefon zəngləri vasitəsilə həyata keçirilir. Bəzi siyasi partiyalar öz üzvlərinin bu cür zəngləri qorxulu hesab etdiklərini bildiriblər. Birgə Rəydə qeyd olunur ki, "siyasi partiyalar öz daxili prosedurlarına nəzarət etməlidirlər; siyasi partiyanın daxili fəaliyyətinə geniş dövlət nəzarəti, o cümlədən partiyanın öz üzvlərinin siyahılarını dövlətə təqdim etməsi tələbi zərurət və mütənasiblik prinsiplərinə uyğun gəlməyən həddindən artıq müdaxilə tədbiri kimi görünür; siyasi partiyaların fəaliyyətinin dayandırılması və buraxılması yalnız normativ hüquqi aktların ən ciddi pozuntularına yol verildikdə və son tədbir olaraq tətbiq edilə bilər".

51 Azərbaycan Demokratiya və Rifah Partiyası (ADR) DTİHB SMM-ni qeyri-hökumət təşkilatı kimi yaradıldığını, lakin AİHM-in 2021-ci ilin noyabrında çıxardığı qərarla onların birləşmək azadlığı hüququnun pozulduğunu müəyyən edənə qədər 6 il müddətinə qeydiyyata alınmadığını bildirib. Həmin vaxtdan təşkilat siyasi partiya kimi qeydiyyatdan keçməyə çalışıb. Ədliyyə Nazirliyi "Siyasi partiyalar haqqında" əvvəlki qanuna əsasən kiçik texniki məsələlərlə bağlı uzun gecikmələrdən sonra çoxsaylı qeydiyyat cəhdlərini rədd edib. Qeydiyyatı olmayan partiyanın lideri Qubad İbadoğlu 2023-cü ilin iyulunda həbs edilib və hələ də istintaq təcridxanasındadır. Partiya təsdiqlədi ki, əgər o, azad olsaydı, prezidentliyə namizəd olmağa çalışardı. Partiyanın digər üzvləri də prezidentliyə namizədliyin irəli sürülməsi prosesi zamanı müvəqqəti saxlanılıb.

52 MSK-nın hər bir namizədliyi nəzərdən keçirmək və təsdiqləmək və ya rədd etmək barədə qərar vermək üçün beş gün vaxtı var idi.

53 DTİHB və Venesiya Komissiyasının Siyasi Partiyaların Tənzimlənməsi üzrə 2020 Təlimatlarının 196-cı bəndi tövsiyə edir ki, "vətəndaşın yalnız bir partiyanı dəstəkləmək üçün imzalamasına icazə verilməsi tələbindən qaçınmaq lazımdır, çünki belə bir tənzimləmə onların birləşmək azadlığı hüququna təsir edə bilər".

İmza vərəqələri yanvarın 8-dək MSK-ya təqdim edilməli idi. 17 namizəddən yalnız yoxlanılan ilk 7 nəfər imza vərəqələrini qaytarıb və onların hər biri yanvarın 10-dək rəsmi namizəd kimi qeydə alınıb. İmza vərəqələrini qaytaran və qeydiyyatdan keçmiş yeddi namizəd proseslə bağlı narahatlıq ifadə etməsələr də, namizədliklərini irəli sürə bilməyən bir neçə iddialı şəxs DTİHB SMM-ə polis və universitetlər də daxil olmaqla, imzaların toplanması zamanı maneələrlə üzləşdiklərini bildirdilər.[54] Bəziləri həmçinin MSK-dan imza vərəqələrinin vaxtında alınmasında çətinliklərin və bunun imzatoplama prosesinə əlavə əngəl olduğunu bildirdilər. MSK bunu təkzib edərək, özünün bütün proses ərzində tam olaraq əlçatan olduğunu bildirib. Qeydiyyatdan keçmiş namizədlər sosial mediada imza toplamağa çağıran heç bir şərh dərc etməyiblər, nə də ki, internet axtarışları nəticəsində medianın proses haqqında məlumat verdiyinə dair heç bir sübut tapılmadı. DTİHB SMM-in bəzi həmsöhbətləri bütün imzaların toplanması və yoxlanılması prosesinin həqiqiliyinə şübhə ilə yanaşıb və bunun formallıq kimi təsvir ediblər.

MSK, DTİHB SMM-ni namizədliyin irəli sürülməsi və imzaların yoxlanılması prosesinin bütün maraqlı tərəflər üçün müşahidə baxımından açıq olduğunu bildirsə də, vətəndaş müşahidəçi qrupları DTİHB SMM ilə müzakirədə seçki komissiyalarının fəaliyyətini müşahidə etmək icazəsi olmadığından (bax: *Vətəndaş və Beynəlxalq Müşahidəçilər*) namizədliyin irəli sürülməsi və imzaların yoxlanılması prosesinin və MSK fəaliyyətinin onlar üçün əlçatan olmadığını bildiriblər. Ümumiyyətlə, şəffaflığın olmaması namizədlərin qeydiyyatı prosesinə olan inama mənfi təsir edib.

*Namizədin qeydiyyatı üçün imzaların toplanması üçün kifayət qədər vaxtın təmin edilməsi və imzanın yoxlanılması prosesinin aydın, obyektiv və şəffaf olmasını təmin etmək üçün qanunvericilik bazasına düzəlişlər edilməlidir.*

Qeydə alınmış namizədlər siyahısına hakim YAP partiyası tərəfindən irəli sürülən hazırki Prezident, dörd partiya lideri (onlardan üçü millət vəkili), özünün namizədliyini irəli sürmüş millət vəkili və 2023-cü ildə fəaliyyətini dayandırmış partiyanın keçmiş sədri daxildir. Yeddi namizəddən beşi daha əvvəl prezident seçkilərində iştirak etmişdi.[55]

## VIII. SEÇKİ TƏŞVİQATI

23 günlük seçkiqabağı təşviqat dövrü yanvarın 15-də başlayıb və fevralın 6-da başa çatıb. Azərbaycanın nəzarəti altında olan Qarabağ bölgəsinin reinteqrasiyası mövzusu və bu prosesdə Prezidentin rolu ictimai əhval-ruhiyyəni əks etdirən süst kampaniyada üstünlük təşkil etdi.

Konstitusiya sərbəst toplaşmaq azadlığına təminat versə də, “Sərbəst toplaşmaq azadlığı haqqında” qanun açıq məkanlarda tədbirə ən azı beş gün əvvəl yerli hakimiyyət orqanlarına bildiriş təqdim etməyi tələb edir. Bununla belə, qanun ərizəçi və hakimiyyət orqanları qarşısında vaxt və məkanla bağlı razılığa gəlmək öhdəliyini qoyur, buna görə də dolayısı ilə dövlət qurumuna bildirişindən daha çox, onların razılığını tələb edir.[56] Bundan əlavə, posterlərin nümayişi seçki məntəqələrindən kənarda və bəzi digər ictimai yerlərdə MSK tərəfindən təyin edilmiş 10,000 rəsmi lövhə ilə

---

54 Bundan əlavə, bu namizədlər bir həftəlik milli bayram dövrünə təsadüf edən imzatoplama mərhələsinin vaxtının onların lazımi sayda imza toplamaq imkanlarını məhdudlaşdırdığını iddia edirdilər.

55 Namizədlikləri qeydə alınma sırasına əsasən namizədlər: Prezident İlham Əliyev (YAP), millət vəkili Zahid Oruc (namizədliyini öz təşəbbüsü ilə irəli sürüb), millət vəkili Razi Nurullayev (Milli Cəbhə Partiyası – MCP), millət vəkili Fazil Mustafa (Böyük Quruluş Partiyası – BQP), millət vəkili Qüdrət Həsənquliyev (Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası – BAXCP), Fuad Əliyev (namizədliyini öz təşəbbüsü ilə irəli sürüb), 2023-cü ildə buraxılan Azərbaycan Liberal Demokrat Partiyasının keçmiş sədri) və Elşad Musayev (Böyük Azərbaycan Partiyası – BAP).

56 2010-cu il DTİHB və Venesiya Komissiyasının Dinc Toplaşmaq Azadlığı üzrə Təlimatlarının 4.1-ci bəndi tövsiyə edir ki, “hüquqi normalar toplantının təşkilatçısından icazə tələbi deyil, niyyət barədə bildiriş təqdim etməsini tələb etməlidir”.

məhdudlaşır.[57] Sözügedən şərtlərlə qeydə alınmış bütün namizədlər sərbəst şəkildə təşviqat apara bildilər. Bəzi müxalifət partiyaları kampaniya müddətinin mərhələli şəkildə azaldılmasını və kampaniyanın dövlət tərəfindən maliyyələşdirilməməsini onların iştirak etməmək qərarını şərtləndirən amil kimi göstəriblər.[58] DTİHB əvvəllər bərabər rəqabət mühitini yaxşılaşdırmaq üçün təşviqat müddətinin uzadılmasını və təşviqat kampaniyasının maliyyələşdirilməsinin yenidən tətbiq edilməsini tövsiyə edib.

*Beynəlxalq standartlara tam uyğun olmaq üçün qanunvericiliyə yenidən baxılmalı və seçkilər zamanı siyasi xarakterli toplaşmalar da daxil olmaqla dinc toplantılar keçirmək hüququnun mənalı şəkildə həyata keçirilməsini təmin edəcək şəkildə həyata keçirilməlidir.*

Namizədlər əsasən bir saata yaxın davam edən 10 televiziya çıxışları vasitəsilə təbliğat aparıb və bərabər şəraitdə pulsuz təqdim olunublar. Namizədlərdən heç biri birbaşa olaraq hazırki prezidentin fəaliyyətini mübahisələndirməyib, lakin bir neçəsi parlamentin islahatlarına, qanunun aliliyinin gücləndirilməsinə, korrupsiyaya son qoyulmasına və daha geniş sosial rifah tədbirlərinə çağıran platformalar təqdim ediblər. Ümumiyyətlə, digər namizədlər özlərini prezidentə alternativ kimi təqdim etmirdilər və bir neçə aspektdə onların platformaları çox vaxt YAP kampaniyası ilə oxşarlıq təşkil edirdi.[59] Prezidentliyə namizədlərin, hazırki prezidentin, onun müvəkkil şəxslərinin[60] televiziya təqdimatlarının mövzuları namizədlər arasında konsensus yolu ilə seçilsə də, daha çox YAP-ın təşviqat mövzularına qeyri-mütənasib şəkildə yönəlmiş, konstitusiya və platformaları kimi digər konstitusiya və yenidənqurma platformalarına deyil, Prezidentin xarici siyasətinin və Azərbaycanın suverenliyinin bərpasının tərifinə səbəb olmuşdur.[61]

DTİHB SMM-in uzunmüddətli müşahidəçiləri 65 təşviqat tədbirini müşahidə etmişlər ki, onlardan 51-i YAP-ın və qalan 14-ü isə hər biri ən azı iki dəfə müşahidə olunmaqla digər 6 namizədlərin tədbirləri idi. DTİHB SMM-in müşahidə etdiyi YAP tədbirlərində oxşar üslubda çıxış edən natiqlər seçkiləri ölkənin ərazi bütövlüyünün bərpasına və ötən 21 ildə ölkəyə rəhbərlik etdiyinə görə Prezidentə təşəkkür etmək fürsəti kimi təqdim edirdilər. YAP BSMM-ə partiyanın 2400-dən çox təşviqat tədbiri keçirdiyini bildirib.[62] Digər 6 namizəd təbliğat-təşviqat dövründə hər biri ölkə üzrə 10-15 kiçik görüş keçirdiklərini qeyd ediblər.

---

57 Seçkilərdən sonra DTİHB SMM-ə MSK tərəfindən verilən məlumata əsasən iclasların keçirilməsinə icazə verilən yerlərin sayı 142 qapalı və 139 açıq məkandan müvafiq olaraq 1860 və 2841 qədər artırılıb, lakin əvvəlcədən məlumatlandırma tələb olunur. MSK bu dəyişikliyin nə vaxt edildiyi barədə məlumat vermədi, lakin bu, seçkiqabağı təşviqat dövrü başlayandan xeyli sonra verilən və heç bir ictimai açıqlama və ya MSK-nın qərarı dərc edilmədən bir xəbərə oxşayır. Təşviqatın ilk günündən etibarən hər bir namizəd MSK-nın təyin etdiyi 10,000 təyin olunmuş lövhələrin hər birində posterlər yerləşdirib. DTİHB SMM tərəfindən müşahidə edilən bütün hallarda Prezident Əliyevin posteri lövhənin görkəmli yuxarı sol küncündə onun kampaniyasına güzəştli münasibətin və plakatların koordinasiyalı şəkildə idarə olunmasının təzahüridir.

58 DTİHB və Venesiya Komissiyasının tövsiyələrinə baxmayaraq, kampaniya müddəti 2008-ci ildə ilkin 60 gündən 28 günə, 2010-cu ildə isə 23 günə endirildi. DTİHB və Venesiya Komissiyasının 2008-ci il Birgə Rəyində qısaldılmış kampaniya dövrünün bərabər şəraitə mənfi təsirini təsvir edən 10 və 11-ci bəndlərinə baxın.

59 İkinci yeri tutan və son seçkilərdən sonra prezident tərəfindən dövlət büdcəsindən maliyyələşən vəzifəyə təyin olunan Zahid Orucun seçkiqabağı kampaniyasında "Zəfərli gələcəyə bəli!" şüarı idi. Elşad Musayevin şüarı isə "Hər şey qalib xalqımız üçün!" idi, və bunların hər ikisi YAP-ın "Qalib xalqın qalib lideri" şuarı ilə oxşar səslənir.

60 Televiziya təqdimatlarına alternativ günlərdə radio təqdimatları edildi, lakin namizədlər əsasən müvəkkil şəxsləri ilə təmsil olunurdu.

61 Proqramlardan altısı xarici siyasət, təhlükəsizlik və Qarabağın yenidən qurulması ilə bağlı idi. Konstitusiya islahatları ilə bağlı proqram olmayıb və seçkilərə yaxın ən son iki proqram müvafiq olaraq gənclər və idman, mədəniyyət və dinin sahəsində mübahisəsiz məsələlərinə yönəlmişdir. Buna baxmayaraq, təşviqat zamanı namizədlər ayrılan mövzulara aid olmayan məsələlərlə bağlı çıxış etmək üçün vaxtdan daha çox istifadə edirdilər. Bəzi namizədlər proqramların tamaşaçılar üçün daha informativ olması üçün müsahibə verənlər paneli tərəfindən müəyyən edilmiş sualların olmasının tərəfdarları idilər.

62 Evlərarası həyəltlərdəki bir neçə qeyri-rəsmi görüşləri nəzərə alsaq, DTİHB SMM-in uzunmüddətli müşahidəçiləri tərəfindən müşahidə edilən YAP görüşlərinin orta auditoriyasının təxminən 180 nəfər olduğu hesablanmışdır.

Daha geniş iştirakçı üçün əlçatan ola bilən açıq havada bir neçə görüş təşkil olunmuşdu. Namizədlər daha çıx qapalı məkanlarda dəvət olunmuş auditoriya qarşısında tədbirlər keçiriblər. DTİHB SMM tərəfindən müşahidəsi aparılan təşviqat tədbirlərinin təxminən dörddə birində (17 hal) seçicilərə görüşlərdə iştirak etmək üçün təzyiqin şahidi olmuşdurlar – məsələn, tələbələr, müəllimlər və tibb işçiləri bəzi hallarda onlara iştirak etmək təlimatı verildiyini bildiriblər.[63]

Bundan əlavə, tədbirlər zamanı iştirakçılarla ünsiyyət əksər halalrda aşağı səviyyədə qurulurdu.[64] KİV təşviqat tədbirlərinin bir çoxunu işıqlandırmırdı (bax: Media). Namizədlərin təşviqat kampaniyaları haqqında məlumatın məhdud yayılmasına baxmayaraq, MSK tərəfindən geniş məlumatlandırma kampaniyası aparılıb və nəticədə ölkə boyu rəsmi binalarda və özəl bizneslərdə daha çox sayda plakat yerləşdirilib.[65]

*Hökümət və siyasi partiyalar dövlət sektoru işçilərini, tələbələri və digərlərini təşviqatda iştirak etməyə məcbur etməkdən çəkinməlidir.*

Namizədlər öz təşviqatı çərçivəsində qadınlar və kişilər arasındakı bərabərsizliklər mövzusuna birbaşa toxunmayıblar.[66] DTİHB SMM-in uzunmüddətli müşahidəçiləri qadınların həm partiya nümayəndələri, həm də təşviqat tədbirlərinin iştirakçıları kimi kampaniyada kifayət qədər təmsil olunmadığını qeyd ediblər. DTİHB SMM-in müşahidə etdiyi 65 təşviqat tədbirində ümumilikdə 248 natiq iştirak etmişdir ki, onlardan 60-ı qadın idi.[67]

*Siyasi partiyalar qadınların bərabər siyasi inkişafına kömək etmək, seçki kampaniyaları zamanı qadınların tanınmasını artırmaq və partiya proqramlarında gender perspektivini əsaslandırmaq üçün təşviq edilməlidir. Müvəqqəti xüsusi tədbirlər kimi hakimiyyət siyasi partiyaların bu cür addımlar atması üçün stimulların tətbiqini nəzərdən keçirə bilər.*

Sosial şəbəkələr Seçki Məcəlləsində açıq şəkildə tənzimlənmir və ya qeyd olunmur. “Media haqqında” qanuna əsasən, sosial şəbəkələr kütləvi informasiya vasitələri kateqoriyasına aid edilmir və buna görə də qanun dolayısı ilə onları əhatə dairəsindən kənarlaşdırır. Bununla belə, sosial şəbəkə istifadəçiləri

---

63 YAP-ın tədbirləri zamanı seçicilərə qarşı müşahidə edilən 11 təzyiq faktından əlavə, digər namizədlərin görüşlərində (ümumilikdə müşahidə edilən 14 görüşdən) iştirak etmək üçün müşahidə edilən altı təzyiq halı olub. İştirakçıların onlara qatılmaq göstərişi verildiyini iddia edən və ya görüşdə niyə olduqlarından xəbərsiz olduqları barədə mətbuatda xəbərlər də yayılıb. ATƏT-in 1990-cı il Kopenhagen Sənədinin 7.7-ci bəndi tələb edir ki, “siyasi təşviqat ədalətli və azad mühitdə aparılmalıdır ki, burada nə inzibati hərəkət, zorakılıq, nə də hədə-qorxular partiyalara və namizədlərə öz fikirlərini və keyfiyyətlərini sərbəst ifadə etməyə mane olmasın, yaxud seçicilərin həmin fikirləri öyrənməsinə və müzakirə etməsinə və ya səsvermə hüququndan azad olmaq qorxusuna mane olmasın”.

64 Müşahidələrin demək olar ki, üçdə ikisində iştirakçılarla ünsiyyət aşağı (19) və ya çox aşağı (20) kimi qiymətləndirilib. Yalnız bir halda o, orta yüksək kimi qiymətləndirilib.

65 Plakatların bir çoxunda “seçki” sözündən xeyli böyük şriftlə “Prezident” sözü, bəzilərində isə milli rənglərdə sülh göyərçini var idi ki, bu da Prezidentin uzun sürən münaqişəyə son qoyması ilə bağlı əsas kampaniya mövzusuna istinad kimi tanınır. Bəzi həmsöhbətlər, o cümlədən YAP-ın rayon nümayəndəsi səsvermə ilə bağlı plakatları *faktiki* təşviqat materialları hesab edirdilər.

66 CEDAW-a (Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya) 23 saylı Ümumi Tövsiyəyə əsasən, İştirakçı Dövlətlər “qadınların bütün sektorlarda və bütün səviyyələrdə dövlət siyasətinin formalaşdırılmasında tam iştirak etmək və təmsil olunmaq hüququna malik olmasını” təmin etməlidirlər. 1995-ci il Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının 191c maddəsində deyilir ki, siyasi partiyalar “gender məsələlərini öz siyasi gündəliyinə daxil etməyi nəzərdən keçirməli, qadınların siyasi partiyaların rəhbərliyində kişilərlə bərabər əsasda iştirakını təmin etmək üçün tədbirlər görməlidirlər”.

67 DTİHB SMM-in müşahidə etdiyi 65 təşviqat tədbirinin 33-də heç bir qadın çıxış etməyib. Kişilərin çıxış etmədiyi görüşlər müşahidə olunmayıb.

Cinayət Məcəlləsi və Prokurorluğun xəbərdarlıqları ilə cinayət məsuliyyətinə cəlb oluna bilər.[68]

DTİHB SMM bütün namizədlərin, üzv olduqları partiyalarının və digər seçilmiş qurum və təşkilatların sosial şəbəkələrinin monitorinqini aparmışdır.[69] Hazırki Prezident seçkiqabağı kampaniyanın heç bir mərhələsində nə rəsmi, nə də şəxsi hesablarında seçki ilə bağlı paylaşım etməyib, lakin regionlara səfərlər və rəsmi qəbullarla bağlı rəsmi fəaliyyəti ilə bağlı yeniliklər öz əksini tapmışdır.[70] Rəsmi hökumət hesablarının açıq-aşkar təşviqat apardığına dair heç bir sübut olmamışdı. Bununla belə, hökumət saytları və sosial şəbəkə hesabları ənənəvi olaraq Prezidenti və onun sələfini təbliğ edir və kampaniya zamanı da bunu davam etdirib. Rəsmi təşviqat dövründə YAP-ın partiya hesablarından biri olan "Facebook" sosial şəbəkəsində 117 paylaşımda təşviqat mövzuları və elanlar, o cümlədən 15 postda Prezidentin rəsmi görüşləri ilə bağlı məlumatlar yerləşdirilib. Prezidentliyə namizəd Razi Nurullayev, sosial şəbəkələrdə TikTok-dan[71] geniş istifadə etməklə, Facebook-da 138 paylaşımla ən fəal olub. Digər namizədlərin sosial şəbəkələr də daxil olmaqla, müxtəlif kanallar vasitəsilə kampaniyada dəstək qazanmaq niyyətlərini şübhə altına alan sosial şəbəkə kommunikasiya strategiyası olmadığı görünür. YouTube-da yalnız iki partiya və bir namizəd kampaniya ilə bağlı videolar yerləşdirib.[72] Ümumiyyətlə, namizədlərin ictimaiyyətlə əlaqəsi məhdud idi; bəziləri öz şəxsi sosial şəbəkələrində təbliğat kampaniyasına gec başlayıb, yaxud ümumiyyətlə başlamayıb, əvəzində partiya hesablarından istifadə ediblər, digər namizədlər isə ümumiyyətlə sosial şəbəkə profili olmayan və ya istifadə etməyən partiyaları təmsil edirdilər.[73] Namizədlərin İnstaqram və ya Facebook-da kampaniyalarını təşviq etmək üçün pul xərcləmələrinə dair heç bir sübut tapılmayıb.[74]

İnternetdə növbədənkənar seçkini boykot etmək üçün bəzi çağırışlar edilmişdi və sosial şəbəkələrdə nüfuzlu şəxslər tərəfindən namizədlərin hazırki prezidenti tənqid və ya ona alternativ təqdim etməməsi üçün bəzi tənqidi fikirlər səslənmişdir.[75] Hökuməti tənqid edən onlayn çıxışlar edən bir neçə fəal

---

68 "Prokurorluq haqqında" qanuna əsasən, prokuror və ya müavini qanun pozuntularının qarşısının alınması üçün vətəndaşlara və ya vəzifəli şəxslərə rəsmi xəbərdarlıq edə bilər. Cinayət törətməmiş və ya barəsində cinayət işi açılmayan vətəndaşların cinayət törətmək ehtimalı ilə bağlı xəbərdarlıq edilməsi onlayn media və sosial şəbəkələrdə ifadə azadlığına susdurucu təsir göstərə bilər. Baş Prokuror 7 tanınmış vətəndaş cəmiyyəti fəalı və jurnalistə xəbərdarlıq edərək, onları "təsir etmək" məqsədi ilə görüşə dəvət, 2022-ci ilin iyulunda sosial şəbəkələrdəki yazılarına görə potensial məsuliyyət barədə xəbərdarlıq edib. Azərbaycan Respublikası Cinayət Məcəlləsi sosial şəbəkələri şər, böhtan və prezidentin ünvanına təhqirə yol verilməsini nəzərdə tutan müddəalarla tənzimləyir. Cinayət Məcəlləsinin 148-1-ci maddəsi internet platformalarında saxta şəxsiyyətlərdən istifadə etməklə törədilən böhtan və ya təhqiri xüsusi olaraq cinayət məsuliyyətinə cəlb etməklə, anonim olmayan profillər üçün nəzərdə tutulan cəzalardan daha sərt cəzalar nəzərdə tutur.

69 Namizədlərin sosial şəbəkə hesabları Facebook, Instagram, X, TikTok və YouTube üzərindən izlənilib. Namizədlərin ən çox istifadə etdiyi sosial şəbəkə Facebook olub.

70 Prezidentin Facebook profilinin 850,000 izləyicisi var.

71 Bir neçə TikTok videosu 2 milyondan çox baxış toplayıb. Şərhlərin çoxu mənfi idi.

72 YAP orta hesabla 950 baxış olan 78 video, BAXCP orta hesabla 730 baxış olan 12 video yerləşdirib. Razi Nurullayev orta hesabla 9500 baxış olan 78 video ilə ən fəal olub. Prezident, hər biri orta hesabla 3900 baxış toplayan iki paylaşım edib, lakin bunlar birbaşa təşviqat xarakterli deyil, regional səfərlər həsr olunub.

73 Zahid Orucun Facebook-dakı əsas profil şəkli Prezidentin parlamentdəki çıxışının təsviri olub. Altı digər namizəddən dördünün Facebook-da 5000-dən az izləyicisi var. BAXCP-nin Facebook hesabı yox idi və onların namizədi Facebook-da 15,000 izləyicisi olmasına baxmayaraq, kampaniya zamanı heç nə yazmayıb. BAP seçki kampaniyası zamanı Facebook-da paylaşım etməyib.

74 TikTok siyasi reklama və X sırf Azərbaycan üçün buna icazə vermir, baxmayaraq ki, sözügedən platformalar namizədlər tərəfindən çox istifadə edilməmişdir. YouTube/Google-un Reklamlarda Şəffaflıq Mərkəzi Azərbaycanda siyasi reklamla bağlı hesabat vermir.

75 Müxalif AXCP lideri Əli Kərimlinin Facebook-da 258 min izləyicisi var idisə, YAP-ın 93 min izləyicisi var. YAP tərəfindən yerləşdirilən paylaşımlara yazılan 35 şərhlə müqayisədə, onun paylaşımlarına orta hesabla 600-ə yaxın şərh verilib. Əli Kərimlinin paylaşımlarına edilən şərhlərin əksəriyyəti mənfi olub və əksər hallarda heç bir paylaşımı, dostları və izləyicisi olmayan qeyri-müəyyən profillərdən yerlədirildiyi görsənir. İştirak etməyən üç müxalifət partiyasının bir yerdə (REAL 41,000, Müsavat 22,000 və AXCP 9,800) izləyiciləri Prezidentdən başqa digər dörd namizədin partiyalarının izləyicilərindən daha çox idi (MCP 1,900, BQP 486, BAP 151, BAXCP-nin hesabı yoxdur).

kampaniya zamanı saxlanılıb və cəzalandırılıb və bu öz növbəsində ictimai müzakirələrə mənfi təsir göstərib.[76]

Ümumilikdə, kampaniya demək olar ki, nəzərə çarpmırdı və məhdud ictimai iştiraka səbəb olmuşdu. Hazırki Prezident, seçkiqabağı təşviqat kampaniyası zamanı nə şəxsən təbliğat aparmayıb, nə də seçkilərə açıq şəkildə istinad etməyib və ya digər namizədlərlə ünsiyyətdə olmayıb.[77] Seçkilərdə həqiqi rəqabət yox idi.

## IX. SEÇKİ KAMPANİYASININ MALİYYƏLƏŞDİRİLMƏSİ

Seçki Məcəlləsi prezidentliyə namizədlərə təşviqat kampaniyalarını öz vəsaitləri, fiziki və hüquqi şəxslərin ianələri, siyasi partiyaların ayırdığı töhfələr hesabına maliyyələşdirməyə imkan verir. Qanunvericiliyə uyğun olaraq, bütün namizədlər dəstək imzaların toplanması prosesinə başlamazdan əvvəl kampaniya ilə bağlı bütün əməliyyatlar üçün xüsusi bank hesabı açıblar. Xarici dövlətlərin və vətəndaşların, beynəlxalq təşkilatların, dövlət orqanlarının və bələdiyyələrin, xeyriyyə təşkilatlarının, dini birliklərin və anonim donorların töhfə etməsinə icazə verilmir. Qanun kampaniya ianələrini fiziki şəxslərdən 3,000 manat, hüquqi şəxslərdən isə 50,000 manatla məhdudlaşdırır.[78] Namizəd və ya hər hansı şəxsin namizədliyini irəli sürən təşkilat təşviqat kampaniyasına 250,000 manatadək töhfə verə bilər. Kampaniya xərclərinin limiti 10 milyon manata bərabərdir.

Qanunvericiliyə əsasən, namizədlər üç maliyyə hesabatı təqdim ediblər: onların qeydiyyat sənədləri ilə eyni vaxtda təqdim edilən ilkin maliyyə hesabatı, ardınca aralıq və yekun hesabat. Aralıq və yekun maliyyə hesabatları MSK tərəfindən vaxtında dərc edilmişdir. Hazırki Prezident, onun namizədliyini irəli sürən partiya tərəfdən qanunla icazə verilən maksimum 250,000 manat daxil olmaqla, cəmi 737,000 manat, digər bütün namizədlər isə öz mənbələrindən və ianələrindən ümumilikdə 300,900 manat alıblar. Altı namizədin bəyan edilmiş toplam kampaniya xərcləri hazırki Prezidentin xərclədiyi məbləğdən iki dəfə az idi.[79] Hesabatların dərci kampaniyanın maliyyələşdirilməsinin müəyyən dərəcədə şəffaflığını təmin etsə də, məlumatların ümumiləşdirilmiş şəkildə olması və hər bir ayrı-ayrı ianənin məbləği və ya vəsaitin mənbəyinin bölgüsünü göstərilməməsi seçicilərə verilən məlumat məhdud şəkildə idi.[80]

MSK seçki kampaniyasının maliyyələşdirilməsinə nəzarəti həyata keçirir. MSK həmçinin hesabatları yoxlaya və namizədlərdən və ya partiyalardan əlavə məlumat tələb edə bilər, lakin auditin nəticələrini dərc etmək üçün qanuni öhdəlik daşımır. Sözügedən qayda, habelə MSK-nın DTİHB SMM-ə auditi

---

76 Onlayn fəal, Xalqa Xidmət Hərəkatının təsisçisi Arzu Sayadoğlu, hökumətin tənqidindən sonra yanvarın 18-də 4 ay müddətinə istintaq təcridxanasına salınıb. Talış milli azlığı ilə əlaqəli fəal Ruslan Vahabov, 2023-cü ilin sentyabr hərbi əməliyyatının səbəblərini şübhə altına alan yazıdan sonra 16 yanvarda inkar etdiyi narkotik ittihamı ilə 4 il müddətinə azadlıqdan məhrum edilib.

77 Yanvarın 10-da prezidentin 150 dəqiqəlik müsahibəsi onun seçkilərlə bağlı ictimaiyyət qarşısında çıxış etdiyi yeganə məlum hadisə olub.

78 1 Avro 1.85 Azerbaijani *Manatına* (AZN) bərabərdir.

79 Fuad Əliyev 22,500 manat; Razi Nurullayev – 30,000 manat; Elşad Musayev – 28,500 manat; Qüdrət Həsənquliyev – 49,500 manat; Zahid Oruc - 49,000 manat; Fazil Mustafa – 121,400 manat; və hazırki prezident İlham Əliyev 736,922 manat xərcləyib. Altı namizədin ümumi xərcləri 300,900 Azərbaycan manat təşkil edib.

80 2002-ci il MDB Konvensiyasının 12.4-cü maddəsinə əsasən, imzalayan dövlət "qadağan olunmuş ianələrin qarşısını almaq üçün namizədlərə, seçkilərdə iştirak edən siyasi partiyalara (koalisiyalara) bütün pul ianələrinin açıq və şəffaf mahiyyətini təmin etməlidir". 2003-cü il UNCAC-ın 7.3-cü maddəsi dövlətlərə "seçilmiş dövlət vəzifələrinə namizədlərin maliyyələşdirilməsində şəffaflığı artırmaq üçün [...] müvafiq qanunvericilik və inzibati tədbirlər görməyi" tövsiyə edir. 2020-ci il DTİHB və Venesiya Komissiyasının Siyasi Partiyaların Tənzimlənməsi üzrə Təlimatlarının 247-ci bəndində qeyd olunur ki, "seçicilər siyasi partiyalara verilən maliyyə dəstəyi ilə bağlı müvafiq məlumata malik olmalıdırlar, çünki bu, qərarların qəbul edilməsinə təsir göstərir və partiyaları məsuliyyətli olmağa sövq etmək vasitəsidir".

yalnız namizədlərin maliyyə fəaliyyətinin şübhəli hesab edildiyi halda aparması barədə məlumat verməsi tam şəffaflığı və kampaniyanın maliyyələşdirilməsinə effektiv nəzarəti təmin etmir.[81]

*Alınan vəsaitin mənbəyini və məbləğini aydın şəkildə göstərən kampaniyanın maliyyə hesabatları ictimaiyyətə açıq olmalıdır və kampaniyanın maliyyə hesabatlarının auditi inzibati baxımdan ixtiyari bir səlahiyyət olmamalıdır. Qanunvericilik yoxlamaların qərəzsiz və müstəqil orqan tərəfindən aparılmasını və sonradan vaxtında dərc olunmasını təmin etməlidir.*

DTİHB-nin əvvəlki tövsiyələrinə baxmayaraq, Seçki Məcəlləsi prezidentlik kampaniyasının dövlət tərəfindən maliyyələşdirilməsini nəzərdə tutmur. DTİHB SMM-in görüşdüyü namizədlərdən heç biri dövlət maliyyələşdirilməsinə ehtiyac olmadığını, kampaniyalarını əsasən öz mənbələri hesabına maliyyələşdirə bildiklərini bildirsələr də, müxalifət partiyaları siyasi maliyyələşdirmə qaydalarına, o cümlədən dövlət maliyyəsinin olmamasını bərabər oyun qaydalarının təmin edilməməsi kimi təsvir ediblər.

## X. KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

### A. MEDIA MÜHITI

Siyasi məlumatların mənbəyi kimi əsas yeri on bir milli televiziya və ondan sonra sosial şəbəkələr və YouTube kimi audiovizual platformalar tutur. Dövlət Televiziyası *AzTV* və İctimai Televiziya *İTV* dövlət tərəfindən maliyyələşdirilir və hər il dövlətdən bütün TV reklam bazarının əldə etdiyi gəlirdən daha çox vəsait alır.[82] 2004-cü ildə qəbul edilmiş "İctimai Yayım haqqında" qanun ictimai yayımçı *İTV*-nin əsasən abunə haqqı hesabına maliyyələşdirilməsini tələb etsə də, bu mexanizm hələ tətbiq olunmamışdır. Müvəqqəti olaraq, qanun *İTV*-yə dövlətdən maliyyə almaq hüququ verir. *İTV*-ni üzvləri parlament tərəfindən seçilən Yayım Şurası idarə edir, *AzTV*-nin rəhbərliyini isə prezident təyin edir.[83] Özəl KİV-lərin fəaliyyətinə lisenziya Audiovizual Şuranın üzvləri prezident tərəfindən təyin olunur. DTİHB SMM-in bir çox müsahibləri iddia edirdilər ki, özəl yayımçıların qeyri-şəffaf mülkiyyət strukturları və onların birbaşa dövlətdən asılılığı reklam bazarının inkişaf etməməsi səbəbindən medianın davamlı inkişafına mane olur.

*İctimaiyyət üçün mövcud olan müvafiq siyasi məlumatların əhatə dairəsini genişləndirmək və fikirlər plüralizmini təşviq etmək üçün dövlət televiziyası həqiqi ictimai yayımçıya çevrilməlidir. Onların müstəqilliyini təmin etmək məqsədilə Dövlət Televiziyası olan AzTV-nin və İctimai Televiziya İTV-nin maliyyələşdirilməsi fərqli mənbələrdən olmalı və onların rəhbərliyi müstəqil qurum tərəfindən təyin edilməlidir.*

---

81 2017-ci il GRECO-nun Azərbaycan üzrə İkinci Uyğunluq Hesabatına İkinci Əlavəsinin 47-ci bəndində deyilir ki, "MSK-nın və seçki komissiyalarının açıq şəkildə müəyyən partiyanın üstünlük təşkil etdiyi tərkibi siyasi maliyyələşdirməyə qərəzsiz və səmərəli nəzarətini təmin etmək üçün hələ də həll edilməli olan xüsusilə mühüm məsələdir".

82 2024-cü ildə *AzTV*-nin büdcədən 42,569,399 manat alması nəzərdə tutulub, *İTV* üçün isə 21,626,383 manat nəzərdə tutulub. *İTV*, həmçinin 2024-cü il Yay Olimpiya Oyunları (təxminən 590,000 avro) və 2024-cü il UEFA Kuboku (950,000 avro) kimi müxtəlif beynəlxalq idman tədbirlərinin yayım hüququnun alınması məqsədilə Prezidentdən birbaşa dəqiq məqsədli maliyyə vəsaiti alıb. Azərbaycan Audiovizual Şurası DTİHB SMM-ə məlumat verib ki, televiziya mediası üçün ümumi reklam bazarı 35 milyon manat həcmində qiymətləndirilir.

83 2023-cü il Media Azadlığı və Demokratiya üzrə Birgə Bəyannamədə, BMT-nin Fikir və İfadə Azadlığı üzrə xüsusi Məruzəçisi, ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi və digərləri dövlətləri "adekvat şəkildə maliyyələşdirilən ictimai maraqları əks etdirən medianı yaratmağa və dəstəkləməyə və ictimai hesabatlılıq çərçivəsində siyasi və ya kommersiya müdaxiləsindən müstəqilliyini təmin etməyə çağırıblar. Bütün hökumət və ya dövlət mediası ləngimədən ictimai maraqları əks etdirən mediaya çevrilməlidir". İCCPR-a 34 saylı Ümumi Şərhin 19-cu bəndi Dövlətləri "ictimai yayım xidmətlərinin müstəqil şəkildə fəaliyyət göstərməsini təmin etməyə" çağırır. Bu baxımdan iştirakçı dövlətlər onların müstəqilliklərinə təminat verməlidirlər".

Seçkilərdən əvvəlki üç ay ərzində 10-dan çox tənqidçi jurnalistin həbs olunması yerli və beynəlxalq vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatlar və ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi (MAN) də daxil olmaqla peşəkar təşkilatların narahatlığını doğurub.[84] Jurnalistlər əsasən valyuta qaçaqmalçılığı, hədə-qorxu ilə tələb etmə və ya digər iddia edilən cinayət fəaliyyətləri ittihamı ilə həbs edilsələr də, DTİHB SMM-in həmsöhbətlərinin böyük qismi həbslərin böyük əksəriyyətinin jurnalistlərin peşə fəaliyyətləri ilə əlaqələndirib.[85] DTİHB SMM jurnalistlərə və media rəhbərlərinə qarşı işlərin məhkəmə iclaslarına buraxılması üçün müraciət etmiş, lakin bu vəsatət Apellyasiya Məhkəməsi tərəfindən rədd edilmişdir. DTİHB SMM məhkəmə qərarlarını nəzərdən keçirmiş və belə qənaətə gəlmişdir ki, qərarlar demək olar ki, mahiyyət baxımından eynidir və qabaqlayıcı tədbir kimi məhkəməyəqədər həbs qətimkan tədbirinin seçilməsi üçün müvafiq əsaslandırma təqdim etmir.[86] Hakimiyyəti tənqid edən jurnalistlər tez-tez dövlətyönlü mediada qarayaxma kampaniyalarının hədəfinə çevrilir, "təxribatçı jurnalistlər", "satqın" kimi damğalanır və "xarici kəşfiyyata işləmək"də və "Azərbaycan əleyhinə xarici qüvvələrdən qeyri-qanuni maliyyə yardımı almaqda" ittiham olunurlar.[87] Bütövlükdə, bu cür həbslər həddindən artıq məhdudlaşdırıcı hüquqi baza ilə birlikdə (aşağıya bax) müstəqil media üçün düşmənçilik mühiti yaradıb və geniş yayılmış özünüsenzuraya səbəb olub. Beləliklə, müstəqil jurnalistika və tənqidi diskurs üçün imkanlar ciddi şəkildə məhdudlaşdırılır.

## B. HUQUQI ÇƏRÇIVƏ

Konstitusiya məlumat və ifadə azadlığını təmin etsə də, onların məhdudlaşdırılması üçün qeyri-müəyyən əsaslar təsbit edir ki, bu da beynəlxalq öhdəliklərə zidd olaraq həm qanunvericilikdə, həm də

---

[84] 20 noyabr 2023-cü il və 13 yanvar 2024-cü il tarixləri arasında polis tanınmış "*Absaz Media*" araşdırma saytının direktoru, baş redaktoru, baş redaktor müavini və üç jurnalistini həbs edib. Onlara ümumilikdə təqribən 40,000 avro məbləğində vəsaitin gətirilməsi ilə bağlı ittiham irəli sürülüb, gömrük qaydaları isə Azərbaycanın rezidentlərinə və qeyri-rezidentlərinə şifahi məlumat əsasında 10,000 ABŞ dollarına qədər, yazılı bəyannamə ilə isə 50,000 ABŞ dollarına qədər pulu ölkəyə gətirmək hüququ verir. Eyni dövrdə Youtube *Kanal 13-də* çalışan üç jurnalist də qanunsuz tikinti, valyuta qaçaqmalçılığı və polis əmrinə tabe olmamaq kimi müxtəlif ittihamlarla həbs edilib. Polisə tabe olmadığına görə həbs edilən jurnalist *Kanal 13-də* fəaliyyəti ilə bağlı geniş sorğu-sual edildikdən sonra yanvarın 1-də azadlığa buraxılıb. Dekabrın 8-də tənqidi internet sayt olan *Dunyaninsesi.az*-ın baş redaktoru hədə-qorxu ilə pul tələb etmək ittihamı ilə həbs edilib. Dekabrın 11-də Youtube *Kanal 11*-in jurnalisti hədə-qorxu ilə pul tələb etməkdə ittiham olunaraq həbs edilib. Yanvarın 13-də *"Gündəlik Bakı"* saytının baş redaktoru hədə-qorxu ilə pul tələb etmə ittihamı ilə həbs edilib. Yanvarın 15-də Qafqaz üzrə regional ofisi Tbilisidə yerləşən *JamNews* saytının Bakıdakı siyasi müxbiri həbs və kiçik xuliqanlıqda ittiham edilib və ertəsi gün bütün ittihamlar götürülməklə azad edilib. Yanvarın 16-da ATƏT MAN bu həbslərlə bağlı dərin narahatlığını ifadə edib. Seçkidən sonra da həbslər davam etdi. Martın 6-da polis Youtube *Toplum TV*-yə basqın edib və nəticədə media orqanına bağlı 7 jurnalist, işçi və fəal həbs edilib. Onlar da valyuta qaçaqmalçılığında ittiham olunublar. Ertəsi gün MAN media işçilərinin davam edən təqiblərindən dərin narahatlığını bildirdi. Toplum TV onu da bildirib ki, həbslərlə eyni gündə onların Youtube kanalının adı dəyişdirilib və bütün video arxivi silinib, bununla da sözügedən qurumun fəaliyyəti faktiki olaraq dayandırılıb. Martın 8-də Azərbaycanın tanınmış media hüquqşünası və *Toplum TV*-nin həmtəsisçilərindən biri də həbs edilib və valyuta qaçaqmalçılığında ittiham olunub.

[85] Hazırda AİHM-də ərizəçilərin hakimiyyət orqanları tərəfindən təqiblərə məruz qaldığını və jurnalist fəaliyyətlərinə görə qisas almaq məqsədilə cinayət işlərinin açılmasını iddia etdikləri bir sıra işlər baxılır. Ən son nümunələrə 2023-cü ildə *Həşimov Azərbaycana qarşı,* 2022-ci ildə *Hacılı Azərbaycana qarşı* və 2018-ci ildə *Məmmədov Azərbaycana qarşı* işləri daxildir.

[86] MSHBP-in 9-cu maddəsinin 3-cü bəndində deyilir: "[…] Məhkəmə baxışını gözləyən şəxslərin həbsdə saxlanması ümumi qayda sayılmır, lakin azadlığa buraxılma məhkəmə prosesinin istənilən digər mərhələsində və fürsət yaranarsa, hökmün icrası üçün məhkəmə baxışına gəlmək təminatlarına əsaslana bilər". MSHBP-yə 35 saylı Ümumi Şərhin 21-ci bəndində deyilir ki, "[…]Dövlətlər belə həbsdən yalnız son tədbir kimi istifadə etməlidirlər və davamlı həbsin əsaslı olub-olmadığını müəyyən etmək üçün müstəqil orqan tərəfindən müntəzəm dövri yoxlamalar təmin edilməlidir[…]". Həmin sənədin 22-ci bəndində deyilir ki, "[a]həbs və ya həbs üçün hər hansı tutarlı əsaslar […] həddən artıq geniş və ya özbaşına şərh və ya tətbiqdən qaçınmaq üçün kifayət qədər dəqiqliklə müəyyən edilməlidir".

[87] Məsələn, *Absaz Media* rəhbərliyinin həbsindən az sonra 10-dan çox yayım və onlayn mediada *Absaz Media*-nın jurnalistlərini hədəf alan, qanunsuz fəaliyyətlər və xarici tərəflərin xeyrinə casusluqla bağlı xəbərlər yayılıb. *Azadlıq* radiosu (Azad Avropa/Azadlıq Radiosunun yerli bölməsi), yerli tənqidi qəzet *Azadlıq* və *Toplum TV* və onun baş redaktoru seçki günündən əvvəl, seçki zamanı və seçkidən sonra oxşar media kampaniyalarında hədəfə alınıb. Martın əvvəlində rəhbərliyi və jurnalistlərin həbsindən az sonra, *Toplum TV* və onun yüksək rəhbərliyini hədəf alan daha bir kampaniya mediada yer alıb.

təcrübədə özbaşına və qeyri-mütənasib məhdudiyyətlərə yol açır.[88] DTİHB-nin əvvəlki tövsiyələrinə baxmayaraq, sosial şəbəkələr də daxil olmaqla, diffamasiya və böhtan cinayət əməli olaraq qalır, prezidentə qarşı yönəldiyi təqdirdə isə üç ilədək həbs və ya beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.[89]

*Beynəlxalq standartlara uyğun ifadə azadlığını təmin etmək və dəstəkləmək üçün medianın hüquqi bazası nəzərdən keçirilməlidir. Böhtana və yalan olduğu məlum olan məlumatların yayılmasına görə cinayət təqibi, habelə dövlət qulluqçularının şərəfinin xüsusi mühafizəsini təmin edən qanunlar, zədələnmiş nüfuzun bərpası üçün nəzərdə tutulmuş mülki müdafiə vasitələrinin xeyrinə tamamilə ləğv edilməlidir.*

Bundan başqa, "İnformasiya haqqında" qanun əvvəlcədən məhkəmə qərarı almadan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məzmununa görə KİV-lərin internet saytlarını bloklamaq hüququ verir ki, bu da ölkədə, o cümlədən kampaniya zamanı, bir sıra yerli və beynəlxalq xəbər saytların bloklanması ilə nəticələnib.[90]

*Beynəlxalq standartlara uyğun olaraq, internet saytları yalnız qanunda dəqiq müəyyən edilmiş obyektiv və şəffaf meyarlar əsasında bloklana bilər. Mümkün məhdudiyyətlər məzmuna xas olmalıdır, eyni zamanda bütün veb-saytlara ümumi qadağalar istifadə olunmamalıdır. Vebsayt sahibləri və geniş ictimaiyyət bu cür bloklamalar baş verdikdə məlumatlandırılmalıdır ki, onların qərarı mübahisələndirmək üçün effektiv imkanları olsun. Bloklanmış saytların reyestri ictimaiyyətə açıq olmalıdır.*

---

88 Konstitusiyanın 47.3-cü bəndi "irqi, milli, dini, sosial nifaq və düşmənçiliyi qızışdıran və ya hər hansı digər meyarlara əsaslanan təşviqat və təbliğatı" qadağan edir. Venesiya Komissiyasının Konstitusiyaya Dəyişikliklər Layihəsi üzrə 2016-cı il Rəyinin 40-cı bəndində qeyd edilir ki, belə bir geniş tərifə malik bənd AİHK-nın 10-cu maddəsi ilə təminat verilən ifadə azadlığına həddən artıq məhdudiyyətlərə haqq qazandıra bilər. Həmin sənədin 30-cu bəndi belə nəticəyə gəlir ki, "qanuni məqsədə mütənasiblik prinsipi yalnız konstitusiya qanunu səviyyəsində tanınır və konstitusiyalaşdırılmamışdır". 2011-ci il BMT İHŞ-nin İPM-ə 34 saylı Ümumi Şərhinin 25-ci bəndində deyilir: "Qanunlar onların icrası ilə bağlı təqsirləndirilən şəxslərə hansı ifadə növlərinin lazımi şəkildə məhdudlaşdırıldığını və hansı növlərin məhdudlaşdırılmadığını müəyyən etmək üçün onlara kifayət qədər təlimat verməlidir". Avropa Şurasının Nazirlər Komitəsinin CM/Rec(2024)2 saylı Tövsiyəsinin 22-ci bəndi ictimai iştirakçılığa qarşı mühüm məhkəmə iddialarından istifadəyə qarşı mübarizəyə dair üzv dövlətlərə tövsiyə edir ki, "Üzv Dövlətlər ictimai maraq doğuran məsələlərlə bağlı hər hansı hüquqi və ya fiziki şəxslərin azad ifadəsinin və ictimai iştirakla bağlı hüquqların həyata keçirilməsinin qarşısını almaq, maneə törətmək, məhdudlaşdırmaq və ya cəzalandırmaq üçün təhdid edilən, başlanan və ya həyata keçirilən hüquqi hərəkətlərin qarşısını almaq üçün lazımi qanunvericilik və ya digər tədbirləri saxlamalı və ya lazımi hallarda görməlidir. Onlar həmçinin qanunvericilik, sanksiyalar və müdafiə vasitələrinin ictimai iştirakçılığa qarşı ayrı-seçkilik və ya ixtiyari şəkildə tətbiq edilməməsini təmin etmək üçün sayıq olmalıdırlar".

89 MSHBP-yə 34 saylı Ümumi Şərhin 47-ci bəndi Dövlətləri "diffamasiyanın cinayət məcəlləsindən çıxarılmasını nəzərdən keçirməyə" çağırır, 38-ci bənd isə "bütün ictimai şəxslərdən, o cümlədən dövlət və hökumət başçıları kimi ən yüksək siyasi hakimiyyəti həyata keçirən şəxslərin legitim əsasda tənqidə və siyasi müxalifətə məruz qalır. [...] Qanunlar yalnız mübahisələndirilə bilən şəxsin şəxsiyyətinə görə daha ağır cəzalar nəzərdə tutmamalıdır".

90 Qanunvericiliyin tələbinə baxmayaraq, bloklanmış veb-saytların ümumi siyahısı ictimaiyyətə açıq deyil. Kampaniya dövründə DTİHB SMM gündəlik milli siyasi xəbərləri paylaşan 10-dan çox yerli və beynəlxalq İnternet saytın Bakıda və regionlarda ümumiyyətlə əlçatmaz olduğunun şahidi olub. Bəzi DTİHB SMM həmsöhbətləri ən son 19 sentyabr və 31 oktyabr 2023-cü il tarixləri arasında təhlükəsizlik səbəbi ilə TikTok-un müvəqqəti bloklanmasının bir neçə halını xatırlatmışdırlar. MSHBP-yə 34 saylı Ümumi Şərhin 43-cü bəndində qeyd olunur ki, "İnternet saytların , bloqların və ya istənilən digər internet-əsaslı, elektron və ya digər bu kimi məlumat yayma sisteminin fəaliyyətinə hər hansı məhdudiyyətlər" yalnız MSHBP-nin 19-cu maddəsini pozmadığı halda icazə verilir və açıq şəkildə nəticə çıxarır ki, internet saytlarının fəaliyyətinə ümumi qadağalar MSHBP-nin 19 maddəsinə uyğun deyil. BMT-nin İfadə Azadlığı üzrə Xüsusi Nümayəndəsinin 2011-ci il hesabatının 70-ci bəndi Dövlətləri "bloklanmış internet saytlarının siyahılarını və hər bir internet saytının bloklanmasının zəruriliyi və əsaslandırılması ilə bağlı tam təfərrüatları təqdim etməyə" çağırır.

2022-ci ildə qüvvəyə minmiş "Media haqqında" yeni qanunun qəbulu ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsi və Avropa Şurası da daxil olmaqla yerli və beynəlxalq təşkilatlar tərəfindən kəskin tənqidlə qarşılandı.[91] Jurnalistlərin dövlət tərəfindən idarə olunan qeydiyyat və ya lisenziyalaşdırma sistemlərini açıq şəkildə qadağan edən ifadə azadlığına dair beynəlxalq öhdəliklərə baxmayaraq, sözügedən qanun media qurumlarının[92] və jurnalistlərin *faktiki olaraq* məcburi qeydiyyatına dair geniş sayda tələblər ehtiva edir.[93] Bundan əlavə, qanun KİV-in xaricdən sahibliyini və maliyyələşdirilməsini qadağan edir və onlan və abunə əsaslı yayımçıları və xidmət təminatçıları üçün lisenziyalaşdırma tətbiq edir.

İcraçı direktoru və Müşahidə Şurası prezident tərəfindən təyin olunan Media İnkişafı Agentliyinə (MİA) media reyestrinin aparılması və tələblərə artıq cavab verməyən (məsələn, Davranış Məcəlləsini pozan) media qurumlarını və jurnalistləri həmin reyestrdən çıxarmaq tapşırılıb.[94]

*"Media haqqında" qanunun ifadə azadlığına dair beynəlxalq standartlara uyğunlaşdırılması üçün əsaslı şəkildə yenidən baxılmalıdır. Xüsusilə, KİV-lərin, o cümlədən xarici vətəndaşlar və hüquqi şəxslər tərəfindən yaradılması, qeydiyyatı və maliyyələşdirilməsinə qoyulan həddindən artıq məhdudiyyətlərə, habelə jurnalistlərin dövlət tərəfindən idarə olunan qeydiyyat və lisenziya sisteminə yenidən baxılmalıdır.*

Bu cür yayım görə vaxt satmağı seçmiş media orqanlarına ödəniş edilə və ya yalnız ictimai yayımçı olan İTV-də pulsuz əsasda təşkil oluna bilər.[95] Qanunla dövlət kanalı *AzTV*-yə kampaniyanı işıqlandırmağa icazə verilmir. Namizədlərin təşviqat fəaliyyətini işıqlandırmaqda maraqlı olan yayım mediası bunu bərabər əsaslarla etməli və məzmunu heç bir əlavə şərh vermədən yalnız proqramların əvvəlində yayımlamalıdır. Təşviqat kampaniyasının geniş tərifi dar redaksiya rəyi ilə birlikdə media tərəfindən namizədlərin müxtəlif və hərtərəfli işıqlandırılması imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı və beləliklə, ictimaiyyətin fərqli fikirlərə çıxışını azaltmış oldu. Yuxarıda göstərilənlər seçki dövründə media plüralizmi prinsipini zəiflətmiş oldu.

---

91 ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin müraciəti əsasında hazırlanmış Media haqqında Azərbaycan Respublikasının Qanunu üzrə 2022-ci il Hüquqi Təhlilinə və və Venesiya Komissiyasının və Avropa Şurasının İnsan Hüquqları və Qanunun aliliyi üzrə Baş Direktorluğunun Media haqqında Qanuna dair 2022-ci il üçün Birgə Rəyinə baxın.

92 Qeydiyyatdan keçmək üçün onlayn mediadan, digər tələblərlə bərabər, ayın ən azı 20 günü ərzində hər gün ən azı 20 orijinal xəbər hazırlaması tələb olunur ki, bu da araşdırma və ya regional media üçün çətin bir tələbdir.

93 Media reyestrinə daxil olmaq və beləliklə də, qanuni olaraq jurnalist kimi tanınmaq üçün sonuncunun digər məsələlərlə yanaşı, tam ali təhsili, media ilə əlaqəli üç illik iş və ya elmi təcrübəsi olması, qeydiyyatdan keçmiş media orqanında işləməsi və ya fərdi sahibkar kimi qeydiyyatda olması, cinayət məsuliyyətinin olmaması və peşə etikası kodeksinə riayət etməsi tələb olunur. KIV haqqında qanun KİV-ə öz jurnalistlərinin Media Reyestrinə daxil edilməsini tələb etmək hüququ versməklə bərabər, bunu məcbur tələb kimi təsbit etməsə belə, yalnız reyestrə daxil edilmiş şəxslər dövlət qurumlarında akkreditasiya almaq və "məlumatı axtarmaq, dərc etmək və yaymaq üçün dövlət qurumlarına daxil olmaq hüququna malikdirlər". MSHBP-yə 34 saylı Ümumi Şərhin 44-cü bəndində qeyd olunur ki, "Jurnalistlərin dövlət qeydiyyatı və ya lisenziyalaşdırılması sistemləri İfadə Azadlığı ilə bir araya sığmır". Həmin sənəddə daha sonra qeyd olunur ki, "məhdud akkreditasiya sxemlərinə yalnız jurnalistlərin müəyyən yerlərə və/yaxud tədbirlərə imtiyazlı girişini təmin etmək üçün zəruri hallarda icazə verilir". 1991-ci il ATƏT-in Moskva Sənədinin 26.2-ci bəndi iştirakçı dövlətləri "məlumat, material və obyektlərə çıxış imkanları baxımından müstəqil mediaya qarşı ayrı-seçkilik etməməyi" öhdəsinə götürür.

94 Qanunun qəbulu zamanı artıq yaradılmış çap və onlayn media orqanları altı ay ərzində MİA-da qeydiyyatdan keçməli idi. Son tarixdən sonra MİA qeydiyyatdan keçməyən media orqanları bağlamağa başladı. IREX tərəfindən hazırlanmış 2023 Canlı İnformasiya Barometrində qeyd olunub ki, "Qanun nəticəsində 40 KİV-in akkreditasiyası rədd edilib və 20 jurnalistin vəsiqələrinə xitam verilib". Fəaliyyəti dayandırılmış nəşrlərdən biri olan regional *Mingəçevir işıqları* saytı məhkəmədə onun MİA tərəfindən qeydiyyata alınmamasına etiraz edərək, şəhərlərindəki məlumatların miqdarının gündəlik 20 orijinal xəbər yaratmaq üçün kifayət etmədiyini iddia edib. Fevralın 17-də Şəki İnzibati Məhkəməsi şikayəti təmin etməyib, *Mingəçevir işıqları* isə Ali Məhkəməyə müraciət edib.

95 44 media orqanı ödənişli vaxt və ya məkan təklif etsə də, məlumatlara görə, kampaniyanın büdcəsi məhdud olduğu üçün kampaniya iştirakçıları bunlardan məhdud sayda və əsasən onlayn mediadan istifadə ediblər.

*Seçki dövründə media plüralizmi prinsipini qorumaq üçün seçicilərə fərqli fikirlərlə tanış olmaq imkanı verilməli, seçkilərlə bağlı redaksiya proqramları məhdudlaşdırılmamalı və qadağan olunmamalı, dövlət televiziyasına öz xəbərlərində seçki kampaniyasını işıqlandırmaq imkanı verilməlidir.*

Nə Audiovizual Şuranın, nə də MİA-nın seçki məsələlərində heç bir səlahiyyəti yoxdur. KİV-in qanunvericiliyə uyğunluğuna MSK-nın KİV üzrə İşçi Qrupu nəzarət edib. Qrup MSK tərəfindən irəli sürülən 4 və əsas KİV-ləri təmsil edən 15 üzvdən ibarət idi. Qrup DTİHB SMM-in müşahidə etdiyi kampaniya zamanı yalnız bir görüş keçirib və bu görüş MSK üzvlərinin media nümayəndələrinin qanunvericiliklə bağlı verdiyi sualları cavablandırmasına həsr olunub.

## C. MEDİA MONİTORİNQİN MÜŞAHİDƏLƏRİ

ƏTRAFLI MƏLUMATLARA KEÇİN

Təşviqat kampaniyanın nominal işıqlandırılması seçki prosesinin geniş işıqlandırılmasının kölgəsində qaldı və xüsusi diqqət geri alınmış ərazilərdə seçkilərə hazırlığa yönəldi.[96] Hazırki Prezidentin sosial proqramlara vəsaitin ayrılması ilə bağlı sərəncamlar imzalaması, bölgələrə səfərləri, xarici qonaqları qəbul etməsi və ya ümumilikdə ölkənin ərazi bütövlüyünün bərpasında rolunun təntənəli şəkildə geniş işıqlandırılması ona digər kampaniya iştirakçılara münasibətdə üstünlük qazandırıb.

Seçki Məcəlləsinə uyğun olaraq, *İTV* kampaniya iştirakçıları üçün əsas platforma rolunu oynayan praym-taymda yayımlanan 10 bir saatlıq birgə televiziya dəyirmi masası şəklində ödənişsiz vaxt ayırıb.[97] Bu proqramlarda namizədlər və ya onların müvəkkilləri püşkatmanın müəyyən etdiyi qaydada növbə ilə əvvəlcədən razılaşdırılmış mövzular üzrə öz fikirlərini təqdim edirdilər, lakin öz aralarında son dərəcə məhdud müzakirələr imkanı olub. Bir dairmi masa istisna olmaqla, bütün namizədlər şəxsən iştirak edib. Yeganə istisna isə bütün sözügedən verilişlərdə müvəkkili ilə təmsil olunan hazırki prezidentdən idi ki, bu da seçicilər üçün belə proqramların dəyərini aşağı salmışdı.

Rəsmi təşviqat dövründə *AzTV, ARB TV, ATV, İTV* və *Xezer TV* bütün kampaniya iştirakçılarına praym-taymda cəmi iki dəqiqədən az vaxt ayırıblar. *Real TV* xəbər kanalı da ümumilikdə təşviqat kampaniyası zamanı namizədlərə az yer ayırsa da, kampaniyanın son günündə yayımlanan axşam xəbərlərində hər bir namizəd haqqında qısa məlumat təqdim edib. Eyni zamanda, *AzTV, ATV, Real TV* və *Xəzər TV* hazırki Prezidentin gündəlik rəsmi fəaliyyətini işıqlandırmaqla onun haqqında ümumilikdə altı saatdan çox geniş həcmli müsbət xarakterli xəbərlər yayıb. *İctimai İTV* və özəl *ARB TV* xəbərlərdə hazırki Prezidentin işıqlandırılmasını məhdudlaşdırmaq üçün açıq-aşkar səy göstərmişdirlər.

Prezidentin gündəlik fəaliyyəti işıqlandırılsa da, bu digər yayımçılarla müqayisədə əhəmiyyətli dərəcədə az idi. Təşviqat dövründə və sükût günündə *AzTV, ATV* və *Xezer TV* öz reklam seqmentlərinə ölkə ərazisi suverenliyinin bərpasında hərbçilərin və hazırki Prezidentin rolunu yüksək qiymətləndirən 30-60 saniyəlik öz istehsalı olan qısa video çarxlar yayımlayıb. Eynilə, *ARB TV* də onların xidmətlərinə diqqət yetirmək üçün başlığını və ardıcıllığını uyğunlaşdırmışdı.

Monitorinqi aparılan onlayn medianın işıqlandırdığı mövzular əsasən yayım mediasının mövzularını təkrar edirdi. *APA*, *Azərtac*, *Qafqazinfo*, *Report* və *Trend* Prezident vəzifəsində olan şəxsə əhəmiyyətli dərəcədə müsbət tonlu vaxt ayırıb, eyni zamanda, qalan altı iştirakçıya aid çox məhdud məlumat yayıb. APA Qüdrət Həsənquliyevin təşviqat fəaliyyətini işıqlandırsa da, bütün bunlar ödənilişli əsasda olub.

---

96 Rəsmi təşviqat dövründə DTİHB SMM aşağıdakı televiziyaların *İTV* (ictimai), *AzTV (dövlət), ARB, ATV, Real TV* və *Xəzər TV-nin* praym-taymının sistemli media monitorinqini həyata keçirmişdir. DTİHB SMM həmçinin *apa.az, azertag.az, qafqazinfo.az, report.az, trend.az, turan.az* saytlarının xəbərlərin işıqlandırılmasının monitorinqini aparıb.

97 İTV, həmçinin əksər namizədlərin müvəkkil şəxsləri ilə təmsil olunduğu əsas radio kanalında doqquz belə proqram təşkil edib. Bundan əlavə, dövlətə məxsus dörd milli qəzet bütün namizədlərə pulsuz yer ayırıb.

*Turan* da hazırki prezidentin fəaliyyətini əhəmiyyətli dərəcədə işıqlandırsa da, bunu əsasən faktiki və tənqidi tonda edib.

Bütövlükdə, *İTV*-də pulsuz təqdimatlar, praym-taymda birgə dairmi masalar və bir neçə ödənişli siyasi reklamlar istisna olmaqla, bütün kampaniya ərzində təbliğat-təşviqat iştirakçılarının mediada çox az işıqlandırılması seçicilərə kampaniya iştirakçıları və onların proqramları haqqında məlumat almağa imkan vermədi və onların məlumatlı seçim etmək imkanını məhdudlaşdırdı. Hazırki Prezident və Hökumət haqqında tənqidi məlumatların demək olar ki, tamamilə olmaması ilə birlikdə qeyd olunan yayım təcrübəsi kampaniyanın rəqabətsiz mahiyyətini daha da qabarıq nümayiş etdirirdi.

## XI. SEÇKİ MÜBAHİSƏLƏRİN HƏLLİ

Seçki hüquqlarını pozan hərəkətlərdən, hərəkətsizlikdən və qərarlardan yuxarı seçki komissiyasına və Apellyasiya Məhkəməsinə, sonuncunun qərarından isə Ali Məhkəməyə şikayət verilə bilər. Şikayət və apellyasiya şikayətləri pozuntu/qərardan və ya qərar barədə iddiaçıya məlumat verildiyi tarixdən üç gün müddətində verilməlidir. Seçki gününə qədər verilmiş şikayət və müraciətlərə üç gün müddətində aidiyyəti orqanlar tərəfindən baxılaraq qərar qəbul edilməlidir; seçki günü və ya ondan sonra daxil olan şikayət və müraciətlərə dərhal baxılmalı və qərar qəbul edilməlidir.

DTİHB və Venesiya Komissiyasının əvvəlki tövsiyələrinə baxmayaraq, qanunvericilik bazası seçki komissiyalarının tərkibi ilə bağlı həll edilməmiş struktur problemi səbəbindən şikayətlərin tam qərəzsiz orqan tərəfindən baxılmasını təmin etmir.[98] Şikayətlərə baxılması üçün MSK tərəfindən yaradılmış Ekspert Qrupu MSK üzvlərindən və əməkdaşlarından ibarətdir.[99] MSK öz iclasında yalnız bir şikayətə baxdığı halda,[100] DTİHB SMM-in müşahidələri qeyd etmişdir ki, şikayətlər MSK tərəfindən bir sıra hallarda heç bir əsaslandırma olmadan sadəcə qanunun müddəalarına istinad edilən məktublar vasitəsilə cavablandırılıb.[101] Bundan əlavə, Ekspert Qrupunun üzvləri DTİHB SMM-i məlumatlandırıblar ki, onlara seçkilərə aidiyyatı olmayan "şikayətlər" də daxil olub. Belə "şikayətlərin" bəziləri seçkilərlə bağlı şikayətləri təşkil edir, lakin tələb olunan qaydada baxılmadan qalıb.[102]

Apellyasiya Məhkəməsinə doqquz apellyasiya şikayəti daxil olub, lakin heç biri təmin olunmayıb. Onlardan dördü üzrə şikayət təmin edilməyib, beşi isə rədd edilib.[103] DTİHB SMM-in müşahidə etdiyi məhkəmə iclaslarında tərəflərə öz mövqelərini təqdim etmək imkanı yaradılıb. Lakin dinləmələrin vaxtı barədə ictimaiyyətə məlumat verilməyib.[104] Bütün qərarlar yalnız seçki günündən sonra dərc edilib.[105] Dörd apellyasiya şikayəti digər səbəblərlə bərabər, seçki komissiyalarının əvvəlcədən qərarları

---

[98] 2015-ci ildə *Qəhrəmanlı və başqaları Azərbaycana qarşı* işində AİHM qeyd edib ki, "buna görə seçkilərlə bağlı fərdi şikayətlər üzrə ekspertizanın effektivliyini artırmaq məqsədi ilə seçki komissiyalarının strukturunda islahatların aparılmasını nəzərdə tutan cavabdeh dövlətin səyləri təşviq edilməlidir." Bu günə qədər bu hökm icra olunmayıb.

[99] Bu seçkilərdə qrupun yeddi üzvü MSK üzvü, ikisi isə MSK Katibliyinin əməkdaşı idi.

[100] Şikayətdə polisin namizədin imzatoplama fəaliyyətinə mane olduğu iddia edilirdi. MSK işi prokurorluğa göndərdi, sonradan prokurorluq ərizəçinin təqdim etdiyi sübutların cinayət işinin başlanması üçün kifayət etmədiyini bildirərək onu rədd etdi.

[101] DTİHB SMM-nin iştirak etdiyi məhkəmə iclası zamanı ərizəçi məhkəməyə belə məktublardan birini göstərdi.

[102] Məsələn, MSK-nın namizədlərin sənədlərini qəbul etməkdən yayınması və imzatoplama prosesinin bayram günlərində olması ilə bağlı "şikayətlər". Bu işlərdə məhkəmələr müxtəlif formal əsaslarla, o cümlədən şikayətlərə MSK tərəfindən əvvəlcədən baxılmadığına görə şikayətləri rədd etmişlər.

[103] Apellyasiya şikayətindən 8-i Bakı Apellyasiya Məhkəməsinə, 1-i isə Sumqayıt Apellyasiya Məhkəməsinə daxil olub.

[104] DTİHB SMM Apellyasiya Məhkəməsindən və MSK-dan dinləmələr haqqında məlumat almaq üçün müraciət etdi; dinləmələr başlamazdan bir müddət əvvəl Məhkəmədən bir bildiriş alınmışdır. Müşahidə olunan digər dinləmələr üçün DTİHB SMM-ə ərizəçilər tərəfindən dinləmələr barədə məlumat verilib.

[105] Müraciət edənlər imzatoplama üçün vaxtın çox qısa olduğunu və ya onun dövlət bayramı ilə üst-üstə düşməsinin onların bu seçkidə iştirakına mane olduğu üçün imzatoplama qrafiki ilə bağlı qaldırılmışdır. Bir halda, şikayətçi hazırki prezident tərəfindən erkən təşviqat apardığını iddia edirdi.

olmamasını rəhbər tutaraq məhkəmənin mülahizəsinə əsasən inzibati vasitələrin tükənməməsi səbəbindən rədd edilib.[106] Bu yanaşma seçki komissiyaları tərəfindən iddia edilən qanun pozuntularını mahiyyəti üzrə tələb olunan qaydada nəzərdən keçirmədən, seçki inzibatçılığının xeyrinə məqbulluq tələblərindən istifadə edilməsi ilə nəticələndi.[107]

*Seçki komissiyaları ilə şikayət xarakterli bütün müraciətlərə mahiyyəti üzrə baxılmalı və şikayətçilərə qərarlardan şikayət etmək imkanı verilməlidir. Məhkəmələr tərəfindən apellyasiya şikayətlərinə baxılmasında şəffaflığın təmin və qərarların vaxtında dərc edilməsi üçün əlavə işlər görülməlidir. Məqbulluq qaydalarının tətbiqi və sübut yükünün bölüşdürülməsi iddia edilən seçki pozuntuları üçün məhkəmə vasitələrinin təmin edilməsindən yayınmaq üçün istifadə edilməməlidir.*

Bəzi apellyasiya şikayətini verən şəxslər üçün seçkilərlə bağlı məsələlər üzrə daha yuxarı instansiyaya müraciət etmək imkanı məhduddur, çünki şikayətlər Ali Məhkəməyə şikayəti yalnız Vəkillər Kollegiyasında qeydiyyatdan keçən qanuni nümayəndələr verə bilər.[108] DTİHB SMM-in bir sıra həmsöhbətləri tənqidi fikir bildirən, insan hüquqları ilə bağlı və ya siyasi cəhətdən həssas işlərə baxan hüquq mütəxəssislərinə edilən təzyiqləri, o cümlədən işdən çıxarılma və ya xaric edilmə hədəsi, intizam sanksiyaları və Vəkillər Kollegiyasında üzvlüyə qəbul olunmamasını əsas gətirərək hüquqi yardım əldə etmək imkanları ilə bağlı narahatlıqlarını bildiriblər.[109] Vəkillər Kollegiyasında qeydiyyatdan keçmək və ya qeydiyyatdan çıxmaq üçün aydın meyarların olmaması ilə birlikdə yuxarıda qeyd olunan hallar vəkillik peşəsini Vəkillər Kollegiyasının ixtiyari mülahizəsinə məruz qoyur və bu öz növbəsində ATƏT qarşısında götürülən öhdəliklərə zidd olaraq şəxslərin hüquqi yardım axtarmaq və ondan istifadə etmək hüququnu məhdudlaşdırır.[110]

*Hüquqi yardım göstərmək və almaq hüququ özbaşına qərarlardan, təsirdən və ya qərəzdən qorunmalıdır. Qanunvericilikdə hüquqşünasların qeydiyyata alınması və qeydiyyatdan çıxarılması, habelə intizam tənbehlərinin tətbiqi üçün aydın və obyektiv meyarlar yer almalıdır.*

Rəsmi qurumlar DTİHB SMM-ə "Məhkəmə sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il Prezident fərmanının icrası ilə bağlı görülən tədbirlər barədə məlumat təqdim ediblər.[111] Buna baxmayaraq, bir çox DTİHB SMM həmsöhbətləri seçki mübahisələrinin həlli sisteminə inanmadıqlarını bildirir belə ki, onlar məhkəmə müstəqilliyinin çatışmadığını hesab edir, çünki hakimiyyət orqanlarına

---

106 Məsələn, şikayətlərin əksəriyyəti ərizəçilərin şikayətləri ilə bağlı MSK ilə əlaqə saxladıqlarına dair kifayət qədər sübut təqdim etmədiklərini bildirən Məhkəmə tərəfindən rədd edildi.

107 Buraya imza toplama, erkən təşviqat və müşahidəçilərin namizədliyi ilə bağlı hallar daxildir.

108 Seçki ilə bağlı Ali Məhkəməyə verilmiş iki şikayət qanuni nümayəndə vasitəsilə verilmədiyi üçün təmin edilməyib. Hər iki halda dövlət tərəfindən vəkilin təmin edilməsi ilə bağlı vəsatət məhkəmə tərəfindən rədd edildi və bildirildi ki, ərizəçi hüquqi xidmətlərin ödənilməsi üçün kifayət qədər vəsaitinin olmadığını sübut etməyib.

109 2018-ci il Beynəlxalq Məhkəmənin Azərbaycan Vəkillər Kollegiyasına vəkillərin rolu və müstəqilliyi ilə bağlı tövsiyələrində qeyd olunur ki, "intizam tədbirləri və ya bu cür tədbirlərin tətbiqinə dair hədələr kimi xoşagəlməz nümunə davam etdirilir". Həmçinin 2020-ci il *Bağırov Azərbaycana qarşı* işinə baxın, burada Məhkəmə digər məsələlərlə yanaşı, "hüquqdan kənarlaşdırma vəkillərin müdafiəçi kimi öz vəzifələrini yerinə yetirməsinə soyuqqanlı təsir göstərə bilən sərt sanksiya kimi qiymətləndirilə bilməz." Avropa Şurasının Nazirlər Komitəsinin ictimai iştirakçılığa qarşı mühüm məhkəmə iddialarından (İİQMMİ) istifadəsinə qarşı mübarizəyə dair CM/Rec(2024)2 saylı Tövsiyəsinin 20-ci bəndində deyilir ki, "Üzv dövlətlər öz milli hüquq sistemlərinin və onların tətbiqinin İİQMMİ-lərin zərərli təsirlərinin qarşısını almaq və minimuma endirmək üçün hərtərəfli hüquqi baza və ardıcıl struktur və prosessual təminatları, eləcə də İİQMMİ-lərin vurduğu zərərlərə qarşı müdafiə vasitələri və dəstək tədbirlərinin tam dəstini təmin etmələrinə məsuliyyət daşıyır".

110 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 11.2-ci bəndi fərdin insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsində başqalarından kömək istəmək və onlardan yardım almaq, insan hüquq və əsas azadlıqlarının müdafiəsində başqalarına yardım etmək hüququnu təmin edir; 11.3-cü bənddə qeyd olunur ki, effektiv hüquqi müdafiə vasitəsi onların adından çıxış edən fərdlərin və ya qrupların insan hüquqlarının pozulması ilə bağlı iddialara dair məlumat almaq və nəzərdən keçirmək səlahiyyətinə malik beynəlxalq qurumlarla əlaqə saxlamaq hüququnu əhatə edir.

111 Digər tədbirlərə hakimlərin sosial müdafiəsinin gücləndirilməsi, məhkəmə-hüquq şurasının islahatları, əməkhaqlarının artırılması, məhkəmə qərarlarının elektron şəkildə dərc edilməsi və tərəflərin "Elektron məhkəmə" sisteminə çıxışının təmin edilməsi daxildir.

qarşı mübahisələrin həllində məhkəmə vasitələrini səmərəsizləşdirir və işlərin Avropa İnsan Hüquqları Məhkəməsinə çıxarılmasını zəruri edir.[112] Bütövlükdə seçki komissiyalarının qərəzsizliyinin olmaması, məhkəmə sisteminin müstəqilliyi və səmərəliliyi ilə bağlı uzun müddətdir mövcud olan narahatlıqlar və hüquq sahəsində çalışan mütəxəssislərə qoyulan məhdudiyyətlər 1990-cı il Kopenhagen Sənədinin 5.10-cu bəndinə zidd olaraq, effektiv hüquqi müdafiə vasitələri hüququnu pozur.[113]

## XII. VƏTƏNDAŞ VƏ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR

Qanunda vətəndaş və beynəlxalq seçki müşahidəsi nəzərdə tutulur. Akkreditasiyadan keçmək üçün maraqlı təşkilatın seçki sahəsində fəaliyyət göstərməsi tələb olunur. Akkreditasiyadan keçmiş müşahidəçilər səsvermə və səslərin hesablanması da daxil olmaqla, seçki günü proseslərini müşahidə edə bilsələr də, onlar yalnız MSK-nın icazəsi ilə komissiyanın iclaslarında iştirak edə bilərlər.[114] Komissiyanın iclaslarını müşahidə etmək icazəsi püşkatma yolu ilə verilir; lakin bu icazəyə malik təşkilatların siyahısı ictimaiyyətə açıqlanmayıb və bu, prosesin şəffaflığına mənfi təsir göstərib. Namizədlərin və siyasi partiyaların da öz müşahidəçilərini akkreditasiya etmək hüququ var.

*Vətəndaş müşahidəçilərinin bütün seçki prosesinə maneəsiz çıxışını təmin etmək üçün tədbirlər görülməlidir. Seçki gününə qədər vətəndaş qruplarının komissiyaların iclaslarında iştirak etmələri və seçki komissiyalarının işini müşahidə etmək imkanlarına qoyulan məhdudiyyətlər aradan qaldırılmalıdır.*

DTİHB SMM-in bir neçə həmsöhbəti vətəndaş cəmiyyəti üçün xaricdən maliyyələşməni məhdudlaşdıran hüquqi müddəalarla bağlı narahatlıqlarını ifadə ediblər.[115] Bundan əlavə, bəzi VCT-lər, o cümlədən əvvəllər seçkilərin müşahidəsi ilə məşğul olan təşkilatlar qeydiyyat prosesində uzun ləngimələr və ya onların qeydiyyatı və ləğvi ilə bağlı sənədlərdəki kiçik nöqsanları düzəltmək imkanının olmaması kimi inzibati maneələr barədə DTİHB SMM-ə məlumat veriblər.[116]

Hüquqi baxımdan Vətəndaş cəmiyyəti təşkilatları statusuna malik olmayan bu qrupların müşahidəçiləri fərdi qaydada akkreditasiyadan keçməyə məcbur qalıblar ki, bu da əlavə bürokratik və əməliyyat əngəlləri yaradıb.[117] Bu kimi şərtlər yerli təşkilatların müşahidə prosesini hazırlamaq və müşahidəşiləri

---

112 AİHM məsələyə yalnız bütün daxili hüquqi müdafiə vasitələri tükəndikdən sonra baxmağa başlayır.

113 ATƏT-in Kopenhagen sənədinin 5.10-cu bəndində qeyd olunur ki, "hər kəs fundamental hüquqlara hörməti və hüquqi toxunulmazlığı təmin etmək üçün inzibati qərarlara qarşı təsirli kompensasiya vasitələrinə malik olacaqdır".

114 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 8-ci bəndində deyilir ki, "iştirakçı dövlətlər hesab edirlər ki, həm xarici, həm də yerli müşahidəçilərin iştirakı seçkilərin keçirildiyi dövlətlər üçün seçki prosesini gücləndirə bilər".

115 BMT-nin sərbəst toplaşmaq və birləşmək azadlığı hüquqları üzrə Xüsusi Məruzəçisinin 2013-cü il Hesabatının 34-cü bəndində Xüsusi Məruzəçi "suverenliyin qorunması adı altında xarici maliyyələşdirməni məhdudlaşdıran və ya damğalayan" dövlətlərdən narahatlığını ifadə edib və xatırladıb ki, "iştirakçı dövlətlər hökumətlərlə eyni dərəcədə vətəndaş cəmiyyətinin malik olduğu hüquqa əsasən beynəlxalq əməkdaşlığın bir hissəsi kimi QHT-lərin xarici maliyyə vəsaitlərinə çıxışına icazə verməlidir". Avropa Şurasının Nazirlər Komitəsinin Avropada qeyri-hökumət təşkilatlarının hüquqi statusu ilə bağlı üzv dövlətlərə CM/Rec(2007)14 saylı Tövsiyəsində qeyd edilir ki, QHT-lər yalnız öz dövlətlərindəki dövlət orqanlarından deyil, həm də institusional və ya fərdi donorlardan, başqa dövlətdən və ya çoxtərəfli agentliklərdən yalnız gömrük, valyuta və çirkli pulların yuyulması və seçkilərin və siyasi partiyaların maliyyələşdirilməsinə aid olan qanunlara tabe olaraq nağd və ya natura şəklində ianələr kimi maliyyə tələb etməkdə və almaqda azad olmalıdırlar.

116 Məsələn, AİHM-in 2021-ci il Seçki Monitorinq Mərkəzi və digərləri Azərbaycana qarşı qərarında Məhkəmə qeyd edir ki, "nə Ədliyyə Nazirliyi, nə də yerli məhkəmələr iddia edilən pozuntuların aradan qaldırılmasının qeyri-mümkün olduğunu hansı səbəbdən hesab etmələrinin səbəblərini və SMM-in [Seçkilərin Monitorinqi Mərkəzi] birdəfəlik ləğvinin əsaslandırılmasını izah etməyiblər." Məhkəmə qərara almışdır ki, SMM-nin qeydiyyatının gecikdirilməsi və ləğvi ilə bağlı AİHK-nın 11-ci maddəsi pozulub. Bu günə qədər bu hökm hələ də icra olunmayıb.

117 Qeydiyyatdan keçməmiş təşkilatlar öz üzvləri adından sənədlər təqdim edə bilməzlər və hər bir potensial müşahidəçi akkreditasiyadan keçmək üçün fiziki olaraq iki dəfə müvafiq komissiyaya getməlidir. Bundan əlavə, qeydiyyatdan keçməmiş təşkilatlar komissiya iclaslarını müşahidə etmək üçün xüsusi icazə almaq və milli fondlara müraciət edə bilməzlər.

təyin etmək, habelə resurslar axtarmaq imkanını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Bununla belə, sistemdən siyasi qüvvələr tərəfindən sui-istifadə edilir və onlar xüsusən seçki günü komissiyalarda qanuni hüquqlarından daha çox müşahidəçi toplamaq üçün istifadə edirlər (bax: *Seçki günü*). DTİHB SMM-in bir sıra həmsöhbətləri müstəqil müşahidəçilər üçün məkanın daralması və hökumətə bağlı təşkilatların daha önə çıxması ilə bağlı narahatlıqlarını ifadə ediblər.[118] Bundan əlavə, bəzi həmsöhbətlər DSK səviyyəsində akkreditasiyadan keçmiş, sonradan isə hüquq-mühafizə orqanları tərəfindən dəvət olunan və seçkiləri müşahidə etməmək xahişi kimi müşahidəçilərə təzyiq halları barədə məlumat veriblər.

*Müşahidə üçün hüquqi və inzibati maneələr müşahidənin bütövlüyünü qorumaq üçün vacib olan tədbirlərlə məhdudlaşdırılmalıdır. Akkreditasiya prosesi ixtiyari qərarlara yol verməməli və icrası tənqidi müstəqil təşkilatların ayrı-seçkiliyindən uzaq olmalıdır.*
MSK və DSK-lar tərəfindən akkreditə olunmuş 88,000 yerli müşahidəçinin 51 faizi namizədlərin nümayəndələri, 42 faizi fərdi müşahidəçilər, 6 faizi isə qeyri-hökumət təşkilatları tərəfindən irəli sürülüb.

## XIII. SEÇKİ GÜNÜ

Seçki günü sakit və bütövlükdə intizamlı keçib. Posterlərin çıxarılması tələblərinə baxmayaraq, BSMM müşahidəçiləri seçki məntəqələrinin təxminən 8 faizinin yaxınlığında təşviqat materiallarını müşahidə ediblər. Seçki günü ərzində MSK seçici fəallığı da daxil olmaqla, səsvermə ilə bağlı ən son məlumatları paylaşıb. MSK fevralın 8-də səhər tezdən seçki məntəqələrinin ilkin nəticələrini dərc etməyə başlayıb. Ümumilikdə, BSMM-nin müşahidə etdiyi MnSK üzvlərinin 52 faizini, o cümlədən sədrlərin 39 faizini qadınlar təşkil etmişdir. MSK ilkin seçici fəallığının 76,7 faizə bərabər olduğunu elan edib.

### A. AÇILIŞ VƏ SƏSVERMƏ

Ümumilikdə müşahidə edilən bütün seçki məntəqələri vaxtında və ya bir qədər gecikmə ilə açılıb. BSMM müşahidəçiləri müşahidə olunan 132 seçki məntəqəsindən 20-də açılış prosesini mənfi qiymətləndiriblər. Bu, ilk növbədə, seçki pozuntularına qarşı mühüm təminat olan məcburi prosedurlara riayət edilməməsi ilə bağlı idi. Müşahidə olunan 37 məntəqədə ayrılan seçki bülletenlərinin sayı hesablanmayıb, 46-da müvafiq şəkildə qeydə alınmayıb, 35 MnSK-da isə QÇV-lər hesablanmayıb və ləğv edilməyib, 34 halda isə seçki qutuları möhürlərinin seriya nömrələri elan olunmayıb və protokol layihəsində əks olunmayıb. Müşahidəsi aparılan məntəqələrin beşdə birində MnSK üzvlərinin tələb olunan prosedurlardan tam məlumatlı olmadığı ortaya çıxıb. BSMM müşahidəçiləri izdihamın həddən artıq olması hallarına və 12 MnSK-də açılış prosedurlarına aydın və məhdudiyyətsiz baxmaq mümkün olmadığına dair məlumat verib.

Səsvermə ümumilikdə nizamlı və rəvan keçib. Bununla bərabər, səsvermə proseduru müşahidəsi aparılan 1226 seçki məntəqəsinin 7,7 faizində BSMM müşahidəçiləri tərəfindən mənfi qiymətləndirilib ki, bu da ciddi göstəricidir və əsaslı narahatlıq doğurur. Əhəmiyyətli prosedur çatışmazlıqlarını göstərən mənfi qiymətləndirmələrin sayı əsasən səsvermənin məxfiliyi və təkrar səsvermə hallarına qarşı mühüm təminatların gözlənilməməsi ilə bağlı idi; məsələn, 11 faiz məntəqələrdə seçicilərin barmaqları mürəkkəblə ardıcıl şəkildə işarələnməyib və 16 faiz halda isə mürəkkəbin izi yoxlanılmayıb. Seçki günü bir sıra seçicilər əlavə seçici siyahısına daxil edilib (bax *Seçici qeydiyyatı*).

118 Vətəndaş Təşkilatları tərəfindən Tərəfsiz Seçkilərin Müşahidəsinin və Monitorinqinin Qlobal Prinsipləri haqqında Bəyannamənin 8-ci bəndində deyilir ki, "İstənilən şəxsin seçki müşahidəsi və monitorinq fəaliyyəti ayrı-seçkilikdən kənar, qərəzsiz dəqiq və vaxtında həyata keçirməsinə mane olacaq hər hansı siyasi, iqtisadi və ya digər maraqlar toqquşmasından azad olmadıqda, onlara tərəfsiz vətəndaş seçki müşahidəçisi və ya müşahidəçisi olmasına icazə verilməməlidir".

Müşahidələrin dörddə birində səsvermənin məxfiliyi pozulmuşdur ki, buna da səbəb 7 faiz hallarda seçicilərin səsvermə bülletenini gizli şəkildə işarələməməsi, 17 faiz halda isə məxfiliyi qoruyacaq şəkildə bükməməsi olmuşdur. Müşahidə olunan seçki məntəqələrinin 11 faizində namizədlərin, partiyaların və vətəndaş müşahidəçilərinin sayının çox olması səbəbindən izdiham qeydə alınıb. Əlilliyi olan şəxslərin səsvermə prosesinə çıxışını asanlaşdıran tədbirlərə baxmayaraq, müşahidə edilən seçki məntəqələrinin 73 fazində müstəqil əlçatımlıq təmin olunmayıb və 37 faizində MnSK-nın quruluşu əlilliyi olan insanlar üçün əlverişli olmayıb.

*Hakimiyyət orqanları əlilliyi olan şəxslər təşkilatları ilə məsləhətləşərək, əlilliyi olan şəxslərin seçki prosesində tam və bərabər iştirakını təmin, məlumatları əlçatan formatlarda dərc, seçki günü ərzində seçki məntəqələrinə müstəqil girişi və əlilliyi olan seçicilərin səsvermə sirrinə əməl olunmasını təmin etmək üçün əlavə səylər göstərməlidir.*

BSMM müşahidəçiləri bir sıra ciddi pozuntuların əlamətlərini, o cümlədən seçki qutularına bülletenlərin topa atılması (29 seçki məntəqəsi), müşahidələrin 5 faizində seçici siyahılarında oxşar imzaların, 4 faizində isə qrup səsverməsinin olduğuna dair məlumat veriblər. Müşahidə olunan seçki məntəqələrinin təxminən 4 faizində seçki qutuları düzgün möhürlənməmişdir. Qeyd edilən bu pozuntulara baxmayaraq, MSK DTİHB SMM-ə məlumat verdi ki, müşahidəsi aparılan heç bir seçki məntəqəsindən rəsmi şikayətlər daxil olmayıb.[119]

Müşahidəsi aparılan seçki məntəqələrinin böyük əksəriyyətində namizədlərin və partiyaların təyin etdiyi müşahidəçilər, məntəqələrin yarısında isə məşvərətçi hüquqlu MnSK üzvləri iştirak edib. Hər iki kateqoriya əsasən YAP-ı təmsil edirdi (müvafiq olaraq 81 və 78 faiz). Müşahidə olunan seçki məntəqələrinin 81 faizində vətəndaş müşahidəçiləri iştirak edib. Bununla belə, BSMM məntəqədə olan müşahidəçilərin onları təhkim edən təşkilatla bağlı məlumatsız olmasının, vətəndaş müşahidəçisi kimi qeydə alınmış şəxslərin 14 faizinin reallıqda partiyaları və ya namizədləri, 9 faiz halda isə partiya və namizəd müşahidəçilərin digər bir namizədin maraqlarını təmsil etməsinin şahidi olub. Məntəqələrin 5 faizində icazəsiz şəxslər müşahidə olunub, lakin ümumilikdə onlar məntəqə seçki komissiyalarının işinə müdaxilə etməyib.

Əsasən məntəqələrdəki seçici sayına və məntəqənin quruluşuna görə müşahidəsi aparılan seçki məntəqələrinin 10 faizində səsvermə prosedurlarını asanlıqda müşahidə etmək mümkün deyildi. BSMM müşahidəçiləri müşahidələrin 4 faizində səsvermə prosedurlarını məhdudiyyətsiz müşahidə edə bilməyiblər. Bir neçə müstəqil media qurumu DTİHB SMM-i məlumatlandırıb ki, müvafiq media qurumları tərəfindən verilmiş etibarlı vəsiqənin olmasına baxmayaraq, onların jurnalistlərinə bəzi seçki məntəqələrinə daxil olmağa imkan verilməyib.[120] Bütün bu hallar birlikdə prosesin şəffaflığına mənfi təsir göstərib.

## B. BAĞLANIŞ VƏ SƏSLƏRIN HESABLANMASI

1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 7.4-cü bəndinə uyğun olaraq seçki bülletenlərinin sayılıb-saxlanılmaması və dürüst şəkildə təqdim edilib-edilməməsi ilə bağlı ciddi suallar doğuran əhəmiyyətli prosedur səhvləri və nöqsanları və seçki qutusuna bülletenlərin topa şəklində atılması əlamətləri səbəbindən səslərin sayılması məqsədilə müşahidəsi aparılan 113 məntəqənin çoxunda (61) sayım prosesi mənfi qiymətləndirilib.[121] Verilən səslərin hesablanması və qeydə alınması zamanı yalnışlıqlardan qorunmaq üçün rəqəmlərin çarpaz yoxlanılması kimi prosedur icra olunmayıb. Müşahidəsi aparılan məntəqələrin demək olar ki, yarısında (52) seçici siyahılarındakı imzalar

---

119 Seçki günü BSMM müşahidəçiləri seçki məntəqələri səviyyəsində 56 şikayətin daxil olduğunu bildiriblər.

120 Seçki günü Media İnkişafı Agentliyi bəyanat yayıb ki, jurnalistlər seçki məntəqələrinə maneəsiz daxil olmalıdırlar.

121 1990-cı il ATƏT-in Kopenhagen Sənədinin 7.4-cü bəndində deyilir ki, iştirakçı dövlətlər “səslərin gizli səsvermə yolu ilə və ya bərabər sərbəst səsvermə proseduru ilə verilməsini və onların düzgün hesablanmasını və dərc olunmasını təmin edəcəklər”.

hesablanmayıb, 107 məntəqədən 37-də isə komissiya səyyar səsvermə üçün müraciətlərin sayını müəyyən etməyib. Bu kimi hallar qutulara atılan seçki bülletenlərinin sayının seçici siyahılarını imzalamış seçicilərin sayı ilə düzgün tutuşdurulmasının qarşısını alıb. Müşahidəsi aparılan məntəqələrin təxminən beşdə üçü (68) protokol layihəsində qeyd olunan rəqəmləri açıqlamayıblar.

Qutular açıldıqdan sonra BSMM müşahidəçiləri 13 halda seçki qutularına topa bülleten, o cümlədən bülletenlərin dəstə şəklində atılması əlamətlərini qeyd ediblər. Bundan əlavə, 12 halda isə seçki qutusunda olan bülletenlərin sayı səs verən seçicilərin sayından çox olub. Bir çox seçki məntəqələrində BSMM müşahidəçiləri hətta xahiş etsələr belə, onlara seçici siyahısına baxmağa icazə verilməyib. Seçici siyahısına vizual baxışa icazə verilən seçki məntəqələrində BSMM müşahidəçiləri ardıcıl olaraq seçki heyəti tərəfindən verilən məlumatlar, qutulardakı bülletenlərin sayı və seçici siyahılarında müşahidə edilən imzaların sayı arasında uyğunsuzluqları qeyd ediblər. Müşahidəsi aparılan 34 məntəqədə seçki qutusunda olan bülletenlərin sayı müəyyən edilməyib və protokol layihəsinə yazılmayıb. 15 halda BSMM müşahidəçiləri seçici siyahılarının, nəticələrin və ya protokolların qəsdən saxtalaşdırılmasının əlamətlərini qeyd ediblər. Müşahidə edilən seçki məntəqələrinin dörddə birində bülletenlərin etibarlılığı əsaslı və ya ardıcıl şəkildə müəyyən edilməyib (müvafiq olaraq 26 və 22 hal). Bundan əlavə, müşahidəsi aparılan məntəqələrin böyük əksəriyyətində (72) mübahisəli bülletenlərin etibarlılığına dair qərar komissiya üzvlərinin səsverməsi yolu ilə həll edilməyib. MSK DTİHB SMM-ə məlumat verib ki, səslərin sayılması müşahidə edilən seçki məntəqəlrinin heç birindən rəsmi şikayət qeydə alınmayıb.[122]

BSMM müşahidəçiləri bildiriblər ki, müşahidəsi aparılan məntəqələrin təxminən yarısında (53) səslərin sayılmasının şəffaflığı pozulub, 36 halda müşahidəçilərin heç də hamısı bülletendəki seçici qeydlərini aydın görə bilməyib və 29-da halda isə heç də bütün müşahidəçiləri hesablama prosedurlarını izləyə bilməyiblər. Müşahidəsi aparılan məntəqələrin beşdə birində (26) BSMM müşahidəçiləri səslərin sayılması prosedurlarını məhdudiyyətsiz müşahidə edə bilməyib, 21 halda MnSK BSMM ilə tam əməkdaşlıq nümayiş etdirməyib və bir neçə halda protokolların doldurulması prosesi başlaması səbəbi ilə BSMM müşahidəçilərindən seçki məntəqəsinin binasını tərk etmələri tələb olunub. Müşahidəsi aparılan məntəqələrin 25-də komissiya üzvləri tərəfindən uzun fasilələr verilib və 9 halda bu fasilələr zamanı materiallar müşahidəçilərin və nümayəndələrin tam nəzərində qalmayıb. Protokolun surəti müşahidəsi aparılan seçki məntəqələrinin yarısından azında (43) müvafiq qaydada dərc edilib.

## C. Səslərin hesablanması və nəticələrin elən olunması

BSMM müşahidəsini apardığı 89 DSK-dan 81-də cədvəllərin tərtib edilməsi prosesini müsbət qiymətləndirib. Müşahidə olunan 26 DSK-da vətəndaş və namizəd və ya partiya müşahidəçiləri iştirak edib. Mənfi qiymətləndirmələr əsasən protokolların və digər materialların qəbulunun zəif təşkili, kifayət qədər yerin olmaması və prosedurlara ardıcıl əməl olunmaması, eləcə də müşahidəçilərin prosedurlar haqqında aydın təsəvvürə malik olmaması ilə bağlı olub. Dörd DSK-da, o cümlədən kompüter sisteminin müvəqqəti nasazlığı səbəbindən BSMM-nin cədvəllə tanış olması üçün imkan yaradılmayıb.[123] Müşahidə olunan 26 DSK-da vətəndaş, namizəd və ya partiya müşahidəçiləri iştirak ediblər.

BSMM müşahidəçiləri 40 halda DSK sədrlərinin kompüterdə yazılanları elan etmədiklərini, 15 halda isə məntəqə seçki komissiyalarının sədrlərinin protokolun üç sürətini imzalamadıqlarını müşahidə ediblər. Bundan əlavə, 14 halda MnSK üzvləri ya protokol rəqəmlərini dəyişdirilib, ya da öz protokollarını DSK-nın binasında doldurublar. 21 halda isə MnSK-nın məlumatları cədvəllərə daxil edilərkən MnSK sədrləri prosesdə iştirak etməyiblər.

---

122 Seçki günü BSMM müşahidəçiləri səslərin hesablanması zamanı məntəqə səviyyəsində 7 şikayətin daxil olduğunu bildirdilər.

123 Dörd DSK-sı Səbail, Suraxanı, Xəzər və Zərdab-Kürdəmir-Ucarda yerləşirdi.

*Səslərin sayılması və nəticələrin protokollaşdırılması prosesinin şəffaflığını və düzgünlüyünü artırmaq, nəticələrin düzgünlüyünə ictimaiyyətdə inam yaratmaq üçün təsirli tədbirlər görülməlidir. Məntəqə və dairə seçki komissiyalarının üzvləri prosedurlara aydın və ardıcıl, vaxtında, fasiləsiz və müşahidəçilərin gözü qarşısında əməl etməlidirlər.*

Fevralın 11-də MSK ilkin yekun nəticələri elan etmək üçün iclas keçirib və yekun nəticələrin protokolunu imzalayıb. Eyni zamanda 11 MnSK-nın nəticələri pozuntulara görə ləğv edilib və nəticədə müvafiq DSK-ların göstərəciləri yekun protokollardan çıxarılıb. Həm MSK, həm də Prokurorluq DTİHB SMM-i məlumatlandırıb ki, onlara seçki günü prosedurları ilə bağlı heç bir şikayət daxil olmayıb. Fevralın 13-də Konstitusiya Məhkəməsi nəticələri təsdiqləyib. Uğur qazana bilməyən altı namizədin hər biri seçkinin növbəti günü Prezidenti təbrik edib. AXCP və *Müsavat* rəqib namizədlərin olmamasını və seçki pozuntularını əsas gətirərək seçkini pisləyiblər.[124] Fevralın 14-də Prezident, səksən dəqiqəlik inaqurasiya nitqinin əsas diqqətini YAP-ın seçki kampaniyası zamanı rəhbər tutduğu hərbi uğurlar və bərpa edilmiş ərazilərin yenidən qurulması mövzularına həsr etdi.[ß125]

## XIV. TÖVSİYYƏLƏR

Hazırki mətndə əks olunan tövsiyələr Azərbaycanda seçkilərin keçirilməsini daha da təkmilləşdirmək və onların ATƏT qarşısında götürülən öhdəliklərə və demokratik seçkilərlə bağlı digər beynəlxalq öhdəliklərə və standartlara tam uyğunlaşdırılması səylərini dəstəkləmək məqsədilə təklif olunur. Bu tövsiyələr DTİHB-nin keçmiş tövsiyələri ilə birlikdə oxunmalıdır. DTİHB Azərbaycan hakimiyyətinə seçki prosesini daha da təkmilləşdirmək və bu və əvvəlki hesabatlarda əks olunmuş tövsiyələri yerinə yetirmək üçün yardım etməyə hazırdır.[126]

### A. PRIORITET TÖVSIYƏLƏR

1. Canlı siyasi alternativlərlə nəticələnən rəqabətli siyasi mühit demokratik proses üçün fövqəl əhəmiyyətlidir. Hakimiyyət əsas azadlıqlara tam hörmət nümayiş etdirməli və potensial namizədləri və seçki iştirakçılarını təzyiq və ya hədə-qorxuya məruz qalmadan öz siyasi platformalarını təşviq etmək və ictimai işlərlə bağlı müzakirələr aparmağa imkan verən şəraitlə təmin etməlidir. Təzyiq və ya hədə-qorxu halları və iddiaları müvafiq orqanlar tərəfindən operativ şəkildə araşdırılmalı və təqsirkarlar əməllərinə görə məsuliyyətə cəlb edilməlidirlər.

2. Beynəlxalq insan hüquqları öhdəliklərinə əməl olunmasını təmin etmək üçün qanunvericilik bazasına yenidən baxılması və sonradan tətbiqi həmişə əsas azadlıqların təcrübədə səmərəli şəkildə həyata keçirilməsini təmin etmək və özbaşınalıqdan qorunmaq üçün həyata keçirilməlidir. Düzəlişlər növbəti seçkilərdən xeyli əvvəl ictimaiyyətin inklüziv və effektiv iştirakını təmin edən məsləhətləşmə prosesi vasitəsilə edilməlidir.

3. Siyasi partiyaların qeydiyyatı ilə bağlı qanunvericilik tələbləri və inzibati prosedurlar plüralizmə və birləşmək azadlığına hörmət və onu təşviq etmək məqsədilə hərtərəfli şəkildə yenidən

---

124 AXCP və *Müsavatın* bəyanatına buradan baxın.
125 Prezidentin çıxışına burada baxın.
126 1999-cu il ATƏT-in İstanbul Sənədinin 25-ci bəndində ATƏT-ə üzv dövlətlər “DTİHB-nin seçki qiymətləndirməsini və tövsiyələrini dərhal izləmək” öhdəliyini götürmüşlər. Əvvəlki tövsiyələrin yerinə yetirilməsi DTİHB SMM tərəfindən aşağıdakı kimi qiymətləndirilir: DTİHB-nin 2018-ci il növbədənkənar prezident seçkiləri üzrə yekun hesabatından 13 saylı tövsiyə (2018-ci ilin Yekun Hesabatı) və DTİHB-nin 2020-ci il növbədənkənar parlament seçkiləri üzrə yekun hesabatından 11 və 20-ci tövsiyələr (əsasən, 2020-ci ilin Yekun Hesabatı) qismən icra olunub. 2018-ci ilin Yekun Hesabatından 11, 12 və 14 və 2020-ci ilin Yekun Hesabatından 13 saylı tövsiyələr qismən yerinə yetirilib. Həmçinin DTİHB-nin seçki tövsiyələri bazasına baxın.

nəzərdən keçirilməlidir. Siyasi partiyaların qeydiyyatı yalnız obyektiv və şəffaf meyarlar əsasında aparılmalı və məhkəmə yolu ilə təmin edilməlidir.

4. "KİV haqqında" qanun ifadə azadlığına dair beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə əsaslı şəkildə yenidən baxılmalıdır. Xüsusilə, KİV-lərin, o cümlədən xarici vətəndaşlar və hüquqi şəxslər tərəfindən yaradılması, qeydiyyatı və maliyyələşdirilməsinə qoyulan sərt məhdudiyyətlərə, habelə jurnalistlərin dövlət tərəfindən idarə olunan qeydiyyat və lisenziya sisteminə yenidən baxılmalıdır.

5. İctimaiyyət tərəfindən fəaliyyətinə geniş inamı təmin etmək üçün qərəzsizliyi və seçki inzibatçılığının səmərəli müstəqilliyini gücləndirmək məqsədilə istənilən siyasi partiyanın üstünlük təşkil etməsinin qarşısını almaq üçün bütün səviyyələrdə seçki komissiyalarının üzvlərinin təyin edilməsi prosesinə yenidən baxılmalıdır. Komissiyalar qərəzsizlik və siyasi neytrallıq anlayışını dəstəkləyəcək şəkildə qərarlar qəbul edən kollegial orqan kimi fəaliyyət göstərməlidir.

6. Müşahidə sahəsində hüquqi və inzibati maneələr müşahidənin bütövlüyünü təmin etmək üçün həqiqətən zəruri olanlarla məhdudlaşdırılmalıdır. Akkreditasiya prosesi ixtiyari qərarlara yol verməməli və icrası tənqidi müstəqil təşkilatların ayrı-seçkiliyindən uzaq olmalıdır.

7. Səslərin hesablanması və protokollaşdırılması prosesinin şəffaflığını və bütövlüyünü artırmaq və nəticələrin düzgünlüyünə ictimai inamı artırmaq üçün təsirli tədbirlər görülməlidir. Məntəqə və dairə seçki komissiyalarının üzvləri prosedurlara aydın və ardıcıl, vaxtında, fasiləsiz və müşahidəçilərin gözü qarşısında əməl etməlidirlər.

8. Qadınların ictimai və siyasi həyatda, o cümlədən yüksək və qərar qəbuletmə səviyyələrində tam və bərabər iştirakı hərtərəfli hüquqi, institusional və maarifləndirici təşəbbüslər vasitəsilə asanlaşdırılmalıdır.

## B. DIGƏR TÖVSIYƏLƏR

### Seçkilərin idarə edilməsi

7. Seçki idarəçiliyinin bütün səviyyələrində qadınların müəyyən edilməsi və namizədliyinin irəli sürülməsi, habelə qərarvermə rollarında bərabər iştirakını təmin etmək məqsədilə qanuni tələblərin və səylərin tətbiqi yolu ilə qadınların bərabər iştirakı üçün tədbirlər görülməlidir.

8. Şəffaflığı və hesabatlılığı artırmaq üçün seçki komissiyaları bütün əsaslı işləri açıq şəkildə aparmalı və maraqlı tərəflərin iştirakını asanlaşdırmaq üçün aşağı səviyyəli komissiyaların iclasları əvvəlcədən elan edilməlidir. İclasların gündəliyi və protokolları vaxtında dərc edilməlidir.

9. Hakimiyyət orqanları əlilliyi olan şəxslər təşkilatları ilə məsləhətləşərək, əlilliyi olan şəxslərin seçki prosesində tam və bərabər iştirakını təmin, məlumatları əlçatan formatlarda dərc, seçki günü ərzində seçki məntəqələrinə müstəqil girişi və əlilliyi olan seçicilərin səsvermə sirrinə əməl olunmasını təmin etmək üçün əlavə səylər göstərməlidir.

### Seçici qeydiyyatı

10. Qanunvericilik bazası əqli və ya psixososial əlillik səbəbindən seçki hüquqlarına qoyulan hər hansı məhdudiyyəti aradan qaldırmaqla beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

11. Bütün seçicilərin aktiv seçki hüquqlarını təmin etmək və seçicilərin reyestrinə ictimai etimadı artırmaq üçün seçki idarəetmə orqanları seçicilər reyestrinin dəqiqliyini və əhatəliliyini şəffaf şəkildə təkmilləşdirməlidir.

12. Seçicilərin qeydiyyatının və səsvermə prosesinin bütövlüyünü gücləndirmək üçün səsvermə günü seçici siyahısına əlavələr təkrar səsverməyə qarşı effektiv təminatlarla məhkəmə qaydasında aparılmalıdır.

**Partiya və Namizədlərin Qeydiyyatı**

13. Yaşayış yeri, ikili vətəndaşlığa və təhsilə görə namizədliyə qoyulan məhdudiyyətlər qüvvədə olan standartlara uyğun olaraq nəzərdən keçirilməlidir.
14. Seçki prosesində plüralizmi və birləşmək azadlığını daha da inkişaf etdirmək üçün yalnız bir namizədin müdafiəsi üçün imzaya qoyulan məhdudiyyətin aradan qaldırılmasına diqqət yetirilməlidir.

15. Namizədlərin qeydiyyatı üçün imzaların toplanması məqsədilə kifayət qədər vaxtın təmin edilməsi və imzanın yoxlanılması prosesinin aydın, obyektiv və şəffaf olmasını təmin etmək üçün qanunvericilik bazasına düzəlişlər edilməlidir.

**Təşviqat kampaniyası**

16. Beynəlxalq standartlara tam uyğun olmaq üçün qanunvericiliyə yenidən baxılmalı və seçkilər zamanı siyasi xarakterli toplaşmalar da daxil olmaqla dinc toplantılar keçirmək hüququnun mənalı şəkildə həyata keçirilməsini təmin edəcək şəkildə həyata keçirilməlidir.

17. Hakimiyyət və siyasi partiyalar dövlət sektoru işçilərini, tələbələri və digərlərini təşviqatda iştirak etməyə məcbur etməkdən çəkinməlidirlər.

18. Siyasi partiyalar qadınların bərabər siyasi inkişafına kömək etmək, seçki kampaniyaları zamanı qadınların tanınmasını artırmaq və partiya proqramlarında gender perspektivini əsaslandırmaq üçün təşviq edilməlidir. Müvəqqəti xüsusi tədbirlər kimi hakimiyyət siyasi partiyaların bu cür addımlar atması üçün stimulların tətbiqini nəzərdən keçirə bilər.

**Kampaniyanın maliyyələşdirilməsi**

19. Alınan vəsaitin mənbəyini və məbləğini aydın şəkildə göstərən kampaniyanın maliyyə hesabatları ictimaiyyətə açıq olmalıdır və kampaniyanın maliyyə hesabatlarının auditi inzibati baxımdan ixtiyari bir səlahiyyət olmamalıdır. Qanunvericilik yoxlamaların qərəzsiz və müstəqil orqan tərəfindən aparılmasını və sonradan vaxtında dərc olunmasını təmin etməlidir.

**Media**

20. İctimaiyyət üçün mövcud olan müvafiq siyasi məlumatların əhatə dairəsini genişləndirmək və fikirlər plüralizmini təşviq etmək üçün dövlət televiziyası həqiqi ictimai yayımçıya çevrilməlidir. Onların müstəqilliyini təmin etmək məqsədilə Dövlət Televiziyası olan AzTV-nin və İctimai Televiziya İTV-nin maliyyələşdirilməsi fərqli mənbələrdən olmalı və onların rəhbərliyi müstəqil qurum tərəfindən təyin edilməlidir.

21. Beynəlxalq standartlara uyğun ifadə azadlığını təmin etmək və dəstəkləmək üçün medianın hüquqi bazası nəzərdən keçirilməlidir. Böhtana və yalan olduğu məlum olan məlumatların yayılmasına görə cinayət təqibi, habelə dövlət qulluqçularının şərəfinin xüsusi mühafizəsini

təmin edən qanunlar, zədələnmiş nüfuzun bərpası üçün nəzərdə tutulmuş mülki müdafiə vasitələrinin xeyrinə tamamilə ləğv edilməlidir.

22. Beynəlxalq standartlara uyğun olaraq, internet saytları yalnız qanunda dəqiq müəyyən edilmiş obyektiv və şəffaf meyarlar əsasında bloklana bilər. Mümkün məhdudiyyətlər məzmuna xas olmalıdır, eyni zamanda bütün veb-saytlara ümumi qadağalar istifadə olunmamalıdır. Vebsayt sahibləri və geniş ictimaiyyət bu cür bloklamalar baş verdikdə məlumatlandırılmalıdır ki, onların qərarı mübahisələndirmək üçün effektiv imkanları olsun. Bloklanmış saytların reyestri ictimaiyyətə açıq olmalıdır.

23. Seçki dövründə media plüralizmi prinsipinin müdafiəsi üçün seçicilərə geniş baxış dairəsi təmin edilməli, seçkilərlə bağlı redaksiya proqramları məhdudlaşdırılmamalı və qarşısı alınmamalı, dövlət televiziyasına öz xəbərlərində seçki kampaniyasını işıqlandırmaq imkanı verilməlidir.

**Seçki Mübahisələrinin Həlli**

24. Seçki komissiyaları ilə şikayət xarakterli bütün müraciətlərə mahiyyəti üzrə baxılmalı və şikayətçilərə qərarlardan şikayət etmək imkanı verilməlidir. Məhkəmələr tərəfindən apellyasiya şikayətlərinə baxılmasında şəffaflığın təmin və qərarların vaxtında dərc edilməsi üçün əlavə işlər görülməlidir. Məqbulluq qaydalarının tətbiqi və sübut yükünün bölüşdürülməsi iddia edilən seçki pozuntuları üçün məhkəmə vasitələrinin təmin edilməsindən yayınmaq üçün istifadə edilməməlidir.

25. Hüquqi yardım göstərmək və almaq hüququ ixtiyari qərarlardan, təsirlərdən və ya qərəzli münasibətdən qorunmalıdır. Qanunvericilikdə hüquqşünasların qeydiyyatı və qeydiyyatdan çıxarılması, habelə intizam tənbehlərinin tətbiqi üçün aydın və obyektiv meyarlar yer almalıdır.

**Vətəndaş və Beynəlxalq Müşahidəçilər**

26. Vətəndaş müşahidəçilərinin bütün seçki prosesinə maneəsiz çıxışını təmin etmək üçün tədbirlər görülməlidir. Seçki gününə qədər vətəndaş qruplarının komissiyaların iclaslarında iştirak etmələri və seçki komissiyalarının işini müşahidə etmək imkanlarına qoyulan məhdudiyyətlər aradan qaldırılmalıdır.

## QOŞMA I – SEÇKİNİN YEKUN NƏTİCƏLƏRİ VƏ SEÇİCİ FƏALLIĞI[127]

| | |
|---|---|
| Qeydə alınmış seçicilərin sayı | 6,514,222 |
| Bülleten almış seçicilərin sayı | 4,978,950 |
| Əlavə seçici siyahılarına daxil edilmiş seçicilərin sayı | 35,676 |
| QÇV verilmiş seçicilərin sayı | 59,160 |
| Etibarsız səslərin sayı | 9,828 |
| Seçici fəallığı (seçicilərin ümumi sayına görə faiz) | 76.43% |

| **Namizəd** | **Aldığı səslərin sayı** | **Faiz** |
|---|---|---|
| Əliyev Fuad | 26,517 | 0.54 % |
| Əliyev İlham | 4,567,458 | 92.12 % |
| Həsənquliyev Qüdrət | 85,411 | 1.72 % |
| Musayev Elşad | 32,885 | 0.66 % |
| Mustafa Fazil | 98,421 | 1.99 % |
| Nurullayev Razi | 39,643 | 0.80 % |
| Oruc Zahid | 107,632 | 2.17 % |

[127] MSK-nın açıqladığı yekun seçki nəticələrinə əsasən məlumatlar.

## QOŞMA II – BEYNƏLXALQ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASINDAKI MÜŞAHİDƏÇİLƏRİN SİYAHISI

### ATƏT Parlament Assembleyası

| | | | |
|---|---|---|---|
| Artur | Qerasimov | Xüsusi Koordinator | Ukrayna |
| Daniela | De Ridder | Nümayəndə heyətinin rəhbəri | Almaniya |
| Martin | Engelberq | Parlament üzvü | Avstriya |
| Aksel | Kassegger | Parlament üzvü | Avstriya |
| Cerald | Loacker | Parlament üzvü | Avstriya |
| Harald | Troş | Parlament üzvü | Avstriya |
| Hamid | Hamid | Parlament üzvü | Bolqarıstan |
| İskren | Mitev | Parlament üzvü | Bolqarıstan |
| Zvonimir | Troskot | Parlament üzvü | Xorvatiya |
| Jan | Bauer | Parlament üzvü | Çex Respublikası |
| Jana | Pastuçova | Parlament üzvü | Çex Respublikası |
| Lucie | Potuçova | Parlament üzvü | Çex Respublikası |
| Jan | Rixter | Parlament üzvü | Çex Respublikası |
| Kim Aas | Kristensen | Parlament üzvü | Danimarka |
| Eduard | Odinets | Parlament üzvü | Estoniya |
| Helyo | Piksof | Parlament üzvü | Estoniya |
| Nikoloz | Samxaradze | Parlament üzvü | Gürcüstan |
| Canan | Bayram | Parlament üzvü | Almaniya |
| Tobias | Vinkler | Parlament üzvü | Almaniya |
| Maria | Antoniou | Parlament üzvü | Yunanıstan |
| Teodoros | Karaoglou | Parlament üzvü | Yunanıstan |
| Vinçenzo | Amendola | Parlament üzvü | İtaliya |
| Anna | Bilotti | Parlament üzvü | İtaliya |
| Fabritsio | Comba | Parlament üzvü | İtaliya |
| Cuzeppe | De cristofaro | Parlament üzvü | İtaliya |
| Mauro | Del Barba | Parlament üzvü | İtaliya |
| Emanuele | Loperfido | Parlament üzvü | İtaliya |
| Euxenio | Zoffili | Parlament üzvü | İtaliya |
| Yuliya | Kuçinskaya | Parlament üzvü | Qazaxıstan |
| Sultanbek | Makejanov | Parlament üzvü | Qazaxıstan |
| Zamirbek | Mamasadıkov | Parlament üzvü | Qırğızıstan |
| Liz | Braz | Parlament üzvü | Lüksemburq |
| Fernand | Etgen | Parlament üzvü | Lüksemburq |
| Claude | Haaqen | Parlament üzvü | Lüksemburq |
| Aleks | Muskat | Parlament üzvü | Malta |
| Yelena | Nedoviç | Parlament üzvü | Monteneqro |
| Slaven | Radunoviç | Parlament üzvü | Monteneqro |
| Amer | Smailoviç | Parlament üzvü | Monteneqro |
| Kari | Henriksen | Parlament üzvü | Norveç |
| Yan Tore | Sanner | Parlament üzvü | Norveç |
| İlie-Dan | Barna | Parlament üzvü | Rumıniya |
| Csabe | Konçzei | Parlament üzvü | Rumıniya |
| Kristin | Tellmann | Parlament üzvü | Rumıniya |

| | | | |
|---|---|---|---|
| Mişel | Muratori | Parlament üzvü | San Marino |
| Milimir | Vujadinoviç | Parlament üzvü | Serbiya |
| Anje | Logar | Parlament üzvü | Sloveniya |
| Tine | Novak | Parlament üzvü | Sloveniya |
| Janez | Zakelj | Parlament üzvü | Sloveniya |
| Pere Joan | Pons | Parlament üzvü | İspaniya |
| Artemi Viçent | Rallo Lombarte | Parlament üzvü | İspaniya |
| Kadir | Kasirga | Parlament üzvü | İsveç |
| Ulrik | Nilsson | Parlament üzvü | İsveç |
| Karina | Ödebrink | Parlament üzvü | İsveç |
| Selami | Altınok | Parlament üzvü | Türkiyə |
| Murat | Baybatur | Parlament üzvü | Türkiyə |
| Tekin | Bingöl | Parlament üzvü | Türkiyə |
| Kemal | Çelik | Parlament üzvü | Türkiyə |
| Halis | Dalkiliç | Parlament üzvü | Türkiyə |
| Ali | Öztunç | Parlament üzvü | Türkiyə |
| Viktoriya | Kinzburska | Parlament üzvü | Ukrayna |
| Nigel | Mills | Parlament üzvü | Böyük Britaniya |
| Kristyna | Harakova | Nümayəndə heyəti | Çex Respublikası |
| Susanna | Veevo | Nümayəndə heyəti | Estoniya |
| Stefanie | Koltçanov | Beynəlxalq Katiblik | Fransa |
| Pauline | Hennings | Beynəlxalq Katiblik | Almaniya |
| Tim | Noblau | Beynəlxalq Katiblik | Almaniya |
| Georgios | Çampuris | Nümayəndə heyəti | Yunanıstan |
| Pia | Kalifano | Nümayəndə heyəti | İtaliya |
| Stefania | Perozzi | Nümayəndə heyəti | İtaliya |
| Pia | Bisenius | Nümayəndə heyəti | Lüksemburq |
| Velimir | Djokoviç | Nümayəndə heyəti | Monteneqro |
| İva | Lakiceviç | Nümayəndə heyəti | Monteneqro |
| Daria | Boyarskaya | Beynəlxalq Katiblik | Rusiya Federasiyası |
| Anjelika | İvanişçeva | Beynəlxalq Katiblik | Rusiya Federasiyası |
| Dimitriye | Todoriç | Beynəlxalq Katiblik | Serbiya |
| Simona | De Kuitis | Nümayəndə heyəti | İsveç |
| Ecem | Danik Gökçe | Nümayəndə heyəti | Türkiyə |
| Tuğce | Okumus | Nümayəndə heyəti | Türkiyə |
| Kamil | Ucar | Nümayəndə heyəti | Türkiyə |

## DTİHB SMM Qısamüddətli Müşahidəçilər

| | | |
|---|---|---|
| Martina | Qaydos | Avstriya |
| Rainer | Ruj | Avstriya |
| Andrea | Veys | Avstriya |
| Bernard | Zimburq | Avstriya |
| Aliya | Civa | Kanada |
| Elizabet | Kinqston | Kanada |
| Con | Nsabimana | Kanada |
| Xadicə | Suleman | Kanada |

| | | |
|---|---|---|
| David | Tomas | Kanada |
| Holi | Vayt | Kanada |
| Per | Andersen | Danimarka |
| Qreta | Bil | Danimarka |
| Aske Norby | Bonde | Danimarka |
| Soeren Bo | Husum | Danimarka |
| Adam | Moeller | Danimarka |
| Birte Torp | Pedersen | Danimarka |
| Karen | Skipper | Danimarka |
| Sofia | Svensson | Danimarka |
| Tina | Kalve | Estoniya |
| Leena | Koivisto | Finlandiya |
| Reima | Larki | Finlandiya |
| Elina | Saarilahti | Finlandiya |
| Hayke | Baddenhausen | Almaniya |
| Mixael | Bollman | Almaniya |
| Aleksandra | Bumçke | Almaniya |
| Birgit | Daiber | Almaniya |
| Annika | Engels | Almaniya |
| Robert | Everharts | Almaniya |
| Torsten | Fiks | Almaniya |
| Marsel | Qeissler | Almaniya |
| Katrin | Qeyer | Almaniya |
| Jelena | Qreqorius | Almaniya |
| Yorq | Heidrix | Almaniya |
| Brijit | Heyer | Almaniya |
| Tomas | Hofman | Almaniya |
| Fabian | Yunq | Almaniya |
| Timo | Knaute | Almaniya |
| Martin | Kobler | Almaniya |
| Kristof | Lauq | Almaniya |
| Sarah | Lohşelder | Almaniya |
| Amin | Louden | Almaniya |
| Dafné | Lucas | Almaniya |
| Heidi Katya | Mişke | Almaniya |
| Kosima | Peissker-Meyer | Almaniya |
| Melani | Pörşman | Almaniya |
| Yohan | Şliçte | Almaniya |
| Yan | Şnayder | Almaniya |
| İren | Tiede | Almaniya |
| Rebecca | Vagner | Almaniya |
| Heinz Bernd | Vittiç | Almaniya |
| Lili | Hantos | Macarıstan |
| Renata | Şiraişi | Macarıstan |
| Adrien | Boyle | İrlandiya |
| Karolin | Brennan | İrlandiya |
| Brayn | Egan | İrlandiya |
| Frank | Kennefik | İrlandiya |

| | | |
|---|---|---|
| Aifrik | Linç Horne | İrlandiya |
| Bernard | Kuorol | İrlandiya |
| Andrü | Riçardson | İrlandiya |
| Diletta | Berardinelli | İtaliya |
| Daniele | Lençi | İtaliya |
| Mariaçiara | Sekko | İtaliya |
| Askar | Abildin | Qazaxıstan |
| Abylay | Abıxan | Qazaxıstan |
| İndira | Aubakirova | Qazaxıstan |
| Azamat | Ayap | Qazaxıstan |
| Ainur | Botbayeva | Qazaxıstan |
| Dauren | Diyarov | Qazaxıstan |
| Arnur | Qabdullin | Qazaxıstan |
| Rustem | İssaqaliyev | Qazaxıstan |
| Dana | Karaqulova | Qazaxıstan |
| Zuleixa | Mardanova | Qazaxıstan |
| Batagoz | Mauletova | Qazaxıstan |
| Dilyara | Mussabekova | Qazaxıstan |
| Maxabat | Kojokeeva | Qırğızıstan |
| Madina | Sarkulova | Qırğızıstan |
| Aleksandrs | Mironovs | Latviya |
| Tadas | Kubilius | Litva |
| Egle | Mazele | Litva |
| İveel | Batjil | Monqolustan |
| Saskia | Kluit-Sledsens | Hollandiya |
| Leonardus | Platvoet | Hollandiya |
| Yohannes | Ştinen | Hollandiya |
| Agnes | Vagenaar | Hollandiya |
| Haque Navaz Axtar | Çodri | Norveç |
| May | Endresen | Norveç |
| Sondre | Martinussen | Norveç |
| Kamilla | Mixalsen | Norveç |
| Kamilla | Vedul | Norveç |
| Rodriqo | Qavazzi | Portuqaliya |
| Răzvan-İonuț | Balan | Rumıniya |
| Doina Marina | Penciu Kăpraru | Rumıniya |
| Maksim | Abramov | Rusiya Federasiyası |
| Timur | Axareev | Rusiya Federasiyası |
| Andrei | Alekseev | Rusiya Federasiyası |
| Ekaterina | Anoşkina | Rusiya Federasiyası |
| Aleksandr | Averianov | Rusiya Federasiyası |
| Serqey | Baburkin | Rusiya Federasiyası |
| Elena | Balandina | Rusiya Federasiyası |
| Amir | Bilialitdinov | Rusiya Federasiyası |
| Kristina | Boqdanova | Rusiya Federasiyası |
| Konstantin | Deqtiarev | Rusiya Federasiyası |
| Dmitrii | Driuçin | Rusiya Federasiyası |
| Evelina | Emuzova | Rusiya Federasiyası |

| | | |
|---|---|---|
| Luka | Ezerskiy | Rusiya Federasiyası |
| Arif | Qadjiyev | Rusiya Federasiyası |
| Marsel | Qibadullin | Rusiya Federasiyası |
| Alena | Qudkova | Rusiya Federasiyası |
| Artem | Kadırmatov | Rusiya Federasiyası |
| Alesya | Xalyapina | Rusiya Federasiyası |
| Anna | Xodaeva | Rusiya Federasiyası |
| Yulia | Xodireva | Rusiya Federasiyası |
| Daria | Kim | Rusiya Federasiyası |
| Vasiliy | Kojenkov | Rusiya Federasiyası |
| Polina | Kroxina | Rusiya Federasiyası |
| Aleksander | Lankeviç | Rusiya Federasiyası |
| Anna | Lankeviç | Rusiya Federasiyası |
| Dmitriy | Makarov | Rusiya Federasiyası |
| Nikolay | Novgorodskii | Rusiya Federasiyası |
| Sergey | Orlov | Rusiya Federasiyası |
| Vasily | Orlovets | Rusiya Federasiyası |
| Sergey | Overçenko | Rusiya Federasiyası |
| Vsevolod | Perevozçikov | Rusiya Federasiyası |
| Lyudmila | Sadıkova | Rusiya Federasiyası |
| Viktor | Sazonov | Rusiya Federasiyası |
| Nazim | Şaxbazov | Rusiya Federasiyası |
| Igor | Shaxtar-ool | Rusiya Federasiyası |
| Qleb | Şubin | Rusiya Federasiyası |
| Stanislav | Telegin | Rusiya Federasiyası |
| Denis | Vakarçuk | Rusiya Federasiyası |
| Andrey | Volkov | Rusiya Federasiyası |
| Daniyil | Zaxarov | Rusiya Federasiyası |
| İvan | Zavorin | Rusiya Federasiyası |
| Andrey | Zaykov | Rusiya Federasiyası |
| Karmen | Klodin Urondo | İspaniya |
| David | Korral Hernández | İspaniya |
| İsabel | Mençon Lopez | İspaniya |
| Lars Yonas | Hols | İsveç |
| İnger Elisabet | Yohansson | İsveç |
| Lena | Ore Arno | İsveç |
| Mia Helena | Rimby | İsveç |
| Lott Anna Margareta | Törngren | İsveç |
| Qreqor | Duruz | İsveçrə |
| Daniel | Fasnaxt | İsveçrə |
| Mişel | Qusin | İsveçrə |
| Maya | Huerlimann | İsveçrə |
| Roman | Magri | İsveçrə |
| Niniane | Peffgen | İsveçrə |
| Fatima Aşfarah | Rumi | İsveçrə |
| Hüseyin | Alptekin | Türkiyə |
| Havva | Kök Arslan | Türkiyə |
| Veysel | Kurt | Türkiyə |

| | | |
|---|---|---|
| Ayhan | Sari | Türkiyə |
| Sandra | Qale | Böyük Britaniya |
| Nirmala | Qopal | Böyük Britaniya |
| Katerine | İgras | Böyük Britaniya |
| Melanie | Lizars | Böyük Britaniya |
| Robert | Manqam | Böyük Britaniya |
| Skot | Martin | Böyük Britaniya |
| Aleksandra | Pajeviç | Böyük Britaniya |
| Mark | Pasko | Böyük Britaniya |
| Con | Torday | Böyük Britaniya |
| Mark | Voller | Böyük Britaniya |
| Bujar | Ajdari | Amerika Birləşmiş Ştatları |
| Debora | Aleksander | Amerika Birləşmiş Ştatları |
| Syeda | Ali | Amerika Birləşmiş Ştatları |
| Yacob | Baili-Daystar | Amerika Birləşmiş Ştatları |
| Samuel | Börges | Amerika Birləşmiş Ştatları |
| Cina | Çirillo | Amerika Birləşmiş Ştatları |
| Stefen | Farli | Amerika Birləşmiş Ştatları |
| Tifani | Qlass | Amerika Birləşmiş Ştatları |
| Andrü | Qridinsky | Amerika Birləşmiş Ştatları |
| Dinka | Qurova | Amerika Birləşmiş Ştatları |
| Etan | Cenkins | Amerika Birləşmiş Ştatları |
| Ceyms | Ketterer | Amerika Birləşmiş Ştatları |
| Uolter | Kleponis | Amerika Birləşmiş Ştatları |
| Tamara | Kovalski | Amerika Birləşmiş Ştatları |
| Andrü | Lonq | Amerika Birləşmiş Ştatları |
| Maykl | Martz | Amerika Birləşmiş Ştatları |
| Cozef | MakDonag | Amerika Birləşmiş Ştatları |
| Gerald | MakDonoug | Amerika Birləşmiş Ştatları |
| Paddy | MakQir | Amerika Birləşmiş Ştatları |
| Kimberly | MakLaflin | Amerika Birləşmiş Ştatları |
| Katarina | Nyükamp | Amerika Birləşmiş Ştatları |
| İlia | Nuzov | Amerika Birləşmiş Ştatları |
| Hans | Opsahl | Amerika Birləşmiş Ştatları |
| Sofya | Orloski | Amerika Birləşmiş Ştatları |
| İris | O'Rourke | Amerika Birləşmiş Ştatları |
| Mari | Fillips | Amerika Birləşmiş Ştatları |
| Ginette | Profet | Amerika Birləşmiş Ştatları |
| Darius | Roby | Amerika Birləşmiş Ştatları |
| Jake | Slegers | Amerika Birləşmiş Ştatları |
| Raymond | Şnider | Amerika Birləşmiş Ştatları |
| Hanna | Talli | Amerika Birləşmiş Ştatları |
| Lisa | Tilni | Amerika Birləşmiş Ştatları |
| Sabrina | Tiş | Amerika Birləşmiş Ştatları |
| Logan | Trombli | Amerika Birləşmiş Ştatları |
| Kara | Vetş | Amerika Birləşmiş Ştatları |
| Karol | Ual | Amerika Birləşmiş Ştatları |
| Timoti | Ual | Amerika Birləşmiş Ştatları |

| | | |
|---|---|---|
| Debora | Uolker | Amerika Birləşmiş Ştatları |
| Teresa | Uolş | Amerika Birləşmiş Ştatları |
| Marşa | Vaynerman | Amerika Birləşmiş Ştatları |
| Audri | Uilyams | Amerika Birləşmiş Ştatları |
| Murodilla | Alimbaev | Özbəkistan |
| Bunyodjon | Tillaxucayev | Özbəkistan |
| Şamşod | Yunusov | Özbəkistan |

**DTİHB SMM Uzunmüddətli Müşahidəçilər**

| | | |
|---|---|---|
| Lars | Nyholm | Danimarka |
| Maşu | Poulsen | Danimarka |
| Martin | Minder | Gürcüstan |
| Anya | Bronni | Almaniya |
| Kristian | Bak | Almaniya |
| Joxen Mixael | Rink | Almaniya |
| Kristian | Şvartz | Almaniya |
| Yurgen | Şpidel | Almaniya |
| Noemi | Arçidiacono | İtaliya |
| Oljas | Akanov | Qazaxıstan |
| Svetlana | Rusu | Moldova |
| Ştenberq | Arild | Norveç |
| Hans Kristen | Knöelsrud | Norveç |
| Marina | Liukmanova | Rusiya Federasiyası |
| Evgeni | Loqinov | Rusiya Federasiyası |
| Andrey | Ostvald | Rusiya Federasiyası |
| Aleksandr | Paşedko | Rusiya Federasiyası |
| Tajana | Brkanović | Serbiya |
| Mario | Barfus | İsveçrə |
| Martin | Minder | İsveçrə |
| Aleksandra | von Arks | İsveçrə |
| Xurşed | Raximov | Tacikistan |
| Qabriell | Paçana | Amerika Birləşmiş Ştatları |
| Kristofer | Barber | Amerika Birləşmiş Ştatları |
| Con | Kavano | Amerika Birləşmiş Ştatları |
| Elia | Varela-Serra | Amerika Birləşmiş Ştatları |

**DTİHB MMM Əsas Heyət Üzvləri**

| | | | |
|---|---|---|---|
| Ouen | Mörfi | Heyətin rəhbəri | İrlandiya |
| Veyn | Pilqrim | | Kanada |
| Rokko Ciovanni | Dibiase | | İtaliya |
| Maks | Bader | | Hollandiya |
| Qent | Ramadani | | Norveç |
| Svetlana | Çetaikina | | Rusiya Federasiyası |
| Mişo | İmamoviç | | Serbiya |

| | | |
|---|---|---|
| İvana | Stanoyev | Serbiya |
| Anders Uno | Eriksson | İsveç |
| Firuza | Garibşoeva | Tacikistan |
| Eqor | Tilpunov | Ukrayna |
| Yevheniya | Zamrii | Ukrayna |
| Dominik | Hovell | Böyük Britaniya |
| Polina | Lemos | Böyük Britaniya |

# DTİHB HAQQINDA

Demokratik Təsisatlar və İnsan Haqları Bürosu (DTİHB) ATƏT-in iştirakçı dövlətlərə "insan hüquq və əsas azadlıqlarına tam qorunmasını təmin etmək, qanunun aliliyinə əməl etmək, demokratiya prinsiplərini təşviq etmək və (...), demokratik təsisatları gücləndirmək və qorumaq, həmçinin cəmiyyətdə tolerantlığı təbliğ etmək" proseində kömək etmək üçün əsas təsisatdır (1992 Helsinki Zirvə Sənədi). Buna ATƏT-in insan ölçüsü deyilir.

Varşavada (Polşa) yerləşən DTİHB 1990-cı il Paris sammitində Azad Seçkilər Bürosu olaraq yaradılmış və 1991-ci ilin mayında fəaliyyətə başlamışdır. Bir il sonra, ofisin adı insan haqları və demokratikləşmə daxil olmaqla genişləndirilmiş mandatı əks etdirmək üçün dəyişdirilmişdir. Hazırda təşkilatın 150 nəfərdən çox işçisi var.

DTİHB, Avropada **seçki müşahidəsi** sahəsində aparıcı təsisatdır. Hər il ATƏT regionunda seçkilərin ATƏT öhdəliklərinə, digər beynəlxalq öhdəliklərə və demokratik seçkilər standartlarına uyğun olub-olmadığını qiymətləndirmək üçün minlərlə müşahidəçinin yerləşdirilməsini əlaqələndirir və təşkil edir. Təşkilatın özünəməxsus metodologiyası bütövlükdə seçki prosesi barədə dərindən məlumat toplamağa və təhlil etməyə imkan verir. Dəstək layihələri vasitəsilə DTİHB iştirakçı dövlətlərə seçki proseslərini təkmilləşdirməyə də köməklik göstərir.

Təşkilatın **demokratikləşmə** fəaliyyətinə aşağıdakılar daxildir: hüququn üstünlüyü, qanunvericiliyə dəstək, demokratik idarəetmə, miqrasiya və hərəkət azadlığı və gender bərabərliyi. DTİHB hər il demokratik strukturları inkişaf etdirilməsinə yönələn bir sıra məqsədli yardım proqramları həyata keçirir.

DTİHB, həmçinin iştirakçı dövlətlərin ATƏT-in insan ölçüləri öhdəliklərinə uyğun **insan hüquq və əsas azadlıqlarını** təşviq etmək və qorumaqla bağlı öhdəliklərini yerinə yetirməsinə kömək edir. Buna, terrorizmə qarşı mübarizədə insan hüquqları, insan alveri qurbanı olmuş insanların insan hüquqlarının müdafiəsini artırmaq, insan hüquqları sahəsində təhsili və təlim, insan hüquqlarının monitorinqi və hesabatları, habelə qadınların insan hüquqları və təhlükəsizliyi kimi sahələrdə təcrübə paylaşmaq üçün müxtəlif tərəfdaşlarla əməkdaşlıq etməklə nail olunur.

**Tolerantlıq və ayrıseçkiliyə yol verilməməsi** sahəsində DTİHB iştirakçı dövlətlərə nifrət cinayətlərinə və irqçilik, ksenofobiya, antisemitizm və digər dözümsüzlük hallarına qarşı cavab tədbirlərinin gücləndirilməsində dəstək göstərir. DTİHB-nin tolerantlıq və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı fəaliyyəti aşağıdakı sahələrə yönəldilmişdir: qanunvericilik; hüquq-mühafizə orqanları əməkdaşlarının təlimi; nifrətə əsaslanan cinayət və hadisələrə dair monitorinq, hesabat və izlənmə; tolerantlıq, hörməti və qarşılıqlı anlaşmanı təşviq edən maarifləndirici fəaliyyətlər.

DTİHB iştirakçı dövlətlərə **Roma və Sinti** siyasətləri ilə bağlı tövsiyələr də verir. Roma və Sinti icmaları arasında potensialın artırılmasına və şəbəkə qurulmasına kömək edir və roma və sinti nümayəndələrinin siyasətlərin formalaşdırılmasına iştirakını təşviq edir.

DTİHB-nin bütün fəaliyyətləri ATƏT iştirakçı dövlətləri, ATƏT institutları və sahə əməliyyatları, o cümlədən digər beynəlxalq təşkilatlarla sıx əlaqələndirmə və əməkdaşlıq şəraitində aparılır.

Daha ətraflı məlumat üçün DTİHB-nın internet səhifəsinə müraciət edin (www.osce.org/odihr).